www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 avqust 2017-ci il Cümə № 162 (6776) Qiyməti 60 qəpik

**Xəbər**

## 6 günlük körpənin qatili nənəsi imiş: "Qız nəvə istəmirdim..."

yazısı səh.7-də

**Gündəm**

### Putindən separatçılara açıq dəstək - Qarabağı nə gözləyir?



Kreml Rusiyaya qarşı sanksiyalara separatçılığı stimullaşdırmaqla cavab verir; **politoloq:** "Moskva heç vaxt Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməyəcək..."

yazısı səh.11-də

### "Təzə bazar" bağlanmayıb, əl dəyişib - əməkdaşımızın bazar qeydləri

yazısı səh.10-da

### İrana mesaj: "Belə təəssübkeşsinizsə, Ermənistandakı səfirliyinizi bağlayın"

yazısı səh.6-da

### Lapşin İsrailə ekstradisiya üçün Ədliyyə Nazirliyinə müraciət etdi

yazısı səh.3-də

### Rusiyadan dünyaya əsas təhlükə: nüvə silahı, yoxsa işğalçı siyasət?

yazısı səh.9-da

*Sülhəddin Əkbər:*

### "Yaxın 2 ildə Azərbaycan ətrafında vəziyyət gərginləşə bilər"

yazısı səh.5-də

### Paytaxt sakini səhvən əməliyyat olunduğunu deyir, nazirlik isə məhkəməni məsləhət görür

yazısı səh.14-də

*Vüqar Bayramov:*

### "Rusiyaya qarşı iqtisadi müharibə ölkəmizə də təsir edəcək"

yazısı səh.10-da

### Suriyada "rus resepti": Kremlin atəşkəs planı sürətlə həyata keçir

yazısı səh.3-də

### Dünya pedofilləri çox sərt cəzalandırılır, Azərbaycanda isə...

yazısı səh.13-də

## İrəvan Bakı və Ankaraya qarşı alternativ sipər axtarır - mühüm gəlişmə

# AZƏRBAYCAN-TÜRKİYƏ İTTİFAQI - ERMƏNİSTANIN QORXULU RÖYASI

ABŞ-la Rusiya arasında sıxılmağa başlayan işğalçı ölkə çıxılmazda; Qərb paytaxtları Ermənistanın 2013-cü ildəki xəyanətini bağışlayacaqmı?; **Ekspert:** "İrəvan bilməlidir ki, torpaqların işğalı ona baha başa gələcək..."




yazısı səh.8-də

## Hacıqabul qatilinin qapısı ağzında gecəyarı güllə atdılar - müdhiş olayla bağlı yeni iddialar

Dəhşətli qisas dramının səbəbləri detallı şəkildə bəlli olur; sonu qanla bitən ədavət Moskvada azərbaycanlı iş adamının oğurlanmasından qaynaqlanıbmış...

yazısı səh.7-də



### Sabir Rüstəmxanlı müxalifətin gizli toplantısından danışdı

yazısı səh.3-də



### Tramp haqda şok proqnoz - sui-qəsd anonsu...

yazısı səh.12-də



İxtiyar Şirin

### Keçmiş baş prokurordan Surət Hüseynova sərt ittihamlar

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017



## Ekspertdən torpaq satışı ilə bağlı bədbin proqnoz

**"Son 2 ildə mənzil bazarında ciddi durğunluq hiss olundu və nəticədə tələbat kəskin azaldı". Bu sözləri axar.az-a açıqlamasında iqtisadçı ekspert Rəşad Həsənov deyib. Onun sözlərinə görə, MTK-ların əlində ciddi həcmdə tikintisi başa çatmış mənzillər olub.**

"Hazırda isə MTK-lar qiymətlərin aşağı istiqamətli müəyyənləşdirilməsinə üstünlük verirlər. Faktiki olaraq, MTK-ların müəyyən öhdəliklər qarşısında vəsaitlərə ehtiyacı var. Çünki bu mənzillər üzərində yatan vəsaitlər güclü deyil. Buna görə də MTK-lar çalışır ki, bu aktivləri likvidləşdirsinlər, yəni daha qısa müddətdə satmaqla nağdlaşdıra bilsinlər. Bu məqsədlə də müəyyən kampaniyalar həyata keçirilir. Bu kampaniyalar nəticəsində yeni mənzil bazarında qiymətlər aşağı istiqamət üzrə davam edir. Ancaq digər bir məsələ ondan ibarətdir ki, Azərbaycanda bir sıra banklar kreditləşməni müəyyən qədər bərpa etməyə çalışır. Eyni zamanda paralel olaraq artıq manatın məzənnəsində sabitlik müşahidə olunmaqdadır. Bunun nəticəsində isə həm dövriyyəyə daxil olan vəsaitlərin, həm də əhalinin əlində cəmlənən yığımların bir qismi daşınmaz əmlak bazarına yönələ bilər. Bu, baş verərsə, mənzil bazarında qiymətlərin ilin sonuna indiki səviyyədə qərarlaşmasını ehtimal etmək mümkündür", - deyə o qeyd edib.

**Ekspert hələlik daşınmaz əmlak bazarında və təkrar bazarda qiymətlərin sabit olduğunu bildirib:** "Düzdür, satışlar kifayət qədər zəifdir və bu sferada fəaliyyət göstərənlər davamlı olaraq tələbin azlığından şikayət edirlər. Ancaq buna baxmayaraq, qiymətlərin azalması prosesi ciddi həcmdə müşahidə edilmir. Ümumiyyətlə, hələlik həm təkrar, həm də ilkin daşınmaz əmlak bazarında qiymətlərin aşağı düşmə imkanları var. Çünki müəyyən olunmuş qiymətlər real bazar şərtlərinə uyğun deyil. Bu baxımdan da gələcəkdə yenidən bazarda təklif təzyiqi artarsa və tələb indiki kimi durğun qalarsa, o zaman qiymətlər aşağı düşəcək".

**Torpaq bazarında isə situasiyanın fərqli olduğunu deyən iqtisadçı 2013-2014-cü illə müqayisədə qiymətlərin müəyyən qədər azaldığını qeyd edib:** "2015-ci ildən etibarən başladılan aqrar siyasət çərçivəsində kənd təsərrüfatı təyinatlı torpaqların fərdi yaşayış məqsədilə istifadəsinə qarşı mübarizə son nəticədə fərdi yaşayış təyinatlı torpaq sahələrinin həcmini azaldıb. Ümumiyyətlə, torpaq tükənən bir əmlak növü olduğundan düşünmürəm ki, bundan sonrakı dövrdə qiymətlər azalacaq. Böyük ehtimalla hazırkı vəziyyət ilin sonuna qədər davam edəcək. 2018-ci ilin əvvəlində isə nisbi artımlar müşahidə oluna bilər".

## Azərbaycan bütün qızıl ehtiyatlarını satdı

**Azərbaycan bu ilin fevral ayında rəsmi qızıl ehtiyatlarının geri qalan 18 tonunu da satıb. "Report" xəbər verir ki, bu barədə Ümumdünya Qızıl Şurası (World Gold Council) məlumat yayıb. Şuranın avqustun 1-də yenilədiyi dünya ölkələri üzrə rəsmi qızıl ehtiyatlarının statistikası hesabatına görə, Azərbaycan qlobal reytinqdə yer almayıb.**

Qeyd edək ki, yanvar ayında Azərbaycan 18 ton rəsmi qızıl ehtiyatlarına sahib olub və qlobal reytinqdə 63-cü sırada yer alıb. Ümumdünya Qızıl Şurasının hesabatına görə, Azərbaycan rəsmi qızıl ehtiyatlarını 2016-cı ilin sentyabr ayından etibarən satmağa başlayıb. Belə ki, sentyabr ayında satış həcmi 1 ton, oktyabrda 4,2 ton, noyabrda 3 ton, dekabr 2 ton, cari ilin yanvarında 2 ton və fevralda 18 ton təşkil edib. Yəni Azərbaycan 6 ay ərzində bütün qızıl ehtiyatlarını satıb.

Xatırladaq ki, ARDNF martın 10-da Ümumdünya Qızıl Şurasının Azərbaycanın qızıl ehtiyatlarını satması ilə bağlı yaydığı məlumatın doğru olmadığını açıqlayıb. Qurumdan sayta ARDNF tərəfindən alınmış qızılın ümumi miqdarının 30,2 ton təşkil etdiyi bildirilib: "Alınmış qızıl Azərbaycana gətirilərək, saxlanması üçün Azərbaycan Mərkəzi Bankında yerləşdirilib. Ötən ildən etibarən qızılın ehtiyatda saxlanılması üçün AMB-nin xəzinəsindən hissə-hissə ARDNF-in xəzinəsinə köçürülməsinə başlanılıb. Fondun qızıl ehtiyatlarını satması ilə bağlı məlumatlar həqiqətə uyğun deyil. Hazırda fond tərəfindən qızıl ehtiyatlarının satılması nəzərdə tutulmur".

# "Ermənistandakı əsir türk qadınlarını qurtarın!" - Niderland Avrasiya Fondundan çağırış

**Niderland Avrasiya Fondu 1992-ci ildə başlayan Azərbaycan-Ermənistan müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülən 2700 qarabağlı Azərbaycan türk qadınının qurtarılması üçün fəaliyyətə başlayıb. Fondun rəhbəri Fatma Aktaş əsir qadınların azad olunması ilə bağlı mövzunu gündəmə gətirmək üçün beynəlxalq ictimaiyyətə çağırış edib.**



Virtualaz.org Türkiyə mətbuatına istinadən xəbər verir ki, ictimaiyyətə ünvanlanmış çağırışda bildirilir ki, rus ordusunun da dəstəyi ilə erməni separatçı qüvvələrin əzəli Azərbaycan torpağı olan Qarabağı Ermənistanla birləşdirmək və Qarabağdakı türkləri bölgədən təmizləmək üçün başlatdıqları işğal 1994-cü ildə imzalanan atəşkəslə sona çatdırılıb. Erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 20 min adam öldürülüb 50 minə yaxın insan isə şikəst olub. Bir milyondan çox insan doğulduğu, yaşadığı torpaqlardan qoparılaraq köçkün vəziyyətinə düşüb.

"Bu işğal müddəti ərzində 4 mindən çox adam girov və əsir olaraq Erməni silahlı qüvvələrinin əlində insanlıqdan kənar işgəncələrə məruz qalıb, bu girov və əsirlərdən yalnız 1370 adamın qaytarılması təmin edilib. Xüsusilə Xocalıda dünyanın gözü qarşısında mülki əhaliyə qarşı yaşadığımız əsrin ən sarsıdıcı soyqırımı baş verib. 2700 qarabağlı türk qadını, gənc və uşaq Ermənistanın işğalçı qüvvələri tərəfindən əsir götürülüb. Bölgəyə gedən beynəlxalq təşkilatların müşahidə və hesabatları, mətbuatda nəşr olunanlar əsasında əsir və girovların insanlıqdan kənar işgəncələrlə yaşadıqları məlumdur", - deyə çağırışda bildirilir.

Mənbə qeyd edir ki, 1992-ci ildə Beynəlxalq Qızıl Xaç Təşkilatı tərəfindən qeydiyyata alınan girovların az qala hamısı bu gün ermənilər tərəfindən inkar edilir. Fond belə bir qeyri-insani cinayəti törədənlərlə bağlı bütün məlumat və sənədləri bir daha gündəmə gətirmək, dünya ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmək niyyətindədir.



## Bu gün Bakıda 37° isti olacaq

**Azərbaycanda bu günə olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, avqustun 4-də Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 23-26° isti, gündüz 33-38° isti, Bakıda gecə 24-26° isti, gündüz 35-37° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 40-45 % olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti yağmursuz olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-40° isti, dağlarda gecə 15-20° isti, gündüz 27-32° isti olacağı gözlənilir.



## Poroşenko Saakaşvilinin Ukraynaya yolunu bağladı

**Ukrayna Mixail Saakaşvilinin şəxsiyyətini təsdiq edən bütün sənədlərin ləğv edilməsi barədə ABŞ və digər ölkələrə xəbərdarlıq edib. Avropa.info xəbər verir ki, bu barədə "Ukraynanın Komsomolskaya Pravda" qəzeti öz mənbələrinə istinadən yazıb.**

"Ukrayna prezidenti Pyotr Poroşenko Saakaşvilinin vətəndaşlığı ilə bağlı hiyləgər oyun oynadı. Vətəndaşlığın ləğv edilməsi ilə bağlı sərəncamın ləğvindən sonra Ukrayna ABŞ və başqa ölkələrə onun pasportunun ləğvi barədə xəbərdarlıq edib. O, fiziki olaraq nə ABŞ-dan çıxa bilər, nə də Ukraynaya və ya başqa ölkəyə gedə bilər. Yoldaş Saakaşvili izolyasiyadadır" - qəzet yazır.

Mənbənin sözlərinə görə, Saakaşvili ilə bağlı hər şey elə qurulub ki, Ukrayna Gürcüstanın eks-prezidentini ekstradisiya etmək məcburiyyətində qalmasın. Tiflis artıq bu məsələdə ABŞ-la danışıqlar prosesinə başlamağa hazır olduğunu bəyan edib. Xatırladaq ki, Saakaşvili 1 avqustda Ukraynaya qayıtmağa hazır olduğunu bəyan etmişdi.



## Taleh Bağırov Qobustana köçürüldü

**Taleh Bağırov və onunla birlikdə həbs edilən digər şəxslər Qobustana köçürülüb. Musavat.com xəbər verir ki, 2015-ci ildə Nardaranda baş verən silahlı qarşıdurmaya görə həbs edilən Müsəlman Birliyi Hərəkatının sədri Taleh Bağırov, AXCP sədrinin müavini Fuad Qəhrəmanlı, Abbas Hüseynov və digərləri etap edilib.**

T.Bağırovla A.Hüseynov Qobustan həbsxanasına köçürülüb. F.Qəhrəmanlı isə 10 saylı cəzaçəkmə müəssisəsinə etap olunub. Digər 15 nəfər də başqa cəzaçəkmə müəssisəsinə köçürülüblər.

Qeyd edək ki, Nardaran hadisələrində iki polis əməkdaşı, 4 nəfər isə dindar dünyasını dəyişmişdi.

Xatırladaq ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Taleh Bağırov və Abbas Hüseynov 20 il, Fuad Qəhrəmanlı 10 il, Cabbar Cabarov 19 il, Rasim Cəbrayılov 17 il, Ramin Yarıyev 10 il, Zakir Mustafayev, Cahad Babakişizadə, Aqil Quliyev, Abbas Quliyev, İbrahim Xudaverdiyev, Etibar İsmayılov, Bəhruz Quliyev, Əli Nuriyev, Əlibala Vəliyev, Fərhad Balayev və Abbas Tağıyevin hər biri 14 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

❑ **İ.MURADOV**

## Bakıda maraqlı sosial-test: "Ehtiyacın varsa, götür, yoxdursa, gətir..."

**Bakıda ilk dəfə olaraq qeyri-adi sosial-test keçirilib. BAKU.WS-in məlumatına görə, sosial-testin videosu "Alles Pro" youtube kanalında yerləşdirilib.**

Sosial test bundan ibarətdir ki, üzərinə müxtəlif məbləğlərdə pul yapışdırılmış və üzərinə "Ehtiyacın varsa götür, yoxdursa gətir" yazılmış kağız lövhəni əlində tutmuş oğlan Bakının mərkəzində dayanıb. Oğlanın yanından keçən insanlar əvvəlcə bunu maraqla izləyiblər. Daha sonra isə bəziləri pul verib, bəziləri isə puldan götürüb.

Məlum olub ki, oğlanın üzərindən pul götürənlərin sayı daha çoxdur. Onların da bəziləri rayona getməyə pulu çatmadığına, su almaq istədiyinə, bəziləri isə dərman almaq üçün pulu kifayət etmədiyinə görə götürdüklərini deyiblər.

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017

# Müxalifətin gizli toplantısı - düşərgə seçkilərə hazırlaşır, yoxsa...

## Sabir Rüstəmxanlı: "Belə görüşlərə böyük ehtiyac var, çünki..."

**Azərbaycanın müxalifət partiyalarının rəhbərləri arasında gizli görüş keçirilib. AzVision-un əldə etdiyi məlumata görə, görüşdə ölkədəki ictimai-siyasi vəziyyət, müxalifət partiyalarının yenidən birlik formasında fəaliyyət göstərməsi müzakirə olunub.**

Bağlı qapılar arxasında bir neçə saat davam edən görüş barədə mətbuata informasiya sızdırılmayıb. Hətta görüşdən fotonun paylaşılması da qadağan edilib. Bu da görüş barədə bəzi fikirlərin meydana çıxmasına səbəb olub. Belə iddialar səslənib ki, siyasi partiya rəhbərləri gələn ilki seçkilərlə bağlı bir araya gəliblər və dolayısı ilə seçkilərə hazırlıqlara start veriblər. Hətta görüşdə vahid namizəd məsələsinin müzakirəsi ehtimallarından da söz açılır. İstənilən halda görüş barədə mətbuata məlumat verilməməsi, eyni zamanda görüşdə iştirak edənlərin say tərkibinə baxdıqda bəzi mülahizələr meydana çıxır.

**Bu arada görüş barədə azvision.az-a danışan ADP sədri iştirakçılar barədə də danışaraq, onların konkret adlarını çəkib:** "Görüşdə Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, Müsavat Partiyasının sədri Arif Hacılı, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu, Xalq Partiyasının sədri Pənah Hüseyn, Azad Azərbaycan Partiyasının sədri Kamil Seyidov, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Açıq Cəmiyyət Partiyasının sədri Sülhəddin Əkbər, İsa Qəmbər iştirak edib. Milli Şuranın sədri Cəmil Həsənli və dəvət olunan digər partiya sədrləri obyektiv səbəbdən görüşdə iştirak edə bilməyiblər".

Xatırladaq ki, illər öncə müxalifət müxtəlif formatlarda görüşlər keçirirdi. Məsələn, ən sonuncu görüşlərdən biri Bakının məşhur restoranlarından olan "Asiman"da baş tutmuşdu. Mətbuat bu görüşü şərti olaraq "müxalifətin "Asiman" görüşü" kimi qeyd edirdi. Cəmiyyətin siyasi aktiv hissəsi bu cür görüşlərdən ruhlansa və ümidlənsə də, hər dəfə proses müxalifət liderlərinin yersiz kaprizləri ucbatından nəticəsiz başa çatırdı.



**Görüşün təşəbbüskarı ilə Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı səslənən fikirlərlə bağlı "Yeni Müsavat"a danışdı:** "Görüş barədə hamımızın razılığı ilə qısa məlumat verildi. İndi yayılan xəbərdə qeyd olunur ki, Əli Kərimli olmayıb, səhv məlumatdır, o da iştirak edirdi. Razılaşdırılmış siyasətçilərdən İqbal Ağazadənin üzürlü işi çıxdı, xahiş etdi ki, onu üzürlü sayaq. İsgəndər Həmidov da rayondan gələ bilmədi. Sadəcə, qərara gəldik ki, geniş məlumat verilməsin. Əslində onları daha çox payızda keçirməyi planlaşdırdığımız Qarabağ forumuna dəvət etmək üçün çağırmışdım. Düşünürəm ki, belə görüşlərə böyük ehtiyac var. Çünki hazırda çox ciddi problemlərimiz var, ideyalarımızı tam həyata keçirə bilməmişik. İqtidar-müxalifət münasibətləri qaydasına düşməli, düşmənçilik aradan qaldırılmalıdır. Səmimi deyirəm ki, görüşdə, ümumiyyətlə, seçki məsələsi müzakirə olunmadı. Etiraf olundu ki, çoxdandır bu tərkibdə yığışmırıq. Hamısına gəldiyi üçün təşəkkür etdim. Onu da etiraf edim ki, əvvəllər də keçirdiyimiz hər bir tədbirə dəvət göndərdiyimiz şəxslər gəliblər. Əslində ciddi bir fikir ayrılığı yoxdur. Sadəcə, xırda söhbətlər var. Mənasız şeylər ortada mövcuddur, məsələn, bir də baxırsan birincilik yarışı gedir. Təki Vətənin, torpağın birinci olsun. Təəssüflər olsun ki, son 30 ildə baş verənlərdən hələ də bəzi dostlarımız düzgün nəticə çıxarmayıblar. Səmimi görüşün olduğunu deyə bilərəm. Ola bilər ki, hazırlıq prosesində müəyyən yanlışlıqlar olsun. Amma bunların ciddi olduğunu düşünmürəm. Görüşün mətbuata çıxarılıb-çıxarılmamasını əvvəlcədən razılaşdırmamışdıq. Qapalı yığıncaq idi. Ona görə də əsas arqument bu oldu ki, görüşün mətbuata çıxarılması razılaşdırılmamışdı. Şübhəsiz, bu görüşə də müəyyən don geyindirənlər olacaq. Müzakirələrin özündə gördüm ki, müəyyən anlaşılmazlıqlar var ki, indiyə qədər niyə görüş olmur, indi olur. 1999-cu ildə "Yeni Müsavat"da bir yazım var idi, "Gəlin birləşək" başlığı ilə. Partiyamın adında birlik var. Milli məsələlərdə daim bir yerdə olmağa çalışmışıq. Bir olmamağımızın, partiyaların bir arada olmamasının Azərbaycanın gələcəyi baxımından hansı təhlükələri yaratdığı barədə fikirlərimi dedim. Bu cür görüşlər üçün ciddi hazırlıq lazımdır. Yenə də belə görüşlər təşkil etməyə hazıram. Qərara aldıq ki, tez-tez bu cür görüşlər təşkil edək. Mənə elə gəlir ki, bu görüşlər davamlı olacaq. Amma burada hər hansı birliyin yaradılmasından söhbət getmir, sadəcə, görüşə yığışırıq".

❑ **Cavanşir ABBASLI**

# Lapşin İsrailə ekstradisiya üçün Ədliyyə Nazirliyinə müraciət etdi

**Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin ərizəsi Ədliyyə Nazirliyinə təqdim edilib. Bu barədə APA-ya vəkil Eduard Çernin məlumat verib. Vəkil bildirib ki, Lapşin ərizəsində İsrailə təhvil verilməsini xahiş edib.**




E. Çernin deyib ki, Lapşin barəsində olan məhkəmə hökmü qanuni qüvvəyə mindikdən sonra onun təhvil verilməsi baş tuta bilər.

Qeyd edək ki, A. Lapşin bir müddət əvvəl İsrailin Azərbaycandakı səfirliyinin nümayəndələri ilə görüşüb və onlara İsrailə təhvil verilməsini istədiyini deyib. O, barəsində olan hökmdən apelyasiya şikayəti verməkdən imtina edib.

Aleksandr Lapşin iyulun 20-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 3 il müddətinə azadlıqdan məhrum edilib. Ona qarşı Cinayət Məcəlləsinin 281.2 (Hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə, habelə bu cür məzmunlu materialları yayma - Eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi üzrə irəli sürülən ittihama isə xitam verilib. Məhkəmə bu maddə üzrə ittihamın təsdiqini tapmaması qənaətinə gəlib.



# Suriyada "rus resepti" işləyir

## Rusların atəşkəs planı sürətlə həyata keçir, Suriyada addım-addım rus planına doğru gedir, uzunmüddətli atəşkəs Suriyaya sülh gətirəcəkmi?..

**Suriya Demokratik Qüvvələri və ABŞ ordusu İŞİD-in Suriya "paytaxtı" Raqqa şəhərini azad etmək üçün əməliyyatları davam etdirir. Ancaq hələ ötən ay SDQ güclərinin Raqqanın 45 faizinə nəzarət etdiyi xəbərləri yayılsa da, görünən odur ki, şəhərdə ciddi müqavimətlə qarşılaşan amerikalılar və kürdlər irəliləyə bilmir.**

Ümumiyyətlə, son illərdə Suriya və İraqda davam edən müharibədə ən ağır döyüşlər məhz şəhərlərdə baş verib. Kobani, Hələb, Mosul və digər şəhərlər uğurunda müharibə "Stalinqrad metodu" ilə aparılıb, az qala, hər ev uğurunda savaş gedir. Görünən odur ki, Raqqada da İŞİD bu şəkildə müqavimət göstərir.

Xatırladaq ki, İŞİD əl-Babda və Mosulda "canlı bombalar", minalanmış avtomobillərdən istifadə edərək hücum edən qüvvələrə gözlənilməz və ağır zərbələr vurub. Bu isə savaşı ağırlaşdırır, itkilərin sayını artırır. Bu səbəbdən də Raqqada əməliyyatın hələ uzun zaman alacağını demək olar.

Raqqaya iddia edən daha bir qüvvə isə Suriya ordusudur. Mayda Raqqaya cənubdan yaxınlaşmağa çalışan hökumət qüvvələri kürdlərin şəhəri mühasirəyə almasından sonra taktikanı dəyişərək əsasən mərkəzə doğru, əsasən Deyr əz-Zor ətrafına və Livan-Suriya sərhədindəki İŞİD mövqelərinə hücumları artırıb. Ötən ay Livan və Suriya sərhədində Ərsal bölgəsini "ən-Nusra" qruplaşmasından azad etdikdən əldə olunan anlaşmaya əsasən silahlılar avtobuslarla İdlib vilayətinə göndərilib. Növbəti genişmiqyaslı əməliyyatın Livan-Suriya sərhədində İŞİD-in nəzarətində olan böyük ərazidə başlanması gözlənilir.

Suriyanın yerli "əl-İxbariyyə" kanalı Raqqa ətrafında irəliləyən Suriya ordusunun şəhərin cənubunda çoxlu sayda kəndi ələ keçirdiyini xəbər verib. Azad edilən ərazilər arasında neft quyuları bölgəsi də var. Və ilk dəfə olaraq Suriya ordusu Fərat çayının cənubunda 30 kilometrlik ərazini nəzarətə götürüb.

Bu arada "Rossiya-24" telekanalı Rusiyanın Suriyanın Xums vilayətində müxaliflərlə atəşkəs imzaladığı haqda xəbər yayıb. Müdafiə Nazirliyinə istinadən yayılan xəbərdə Xumsun şimalında atəşkəs bölgəsinin yaradılacağı, yerli vaxtla saat 12-dən sonra bölgədə atəşin dayandırılacağı qeyd olunur. Atəşkəs 147 min nəfərin yaşadığı 84 yaşayış məntəqəsini əhatə edəcək. Atəşkəs bölgəsində Rusiya hərbi polisi xidmət aparacaq.

Qeyd edək ki, bir neçə ay əvvəl Suriyada 4 atəşkəs bölgəsinin yaradılması ilə bağlı əvvəlcə Rusiya, Türkiyə və İran arasında anlaşma əldə olunub, ardınca isə ABŞ və İordaniya da anlaşmaya qoşulub. Razılaşmaya əsasən, Suriyada 4 atəşkəs bölgəsi yaradılacaq. Şimalda İdlib vilayəti, mərkəzdə Xums və Hama şəhərləri arasındakı bölgə, Dəməşq və ətrafı, 4-cü isə cənubda Dəra və ətraf ərazilər. Razılaşmaya əsasən Dəməşq və ətrafında atəşkəsə Rusiya və İran nəzarət edəcək, Xums və Hama atəşkəs bölgəsinə ruslar, İdlibdə Türkiyə, Dərada isə amerikalılar və iordaniyalılar atəşkəsə nəzarət edəcəklər. Hazırda son məlumatlara görə, Suriyanın cənub-qərbində və Şərqi Quta bölgəsində atəşkəs rejimi davam edir.

Bununla da Suriyada rusların irəli sürdüyü və addım-addım icra etdikləri atəşkəs planı fəaliyyətə keçir. Bu plan Moskvanın Ankara və Tehranla da razılaşdırmaqla Suriyada uzunmüddətli atəşkəsin əldə olunması və bundan sonra əsas hərbi-siyasi qüvvələr arasında danışıqların başlamasını nəzərdə tutur. Bu plan sürətlə həyata keçir. Raqqa və İdlibdə terrorçu elan edilən qrupların sıradan çıxarılması prosesi də paralel olaraq davam etdiyi üçün tezliklə meydanda 3 əsas qüvvə qalacaq: əsasən Suriyanın şimalında möhkəmlənən və regional status tələb edən kürdlər, hökumət və pərakəndə müxalifət. Rusların əsas planı qarşıdakı aylarda İŞİD, "ən-Nusra" və bənzər qruplaşmaları sıradan çıxarmaq və yerdə qalan hərbi-siyasi müxalifətlə hökuməti danışıqlar masasında əyləşdirməkdir.

Hələlik görünən odur ki, bu plan işləyir. Amerikalılar əsasən şimalda kürdlərlə birlikdə Raqqa uğurunda savaşa qatılıb. İdlibdə isə Qətər və Səudiyyə Ərəbistanına bağlı islamçı qruplar arasında amansız savaş baş verib və vilayətin böyük hissəsi "ən-Nusra" adlı qrupun nəzarətində keçib. Raqqa əməliyyatı başa çatdıqdan və terror qrupları məğlub edildikdən sonra nəzəri olaraq rusların planının həyata keçməsi xeyli real görünür.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017

**Son günlərdə ölkə gündəmini zəbt edən mövzulardan biri də sabiq baş nazir Surət Hüseynovun ölkə.az-a müsahibəsidir. Müsahibədə qiyamçı polkovnikin xüsusən də torpaqlarımızın işğalında birbaşa AXC-Müsavat hökumətini ittiham etməsi, eləcə də özünü Qarabağ savaşının qəhrəmanı kimi təqdim etməsi aranı qatıb. Məsələ ilə bağlı mövqelər isə birmənalı deyil.**

# Keçmiş baş prokurordan Surət Hüseynova sərt ittihamlar

## İxtiyar Şirin: "O, gördüyü işlərdən və başına gələnlərdən hələ də doğru nəticə çıxarmayıb..."

**AXC-Müsavat hakimiyyəti dövründə baş prokuror postunu tutmuş İxtiyar Şirin "Yeni Müsavat"a açıqlamasında S.Hüseynovun ittihamlarına sərt reaksiya verərək, onu ediyi əməllərə görə ifşa etdi:** "Onun müharibə dövründə muzdlu döyüşçülər gətirib-gətirmədiyi barədə məndə baş prokuror işlədiyim zamanlarda heç bir məlumat yox idi. Surət Hüseynovun hərbi hissələrindəki döyüşçülərin əksəriyyəti həbsxanalardan qanunsuz olaraq buraxılan və ona verilən cinayətkarlardan ibarət idi. Bizdə o zamanlar məlumat var idi ki, həmin şəxslərə hər gün narkotik maddə verilib, məhz bu maddənin təsiri altında onları Surət Hüseynovun yanında saxlayıblar. O vaxt bizdə təhlükəsizlik nazirinin verdiyi məlumata görə, Rusiya ilə Surət Hüseynovun ciddi əlaqələri olub. Bu əlaqələr o zaman Gəncədəki rus diviziyasının rəhbəri olan Şerbak vasitəsilə həyata keçirilib. Hətta bir dəfə mənə Türkiyədə Azərbaycanla əlaqəsi olan türk vətəndaşı dedi ki, Şerbakın kürəkəni Surət Hüseynov necə qiyam qaldırdı, Şerbakın ona olan yardımlarını siz görmürdünüz? Mən çox təəccüblənirəm ki, Surət Hüseynov doğrudan da rus komandirinin kürəkəni olub. O şəxsdən dəqiqləşdirmək üçün soruşdum, israrla dedi ki, onun kürəkəni olub. Amma yenə dəqiq deyə bilmirəm, bu, olub ya yox. Əgər olubsa, bu, bizə məsələlərə yenidən qiymət verməyə əsas verir. Bu hadisələrdə Rusiyanın əlinin olması birmənalıdır. Azərbaycanda Surət Hüseynov vasitəsilə dövlət çevrilişinin həyata keçirilməsində Rusiyanın oynadığı rol şübhəsizdir. Surət Hüseynovun o dövrlə bağlı dediklərini heç dəyərləndirmək belə istəmirəm. Onun haqqında daha dolğun məlumat almaq istəyirsinizsə, gedib Ağdam, Füzuli məcburi köçkünlərindən soruşmaq lazımdır ki, rayonların ermənilərin tərəfindən işğalında Surət Hüseynovun rəhbərlik etdiyi qanunsuz hərbi birləşmələrin rolu nədən ibarət olub. Onlar sizə bunları olduğu kimi söyləyəcəklər. Kəndləri necə boşaltdırıblar, camaatı necə qaçırıblar, necə talan ediblər, bundan sonra ermənilərin həmin yerlərə necə gəldikləri barədə həmin rayonların sakinlərinin çox ciddi bilgiləri var. Onların dedikləri həmin hadisələrin şahidi olmayanların dediklərindən qat-qat fərqli olacaq. Azərbaycan torpaqlarının işğalında Surət Hüseynovun necə böyük rolunun olduğu barədə faktlar hər kəsə məlum olacaq. Surət Hüseynov indi boş-boş danışır, amma məgər


İxtiyar Şirin


Surət Hüseynov

özü demədi ki, o torpaqları ermənilərə peşkəş vermişik, sonra qayıdıb alacağıq? Bu fikirləri başqa şəxs söyləməyib ki. Yenidən bu hadisələr barədə başqa fikir yaratmaq cəhdlərinin səbəblərinin nə olduğunu bilmirəm. Amma ən azından tarixi dəyişmək, faktları gizlətmək istəyirlərsə, bu mümkün deyil. Çünki hər şey ortadadır. Bunu hər kəs də bilir. Azərbaycan torpaqlarının işğalının səbəbkarlarının kimliyi də xalqa və dövlətə çox yaxşı məlumdur".

**Sabiq baş prokuror S.Hüseynovun məhkəmə qərarı ilə vətən xaini elan olunduğuna da toxundu:** "O, vətənə xəyanətdə ittiham olunub. Bu, məhkəmənin qərarı idi, AXC rəhbərliyinin dedikləri deyildi. Bu davranışları hesab edirəm ki, dayandırmalı idi. Bunlar onun özünə də lazımsızdır. Çünki danışdıqca etdikləri bir daha gündəmə gəlir. Bunu isə yəqin ki o istəmir. O deyir ki, guya azad etdiyi və digər işğal olunan əraziləri AXC hökuməti satıb. Amma bunları kimlərin etdiyini xalq yaxşı bilir. Surət Hüseynovun bu hədələrini, böhtanlarını, söyüşlərini onun hələ də etdiklərindən nəticə çıxarmaması ilə izah edirəm. O gördüyü işlərdən və başına gələnlərdən doğru nəticə çıxarmayıb. Öz etdiyi əməlləri digərlərinin üzərinə yıxmaq istəyir. O, Türkiyədən danışmır ki. Gəlsin bura. Gəlsin, gedək Ağdam məcburi köçkünlərinin yanında Surət Hüseynov danışsın. Mən də, AXC hökumətinin rəhbərləri də gedəcək. O insanlara cavab versin. Bu torpaqlar necə getdi? Əgər Surət Hüseynov bunları edə bilsə, onun alnından öpəcəm. Bizim dövrümüzdə o, vəzifədən çıxarılıb, sonra da rəhmətlik Heydər Əliyev onu baş nazir təyin etdi. Sonra dövlət çevrilişinə cəhdlə ömürlük həbs olundu. Sonralar da əfv olundu. Bu faktlar ortadadır. O gəlsin ölkəyə, gedək işğal olunan rayonların sakinlərinin yaşadıqları yerlərə. Hamımız etdiklərimizə görə cavab verək. Əgər bunu edəcəksə, mən onun günahsız olduğu barədə fikirlərini müdafiə edəcəyəm. Görün hansı məsuliyyəti üzərimə götürürəm. Onun necə döyüşdüyünü yaxşı bilirlər. Kimin günahı varsa, xalq orada çıxıb deyəcək. Əgər mənim və təmsilçisi olduğum hakimiyyətin burada günahı varsa, bunu xalqdan eşitməyə hazırıq. Qorxumuz yoxdur. Onu məsuliyyətdən azad edib buraxdılar, indi də ağzına gələni danışır. Hesab edir ki, danışdıqları ilə xalqımızın başını aldadıb, gəlib prezident olacaq. Prezident olmaq istəmir, buyursun gəlsin".

**Cavanşir ABBASLI**

# ABŞ demokratiya prinsipindən imtina edir?

## Fərhad Mehdiyev: "Demokratiyanın sıradan çıxmasından danışmaq tezdir..."

**ABŞ Dövlət Departamenti özünün dünya missiyasından "demokratiya" sözünün çıxarılması məsələsini nəzərdən keçirir. Bu barədə Britaniyanın nüfuzlu "The İndependent" qəzeti yazıb. Məqalədə deyilir ki, dövlət katibi Reks Tillersonun tapşırığı ilə hazırlanan missiya bəyannaməsi əvvəlkilərdən fərqlənmir, lakin ABŞ-ın bütün dünyada demokratiyanı yaymaq məqsədi yeni bəyannamədə olmaya bilər.**



Yeni bəyannamə layihəsində deyilir: "Biz bütün dünyada Amerika xalqının təhlükəsizlik və firavanlığı maraqlarını yürüdəcəyik". "The İndependent" bunu keçənilki bəyannamə ilə müqayisə edib. Orada deyilirdi ki, Dövlət Departamenti "daha əmin-amanlıqlı, çiçəklənən, ədalətli və demokratik dünyanın formalaşdırılmasına çalışacaq".

Dövlət Departamentinin hər iki partiyadan olan keçmiş rəsmiləri bildirirlər ki, yeni bəyannamə layihəsindən "ədalətli" və "demokratik" sözlərinin çıxarılması nə təsadüfdür, nə də xəta. Corc Buşun prezidentliyi dövründə milli təhlükəsizlik müşavirinin müavini işləmiş Elliott Abrams deyib ki, "ədalət" və "demokratiya" sözlərinin yeni bəyannamə layihəsində olmamasını yalnız bir cür izah etmək olar: "Biz ədalətli və demokratik dünya istəyirdik, indi belə görünür ki, daha istəmirik".

Abrams deyib ki, Dövlət Departamentinin missiya bəyannaməsi mühüm sənəddir, çünki bütün dünya hökumətlərinə və xalqlarına verilən siqnaldır.

**Politoloq Fərhad Mehdiyev "Yeni Müsavat"a bildirdib ki, bu, Donald Trampın xarici siyasətinin təzahürüdür:** "Ancaq onu da qeyd edim ki, Tramp xarici siyasətin formalaşmasında tək söz sahibi olan insan deyil. Belə ki, Senatın Xarici siyasət komissiyası var və bu komissiya sənədi təsdiqləməlidir. Artıq bilirik ki, Trampın gəlməsi ilə ABŞ dövlət katibliyinin büdcəsindən xeyli kəsilmələr oldu. Bu kəsmələr müxtəlif proqramlarla bağlıdır. Məsələn, USAİD proqramını qeyd edə bilərik. Bu proqram xarici dövlətlərdə və postsovet ölkələrində qeyri-hökumət təşkilatlarının dəstəklənməsi, texniki-əməkdaşlıq layihələrinin həyata keçirilməsi ilə bağlıdır. Bundan əlavə, postsovet ölkələrində müəyyən kateqoriya insanların xaricə göndərilməsi də bura aiddir. Bu proqramın büdcəsindən yarıya qədər kəsinti aparılıb. İndi bəyanatdan sonra hesab edirəm ki, daha da çox proqramlar dayandırılacaq. Məsələn, "Leadership" proqramı var ki, bu proqramla müxtəlif ölkələrdən müəyyən kateqoriya insanlar Amerikaya 15-20 günlük aparılır və orada onlara təlimlər keçirilir, təcrübələr verilir. Bunlarda da azalmalar olacaq. Digər tərəfdən, bu bəyannamə o deməkdir ki, dövlət xarici siyasətdə ancaq və ancaq öz milli maraqlarını güdür. Başqa maraqlar, yeni sülhün, demokratiyanın inkişafına qətiyyən maraq göstərmir. Bir daha da qeyd edim ki, Trampın gəlişi ilə onsuz da siyasət bu fazaya keçmişdi. Lakin Tramp hər istədiyini edə bilməyəcək. O, biznesmendir və ola bilsin ki, xarici siyasətdən bir o qədər də anlayışlı deyil. "Yumşaq siyasət" deyilən bir anlayış var. Qərb diplomatiyası bundan istifadə edir. Bu, o deməkdir ki, hərbi gücdən yararlanmadan mədəniyyət, incəsənət, telekommunikasiya proqramları ilə öz dövlətinizi tanıdırsız və milli maraqlarınızı da məhz bunun vasitəsilə həyata keçirirsiz. Buna "soft power" ("yumşaq güc") də deyirlər. Bundan imtina etmək mümkün deyil. Çünki bu, ən effektiv diplomatiya vasitəsidir. Qeyd etdiyimiz diplomatiya isə bir növ demokratikləşmə üzərindən aparılır. Ona görə də bildirdim ki, Tramp tam olaraq demokratikləşmədən imtina edə bilməyəcək".

**Politoloq vurğuladı ki, Avropada ultrasağçı (millətçi) qüvvələrin inkişafını ABŞ-da baş verənlərlə eyniləşdirmək olmaz:** "Çünki Avropada ultrasağçı qüvvələrin artması üçün konkret səbəblər var idi. Bu isə miqrant dalğası idi. Ümumiyyətlə, millətçi qüvvələrin artması əsasən iqtisadi krizis və miqrant dalğası ilə bağlıdır. Birinci dalğa iz buraxsa da gəldi, keçdi. Miqrant dalğası isə Suriya müharibəsi ilə bağlı olaraq yarandı. Amerikaya gəldikdə söyləyə bilərik ki, bura həm miqrant köçü dalğası, həm də iqtisadi krizis baxımından ən az təsirə düşmüş ölkədir. Əslində bu baxımdan yanaşanda Amerikada milliyyətçilik daha da azalmalıdır. Trampın milliyyətçiliyi isə etnik deyil. Onsuz da Amerikada etnik milliyyətçilik aparmaq mümkün deyil. Çünki çoxmillətli dövlətdir. Avropa ittifaqındakı milliyyətçilik isə fərqlidir. Bir məsələ də var ki, Avropa dövlətlərinin Avropa Birliyindən çıxması olduqca qəlizdir. Bu baxımdan, deyə bilərik ki, etnik milliyyətçiliyin Avropada gələcəyi yoxdur. Miqrantlara qarşı olma politikası isə müəyyən qədər davam edəcək. Bununla bərabər Avropanın demokratiya ideallarından imtina edəcəyini düşünmürəm. Bu məsələnin bir yoxlama üsulu var. Belə ki, nə zaman görsək ki, Avropa İttifaqı internet sahəsində müəyyən avtoritar islahatlara gedəcək, o zaman hesab etmək olar ki, Avropa demokratiyadan geri addım atır. Ancaq hazırda toplaşma, ifadə, media azadlığında hər hansı bir geriləmədən söhbət gedə bilməz. Ona görə də demokratiyanın sıradan çıxmasından danışmaq tezdir".

**Əli RAİS**

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017

**Rusiya-NATO qarşıdurması irəliləyən xətlə inkişaf etməkdədir. Hər keçən gün Amerikanın fonunda Rusiya-Qərb, Rusiya-NATO arasındakı gərginlik artır. Doğrudur, münasibətlərdəki soyuqluq hələ ki kulminasiya nöqtəsinə çatmayıb. Lakin yaxın gələcəkdə bunun olacağını deməyə kifayət qədər əsaslar var.**

# Rusiya ilə NATO Cənubi Qafqazda toqquşa bilər - təhlükəsizlik ekspertindən SOS

## Sülhəddin Əkbər: "Yaxın 2 ildə Azərbaycan ətrafında da vəziyyət gərginləşəcək"

Xüsusilə iyulun 30-dan etibarən Gürcüstanda başlayan NATO təlimləri və ABŞ-ın vitse-prezidenti Maykl Pensin Tiflis səfəri, ardınca Rusiya prezidenti Vladimir Putinin işğal altındakı Abxaziyaya avqustun 8-də planlaşdırdığı səfəri vəziyyətin nə dərəcədə təhlükəli olmandan xəbər verir. Çünki M. Pensin də qeyd elədiyi kimi, Tiflisin cəmi 65 km-də - Cənubi Osetiyada rus tankları dayanıb.

Bəs NATO təlimlərinin Gürcüstanda keçirildiyi günlərə təsadüf edən vaxtda bu cür ciddi situasiyanın yaranması onu deməyə əsas verirmi ki, Rusiya-NATO qarşıdurması məhz Cənubi Qafqazda reallaşa bilər?

Hər halda, tərəflərin burada burun-buruna dayandıqları göz önündədir. Gürcüstanın fonunda regionda mövqelərinin getdikcə itdiyini görən Kreml onu geri qaytarmaq üçün bütün variantlardan istifadə edir. Bu isə gözlənilən təhlükələri getdikcə artırır. Azərbaycan acısından da həyəcan təbili çalınmaqdadır.

**MTN-in (indiki DTX) sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, son dövrlərdə mətbuatda bütün dünyada, o cümlədən regionda geopolitik qarşıdurmanın həlledici mərhələyə daxil olduğu barədə dəfələrlə fikirlər səsləndirib:** "Bu geopolitik qarşıdurmanın tərəfləri məlumdur: bir tərəfdən ABŞ, NATO, Avropa Birliyi, digər tərəfdən Rusiya və yaxın tərəfdaşları. Qarşıdurma həlledici mərhələyə daxil olduğundan geopolitik sınma xətləri üzərində toqquşmalar başlayacaq. Bu artıq başlayıb da. Bu toqquşmalar harada başlayacaq? İlk növbədə, bu geopolitik sınma xətləri üzərində olan konflikt münaqişə, müharibə zonalarında. Əgər postsovet məkanına baxsaq, məğribdən məşriqə uzanan birinci islam xətti üzərində biz bunun şahidi oluruq. Burada dolaylı qarşıdurmalar gedir, yəni birbaşa deyil, üçüncü oyunçular üzərindən qarşıdurmalar gedir. Eyni şeyi postsovet məkanında da müşahidə edirik. Baltik, Qara dəniz xətti üzərində, Şərqi Avropada oxşar proseslər gedir. Bu xətt üzərində də qarşıdurmadan narahat olan Moldova və Ukrayna yerləşir. Eyni zamanda başqa xətt üzərində də bu qarşıdurmalar sərtləşir. Bu xəttə həm GUAM, həm də Qara dəniz, Xəzər dənizi xətti də deyə bilərik. Postsovet məkanında da ən çox münaqişə zonalarının olduğu xətt bu xətdir - yəni Moldova, Gürcüstan, Ukrayna, Azərbaycan. Hər dörd dövlətin ərazisində Rusiya süni münaqişə yaradıb. Məqsəd bu ölkələrin demokratik inkişafına, demokratik dünyaya, o cümlədən NATO-ya inteqrasiyasına mane olmaqdır. Artıq bu geopolitik qarşıdurma həlledici mərhələdə açıq şəklə keçib. Son olaraq, Donald Trampın Rusiyaya qarşı qəbul edilən sanksiyaları misal çəkə bilərik. Biz artıq postsovet məkanında münaqişə zonaları və münaqişələr ətrafında vəziyyətin gərginləşəcəyini açıq şəkildə görəcəyik. Bunu təbii ki, ilk növbədə, Gürcüstan və Ukraynada görəcəyik. Çünki hər iki ölkə NATO-ya üzv olmağa hazırlaşır. Bunun üçün Amerika və digər NATO ölkələri intensiv hazırlıq işləri görürlər. Hər iki ölkənin siyasi rəhbərliyi də bu istiqamətdə qərar qəbul ediblər. Əgər Azərbaycan da bu istiqamətdə addımlar atacaqsa, yəni demokratiyaya keçid edəcəksə, eyni şəkildə Rusiya tərəfindən təzyiqlərlə üz-üzə qalacaq. Amma onu da nəzərə almaq lazımdır ki, Ukrayna, Gürcüstan və Moldova öz seçimlərini etdiklərinə görə Amerika, NATO və Avropa Birliyi tərəfindən dəstəklənir. Azərbaycan isə seçim etmədiyi üçün hər iki tərəfdən təzyiqə məruz qalır və heç bir tərəfdən də dəstək almır. Postsovet məkanında gözlənilən gərginlik artacaq və Azərbaycan da bundan məntiqi "payını alacaq". Çünki ən azından ölkəmizin bütün geo-ekonomik layihələri Gürcüstan üzərindən həyata keçirilir. Təsadüfi deyil ki, bu yaxınlarda Cənubi Osetiyada yerləşən Rusiya qoşunları sərhəd xəttini cənuba doğru sürüşdürdülər və Bakı-Supsa neft kəmərinin bir hissəsi də onların nəzarətinə keçdi. Bu, Bakıya açıq mesajdır. Yaxın iki il ərzində, xüsusilə gələn il ərzində biz Azərbaycan ətrafında da vəziyyətin gərginləşəcəyini müşahidə edəcəyik. Nəzərə alaq ki, gələn il Azərbaycanda böyük siyasi kampaniya olacaq. Prezident seçkilərinin keçirilməsi planlaşdırılır. Azərbaycan iqtidarı da, müxalifəti də, cəmiyyəti də bu geopolitik qarşıdurmalara hazır olmalıdır".



**S.Əkbər Rusiya-NATO qarşıdurmasında hansı tərəfin Cənubi Qafqazda daha çox möhkəmlənəcəyi ehtimallarından da söz açdı:** "Bütün dünya ekspertlərinin ortaq fikirləri var ki, Rusiya-ABŞ, Rusiya-NATO toqquşması ehtimalı nəzəri cəhətdən olsa da, çox aşağıdır. Sadəcə, başqa dövlətlər üzərindən toqquşma ehtimalları yüksəkdir. Tutaq ki, Amerika Ukraynaya müdafiə xarakterli öldürücü silahları verməyə başlarsa, bu, Ukrayna böhranının yenidən qızışması ehtimallarını yüksəldəcək. Nəticədə Rusiya ilə NATO, Amerika arasındakı gərginlik şiddətlənəcək. Yaxud Gürcüstanın NATO-ya üzvlüyü məsələsi sürətlənəcəksə, bu zaman bu ölkə üzərindən Rusiya ilə NATO, ABŞ qarşıdurması sürətlənəcək. Hətta bu, açıq şəkil də ala bilər. Açığı, toqquşmalar olacağı təqdirdə NATO və ABŞ-ın Ukraynaya daha çox üstünlük verəcəyini düşünürəm. Çünki Gürcüstan NATO sərhədindən daha uzaqdadır. Bu baxımdan, Türkiyə faktoru daha çox önə çıxır ki, hazırda qardaş ölkənin də Rusiya ilə münasibətləri daha yaxındır. Bu baxımdan, NATO və Amerikanın yaxın gələcəkdə Türkiyə ilə münasibətlərə önəm verəcəklərini düşünürəm. Əks halda, Rusiya ilə mübarizədə NATO-nun bu cinahı zəif qalacaq".

❑ **Cavanşir ABBASLI**

# Polkovnikə məhkəmə məktubu gəlməlidir...



**Xalid KAZIMLI**

**Siyasətdə bir qayda var: beş il öncənin rəqibləri beş il sonra müttəfiq, dünənin müttəfiqləri bu gün rəqib ola bilir. Keçmişdə bir-birinə düşmən kəsilən, bir-birinin haqqında kəskin mənfi fikirlər söyləyən şəxslər, gün gəlir, silahdaş olur, eyni blokda seçkiyə gedirlər.**

Ya da əksinə, vaxtilə bir partiyanın rəhbərliyində təmsil olunmuş şəxslər parlament seçkilərində ayrı-ayrı siyasi qüvvələri təmsil edərək bir-birinə eyni seçki dairəsində rəqib olurlar.

Düşərgəsini dəyişənləri də çox görmüşük. Odioz nazirlərdən biri olduğu halda sonradan, postundan götürüləndən sonra müxalifətə keçib qatı iqtidar əleyhdarı olanlar da var, alovlu iqtidar təbliğatçılığından od püskürən müxalifət funksionerliyinə transfer edənlər də olub, radikal müxalifətçi kimi ad çıxaran bir çoxları isə mandat aldıqdan sonra loyal deputata çevrilib.

Bütün bunları aşağı-yuxarı "siyasət işləri" hesab etmək olar. O da istisna deyil ki, bu gün müxalifət qüvvələrinin "milyarder oliqarx" adlandırdığı və mövcud iqtidar komandası üçün əsas "baş töhməti"nə çevirdiyi hansısa nazir gələcəkdə müxalifətə keçsə, hazırda onu söyənlərin gözünün işığına dönəcək.

Amma bu ölkədə elə bir şəxs var ki, öz kinetik enerjisi ilə göyə də çıxsa, ağzıyla quş da tutsa, heç kəs onunla müttəfiq, hətta rəqib də olmaq istəmir. Hamı onu düşmən sayır - xalqın, millətin, demokratiyanın düşməni.

O şəxs Surət Hüseynovdur.

Onun əli Azərbaycanın ən igid, say-seçmə oğullarının qanına batıb. 1993-cü ilin iyununda Gəncədə baş verən hərbi qiyam zamanı öz vəzifələrini, əsgəri borclarını yerinə yetirən qvardiyaçıların, silahlarını təhvil verdikləri halda, avtobusda, xaincəsinə güllələnməsinin məsuliyyəti bu adamın üstündədir.

Silahını yerə qoymuş adamı heç ən qanlı müharibələrdə, səngərlərdə də güllələmir, əsir götürürlər. Əliyalın düşməni güllələmək hərbi cinayətdir. Bu bağışlanmaz hərbi cinayəti öz xalqının igid oğullarına qarşı törədən isə bu adam idi - Surət Hüseynov.

Prezident Qvardiyasının zabit və əsgərlərinin "igid döyüşçülər" adlandırılması heç də boşuna deyil. O əsgərlər 4 iyundan 63 gün əvvəl işğal təhlükəsi qarşısında qalan Füzulinin artıq düşmənin əlinə keçmiş Mərgələnata yüksəkliyini ermənilərdən azad etmiş, rayonu işğal təhlükəsindən qurtarmışdılar.

Bu cür düşmən çəpəri oğullar Surətin qaldırdığı qiyamın qurbanı oldular.

Sonradan o qədər məhkəmə prosesləri getdi, heç cür ortalığa çıxarılmadı ki, silahsız qvardiyaçıların güllələnməsi əmrini konkret kim verib, kim icra edib.

1994-cü ildə keçirilən məhkəmədə bu epizod ona görə üstüörtülü qaldı ki, o zaman bu bədnam polkovnik baş nazir kürsüsündə oturürdu və məhkəmənin gedişinə təsir göstərirdi. O zaman qvardiyaçıların ailə üzvlərinin harayı eşidilməz oldu, verdikləri ifadələrə, səsləndirdikləri tələblərə əhəmiyyət verilmədi.

Bir neçə ildən sonra Surəti 3 oktyabr (1994) çevrilişinə görə mühakimə etdilər. Ancaq onun 4 iyun cinayətləri araşdırılmadı. Onun ikinci çevriliş cəhdinin uğursuzluqla başa çatması göstərdi ki, adamın içi boş imiş, yalandan hay-küyü, bir də ən çoxu bir məğar dolusu tərəfdarı varmış.

Maraqlıdır ki, o tərəfdarların, Surətin qırğı komandasının üzvləri çox qısa zamanda qırılıb getdilər. 5-6-sı elə iyun qiyamından 10-15 gün sonra bir-birini güllələdi, 3-4-ü türmədə öldü, 7-8-i türmədən çıxandan sonra öldü və s. Deyəsən, axıra bircə Surət qalıb.

Əslində uzun müddətdən bəri idi ki, çoxları onu da ölmüş bilirdi. Fəqət adam özü haqqında işarə verdi, "bu yandayam, hələ sağam" dedi.

Müstəqilliyin ilk illərinin ağır dövrünü, Qarabağ müharibəsinin ən şiddətli vaxtını xatırlayanlar onu unutmayıblar, unutmayacaqlar.

Bu 24 ildə millət olaraq başımıza gələn müsibətlərin ən böyüklərinin iki müəllifi varsa, biri budur: Surət Hüseynov.

Onun türmədə keçirdiyi 10 il törətdiyi əməllərin bir faizinin belə cəzası deyil. Əslində onu yenidən mühakimə etmək lazımdır. Hər şeyi keçmək olar, bir itirilmiş, düşmənə qəsdən verilmiş torpaqlara görə, bir də qvardiyaçıların güllələnməsi epizoduna görə onu yenidən haqq divanına çəkmək lazımdır.

Kim edəcək? Kimsə etməlidir...



# Dənizin ortasında araq iyi, siqaret tüstüsü

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Elə yazını başlamaq istəyirdim ki, xəbər saytlarının birində daha bir boğulma xəbərini gördüm. Bu dəfə Qazaxda 19 yaşlı tələbə çayda çimərkən boğulub. Bakı Dövlət Universitetinin Qazax filialının 1-ci kurs tələbəsi ola Goranboy sakini tələbə yoldaşları ilə birgə Ağstafaçayda çimərkən batıb. Xəbərdə deyilir ki, boğulmaq üzrə olan digər tələbə isə ətrafdakıların köməyi ilə sudan çıxarılıb.**

Adam deməyə söz tapmır. Ay qardaş, nə xəbərdir? Niyə özünüzə qəsd edirsiniz? Niyə cavan ömrünüzə qıyırsınız? Bəlkə də kimlərsə bu sualları normal qəbul etməyəcək, yanlış sayacaq. Amma gəlin, əyri oturaq, düz danışaq.

Bəzən Xəzərdəki boğulma halları ilə dənizi hasarlayanlar arasında əlaqə axtarırıq. Bu da istisna deyil, əgər dənizin suyunu, Allahın bəxş elədiyi qumu dədə malı kimi qamarlayanlar imkan versə, adamlar “çimmək üçün qadağandır” lövhəsini adlayıb canına qəsd etməz. Amma əslində bu da bilərəkdən həyatına qıyanlara haqq vermir. Nə məcburdur, çimmə də! Yaxud Ağstafaçay sahili ki, Xəzər kimi hasarlanmayıb. Deməli, səbəb başqadır.

Biz cəmiyyət olaraq öz taleyimizə laqeydik, gəlin etiraf edək. Təkcə suda boğulma məsələsi deyil.

Hər gün redaksiyamıza gəlib-gedəndə metronun “Neftçilər” stansiyası yaxınlığındakı magistral yolda polislərlə piyadalar arasındakı gərginliyi müşahidə edirəm. Polis nə deyir ki? Deyir, anam-bacım, atam-qardaşım, vətəndaşım, cəmi 15 metr qabaqda yeraltı keçid var, niyə ordan keçmirsən, özünü də, sürücüləri də təhlükəyə atırsan? Kimi deyir tələsirəm, kimi də bəhanə edir ki, şəhəri yaxşı tanımıram. “Tələsən” adamlarımız ölümə doğru da beləcə tələsirlər...

Dəm qazından boğulanlarımızın faciəsi də başqa bir mövzudur. Elə burada da laqeydlik öz sözünü deyir. Hər mövsümdə əlaqədar təşkilatlar xəbərdarlıq edirlər ki, “tüstü-bacaları təmizlətdirin”. Kimdir təmizlədən? Bir dəfə maraqlandım, sakinlər dedilər ki, tüstü-bacaların təmizlənməsi üçün mənzilbaşına 8 AZN istəyirlər. Özü də gərək blokdakı sakinlər hamısı razı olsun, bu işlə məşğul olanlar gəlib boruların hisini, pasını, qurumunu təmizləsinlər. Ancaq yox, biz həyatımızı qorumaqdansa, gedib 8 manata çay, pivə içərik. Ya da Allaha təvəkkül, nə olar, olar.

Suda boğulanlarımıza gəldikdə... Statistika sübut edir ki, boğulanların 99 faizi kişilərdir. Belə çıxər kişilər özlərinə daha çox güvənirlər, bir az suda əl-qol atmağı bacaran elə bilir ki, “dəryaları yaradıb”. Nəticədə bir insan ömrü yarıda qırılır, bir nəsil yasa qərq olur, arzular yarımçıq qalır...

Ötən həftənin küləkli günlərindən birində 6 nəfər (!) dənizdə batdı. 21-ci əsrin insanı nədən anlamaq istəmir ki, küləkli havada dənizə girməzlər, girib də dərinə getməzlər?! Həmin küləkli günlərdə yaxınlıqdakı stadionda anasının nəzarəti ilə basketbol oynayan bir rus uşağı gördüm. 15 il əvvəl Bakıdan Sankt-Peterburqda köçüb bu ailə. Arabir burdakı doğmalarına baş çəkməyə gəlirlər. Ana deyir ki, günün qrafikini sinoptiklərin proqnozuna əsasən qururlar, külək oldusa, birmənalı şəkildə dənizə getmək olmaz! Uşaq da eyni dünyagörüşə malikdir. Biz isə uşağın əlindən tutub ölümə aparırıq, küləkdə...Valideyn məsuliyyətsizliyi var, etiraf edək.

Təbiblər deyir ki, yemək yeyəndən sonra hətta duş qəbul eləmək də zərərlidir. Amma biz dənizə yeyib-içəndən, həm də spirtli içki qəbul edəndən sonra giririk, “varmı mənə yan baxan” deyərək. Olmaz belə!

Fövqəladə Hallar Nazirliyinin çimərliklərdə təhlükəsizlik qaydaları ilə bağlı əhaliyə müraciət edib: “Nəzərdə tutulmamış ərazilərdə çimmək, çimmə zonasının işarələnmiş sərhədlərindən kənara üzmək, küləkli havada dənizə girmək, çimərlikdə gecələmək, sərxoş halda çimərlikdə olmaq, suda kobud hərəkətlər etmək... qadağandır”. Amma bütün bunları edən bizik!

Nə qədər ki, həyatımıza laqeydik, xəbərdarlıqlara yenə də məhəl qoymayacağıq. Özüm şahidəm, Mərdəkan çimərliyində FHN-in işçiləri səddi ötüb keçən, dərinliklərdə üzən gəncləri geri qaytarmaq üçün daha nələr etmədilər? Az qalırdılar yalvarsınlar ki, “qurbanınız olum, qayıdın geri, boğulacaqsınız!” Nə xeyir? Adamlar özlərinə güvənir. Sonra da meyitini axtarmaq qalır. Suyun ortasında 5 növcavanın əlində siqaret çəkməsi səhnəsini təsəvvür edirsinizmi? İş araqdan, çək siqaretdən, sonra da dərinliyə baş vur. Daha FHN neyləsin?!

Kim bilir, bəlkə də dənizin çimmək üçün ayrılan yerlərini dəmir torla -"setka" ilə çəpərləmək lazım gələcək. Adamlar dərinə getməsinlər deyə...

**İranın ali dini lideri Ayətullah Seyyid Əli Xameneyinin Ərdəbil vilayəti üzrə nümayəndəsi Seyid Həsən Amulinin bugünlərdə APA-ya verdiyi müsahibədə bir sıra fikirlər diqqət çəkdi. Onun “İran və Azərbaycan bir millət-iki dövlətdir” deməsi, Qarabağla bağlı Azərbaycanın mövqeyindən çıxış etməsi, aprel döyüşlərində Azərbaycan ordusunun daha geniş əraziləri azad etməli olduğunu dilə gətirməsi maraqlı yanaşmalar idi.**

# Bakıdan İrana mesaj: “Bu qədər təəssübkeşdirlərsə, Ermənistandakı səfirliklərini bağlasınlar”





## Elçin Mirzəbəyli: “Adama deyərlər, əgər Qarabağın azad olmasını istəyirsənsə, o zaman buyur, Ermənistanla bütün əlaqələri kəs...”
## Elxan Şahinoğlu: “Bütün hallarda Amulinin səsləndirdiyi açıqlamalar Azərbaycanın xeyrinədir”

Ancaq bu da var ki, İrandan Azərbaycanla bağlı açıqlamalar verilərkən bunun arxasında mütləq hansısa məqsədlərin olmasından şübhələnmək lazım gəlir. Ötən həftə İsrail-Ermənistan əlaqələrində dönüş yarandı. Belə ki, İsrail rəsmilərindən birinin İrəvana səfər etməsi Tehranı qıcıqlandırmaya bilməzdi. Bu mənada mümkündür ki, Amuli də bu siyasətə uyğun mövqe ortaya qoyub, Ermənistana xəbərdarlıq edib.

**“Seyid Həsən Amuli Azərbaycanın ünvanına ən sərt ittihamlar səsləndirən, istiqlalımızı, inkişaf modelimizi, konstitusion dövlət quruluşumuzu sevməyən şəxslərdən biridir. İndi o, İranın dini liderinin fikirlərini öz emosional əlavələrlə yenidən təkrarlayıbsa, bu onun bizə qarşı mövqeyinin dəyişməsi anlamına gəlmir. Amuli, sadəcə, İranın yeni dəst-xəttinə uyğun hərəkət edir”.**

**Politoloq Elçin Mirzəbəyli bu fikirləri “Yeni Müsavat”a açıqlamasında dedi. Ekspert qeyd etdi ki, İranın mövcud hakimiyyəti və dini-siyasi rejimi Azərbaycan Respublikası ilə bağlı məsələlərdə siyasətinə müəyyən korrektələr edib:** “Son zamanlar İranın Azərbaycanda sevdirilməsi məqsədi daşıyan bəzi layihələrin həyata keçirilməsi də bunu sübuta yetirir. Amulinin ”İran və Azərbaycan iki dövlət bir millətdir" deməsi Azərbaycan-Türkiyə münasibətlərinə qısqanclıqdan doğan söz oyunundan başqa bir şey deyil. Amuli və onun mənsub olduğu rejim millət anlayışını qəbul etmir, hətta İran adlanan dövlətin mövcud hüquqi sərhədləri çərçivəsində, fəqət öz tarixi vətənlərində yaşayan Güney Azərbaycan türklərini də öz adı ilə çağırmaqdan imtina edir, “İran xalqı”, “İran milləti” deyimi ilə kifayətlənirlər. İndi Amuli nə demək istəyir? Demək istəyir ki, biz də “İran milləti”yik? Ya da artıq İranın klassik türk dövlətini qəbullanıb? Biz belə söz oyunlarına inandığımız sadəlövhlük mərhələsini çoxdan keçmişik".

**E.Mirzəbəyliyə görə, ermənilər üçün Qarakilsədə kütləvi mərasim təşkil edən, işğalçı Ermənistanla hərtərəfli dostluq münasibətlərini davam etdirən bir rejimin təmsilçisinə inanmaq üçün əsas yoxdur:** “Adama deyərlər, əgər Qarabağın azad olmasını istəyirsənsə, o zaman buyur, Ermənistanla bütün əlaqələri kəs, işğalçı ölkəyə qarşı sanksiyalar tətbiq elə! Yox, bütün bunları eləmirsənsə, o zaman bizə nağıl danışma!”

**Ekspert qeyd etdi ki, İranın mövcud rejiminin İsrail-Ermənistan əlaqələrinə müsbət yanaşması təbii qəbul olunmalıdır:** “Tehranın Ermənistanla bir dərdi yoxdur ki, rejimin dərdi bizimlədir. Azərbaycan-İsrail münasibətləri isə sadəcə, Tehran üçün ölkəmizin dövlətçilik modelini Güney Azərbaycan türklərinin gözündən salmaq üçün bir bəhanədir. İranın Fələstinlə bağlı siyasəti də Amulinin bəyanatları qədər saxtadır. İslam təəssübkeşi olublar... Məgər sərhədlərinin beş addımlığında işğal olunan müsəlmanların torpağı deyil? Fələstin təəssübkeşliyi İranın Səudiyyə Ərəbistanı ilə nüfuz savaşında istifadə etdiyi ideoloji silahdan başqa bir şey deyil. Əgər bu qədər təəssübkeşdirlərsə, Ermənistandakı səfirliklərini bağlasınlar, İrandakı Ermənistan səfirini də yola salsınlar getsin. Səudiyyə Ərəbistanı, Pakistan Ermənistanı dövlət kimi tanımır. Türkiyə Ermənistanı tanısa da, onunla heç bir əlaqəsi yoxdur. Danışanda bizə adlarını sadaladığım ölkələrdən ”bir köynək yaxın" olduqlarını deyirlər".

**Politoloq Elxan Şahinoğlu isə “Bir millət, iki dövlət” fikrinin adətən Azərbaycan-Türkiyə münasibətləri haqqında deyildiyini xatırlatdı:** “Amuli isə açıqlaması ilə demək istəyir ki, İran Azərbaycan üçün Türkiyə qədər dəyərlidir. Səfəviləri misal çəkməklə İranla Azərbaycanın ortaq tarixə malik olduğunu deyən Amuli iki ölkə arasındakı yaxınlığı bu sözlərlə dəyənləndirib: ”Azərbaycanın problemlərini öz problemimiz bilirik. İran və Azərbaycan Arazın iki qoludur. Mənşəyi, əsli və kökü birdir. Bu, tələb edir ki, iki ölkə arasında əlaqələr daha da inkişaf etsin. Şükürlər olsun, getdikcə əlaqələr daha da yaxşılaşır. Biz öz torpaqlarımızın izzətini necə istəyiriksə, Azərbaycan üçün də o cür izzət və başucalığı istəyirik"".

**Politoloq hesab edir ki, Amuli Qarabağ haqqında da fikirlərini açıq ifadə edib:** “Qarabağın ermənilərin işğalı altında olduğunu bildirən Amuli problemin həll olunmamasında 3 dövlətin adını çəkib: Rusiya, ABŞ və həmişəki kimi İsrail. Amuli sonuncu dövləti Tehranın ənənəvi siyasətindən çıxış edərək xatırladıb, yoxsa İsrailin Qarabağ münaqişəsinin yaranmasında və həllinin uzanmasında heç bir rolu olmayıb və yoxdur. Ən maraqlısı Amulinin Rusiyanı ittiham etməsidir: ”Qarabağın işğalda olmasından istifadə edən Rusiya Azərbaycan və Ermənistana istədiyi təzyiqi göstərir. Ermənistan Qarabağa görə Rusiyaya möhtacdır. Dağlıq Qarabağ problemi hazırda regional bir problem deyil, böyük dövlətlərin maraq dairəsinə çevrilib. Azərbaycan və Ermənistan özləri problemi həll etmək istəsələr də, bu, mümkün olmayacaq. Çünki Rusiya istəmir buradan geri çəkilsin. Qarabağ problemi Rusiya əlinə düşmüş yağlı bir tikədir. Dağlıq Qarabağın həlli prosesi nə qədər uzanırsa, onun Azərbaycana qaytarılması bir o qədər çətin olur"".

**E.Şahinoğlu qeyd etdi ki, İranın hansısa rəsmisindən heç zaman oxşar açıqlamalar eşitməmişik:** “Heç bir İran rəsmisi və ya yüksək rütbəli din xadimi açıq-aşkar Rusiyanı, erməni separatizmini tənqid etmir. Amuli ilk dəfə deyil ki, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edir. Əsas sual budur: Bu açıqlamalar Amulinin yalnız özünə məxsusdur, yoxsa İranın siyasi və dini kəsimində onun kimi düşünən başqaları da var, varsa niyə onların oxşar açıqlamalarını eşitmirik və ya niyə demirlər ki, İran işğalçı Ermənistanla münasibətlərə yenidən baxmalıdır? Bütün hallarda Amulinin səsləndirdiyi açıqlamalar Azərbaycanın xeyrinədir. Bu açıqlamalar işğalçılıq siyasəti yürüdən Ermənistan hakimiyyəti üçün mesaj əhəmiyyəti daşımalıdır. Azərbaycan İranın Ermənistanla əlaqələrindən narahatdır, ancaq bu, o demək deyil ki, bu siyasət əbədidir və İran daima bu siyasətə sadiq qalacaq və İranda yaşayan azərbaycanlılar - ictimai fəallar, deputatlar, siyasilər və din xadimləri Tehranın Ermənistan siyasətini dəyişdirməyə çalışmayacaqlar. Öz növbəsində Azərbaycan İranda yaşayan milyonlarla azərbaycanlı amilindən öz xeyrinə istifadə etməyi bacarmalıdır”.

**Ekspert Ermənistan mediasında İran əleyhinə yazıların dərc olunduğunu xatırlatmaqla yanaşı, qeyd etdi ki, paralel olaraq İranla Azərbaycan arasında dəmir yolu çəkilir:** “Məsələ burasındadır ki, İran Ermənistandakı dağları yarıb dəmir yolunun tikintisinə milyardlarla dollar yatırım qoymaqdansa Azərbaycanla dəmir yolunun inkişafına üstünlük verir. Digər tərəfdən, İranın gərəkli maliyyəsi yoxdur ki, Ermənistan üzərindən dəmir yolu çəksin, Ermənistana isə heç bir bank bu məqsədlə kredit ayırmaz. Bunun əvəzinə Azərbaycan İrana 500 milyon dollar kredit verir ki, öz ərazisindəki dəmir yolu tikintisini tamamlasın ki, Azərbaycan üzərindən keçən Şimal-Cənub nəqliyyat xətti tam gücü ilə işləsin. Bu mənada yaxın perspektivdə İran-Azərbaycan iqtisadi münasibətlərinin inkişafının İran-Ermənistan münasibətlərinə təsir gücü hiss olunmalıdır”.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017

# Hacıqabul qatilinin qapısı ağzında gecəyarı güllə atdılar - müdhiş olayla bağlı yeni iddialar

## Dəhşətli qisas dramının səbəbləri detallı şəkildə bəlli olur; sonu qanla bitən ədavət Moskvada azərbaycanlı iş adamının oğurlanmasından qaynaqlanıbmış...

**Hacıqabulda baş verən dəhşətli qətliamdan 1 gün sonra gecəyarısı şəhərin Mikayıl Müşfiq küçəsində yenə də güllə səsləri eşidilib. Bu haqda redaksiyamızı bilgiləndirən mənbə deyib ki, olayın baş verdiyi küçədə Hacıqabul sakinlərinə dəhşətli qətliamı yaşadan Mübariz Mehdiyevin ata evi yerləşir. Həmin evdə onun yaxınları yaşayırlar. Bildirilir ki, M.Mehdiyevin bir neçə bacısı və qardaşı var. Qardaşı Hacıqabulda taksi sürücüsüdür. Yerli əhali sovet dövründən Mehdiyevlərin yaşadığı ərazini "Çkalov məhləsi" adlandırırlar. Olayın məhz burada baş verməsini rayonda Mehdiyevlərə xəbərdarlıq kimi qiymətləndiriblər. Belə ehtimallar var ki, qarşı tərəf Mehdiyevlərdən qisas ala bilər. Gələn məlumatda deyilir ki, hazırda "Çkalov məhləsi"ndə odlu silahdan atəş açan şəxsin və ya şəxslərin kimliyinin müəyyən olunması üçün tədbirlər görülür.**

Yada salaq ki, iyulun 31-də səhər tezdən baş verən xüsusilə ağır cinayət Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır. Qətlin motivi, 1971-ci il təvəllüdlü Mübariz Mehdiyevin odlu silahı haradan əldə etməsi, kimdən alması müəyyənləşdirilir. M.Mehdiyev iyulun son günündə səhər tezdən Hacıqabul şəhəri, Bayram İbrahimov küçəsində yaşayan Qəmbərovların həyətlərinə soxulub. Əlində lüləsi və qundağı kəsilmiş tüfəng olan M.Mehdiyev orada yaşayan Natiq Qəmbərovu axtarıb, onu öldürmək istəyib. N.Qəmbərov onun qarşısına çıxmadığından həmin həyətdəki evlərdən birində yaşayan onun əmisi 1953-cü il təvəllüdlü Nazim Qəmbərovu, əmisi oğlu 1988-ci il təvəllüdlü Namiq Qəmbərovu, yaxınları 1962-ci il təvəllüdlü Gülbağda Qəmbərova və 1958-ci il təvəllüdlü Almara Qəmbərovaları güllələyib.



Səs-küyə çıxan N.Qəmbərovun atası Məmməd Qəmbərova da odlu silahdan atəş açıb. M.Qəmbərov yaralansa da, qaçaraq canını qurtara bilib. M.Mehdiyev isə hadisə yerinə gələn polislərin əlinə keçməmək üçün özünü də əlindəki odlu silahla öldürüb. Onun polis tərəfindən zərərsizləşdirilməsi haqda da məlumat var.

N.Qəmbərov artıq istintaqa cəlb olunub. İstintaq onun M.Mehdiyevlə konfliktinin səbəblərini aydınlaşdırır. Digər bir məlumata görə isə N.Qəmbərovun xəstəxanada olan atası, 1947-ci il təvəllüdlü M.Qəmbərovun durumu normallaşmaq üzrədir. Həkimlər onu əməliyyat ediblər. M.Qəmbərovun ürək nahiyəsinə açılan atəşin əsasən qoluna dəydiyi bildirilir. Qətliamın motivi haqda dolaşan xəbər əsasında M.Mehdiyevlə "Moskva Natiq" ləqəbli Natiq Qəmbərovun arasında Rusiyada başlamış ədavətin dayandığı qeyd olunur. M.Mehdiyevin Qəmbərovlara qarşı son dərəcə qəddar davranışının kökündə dayanan motiv haqda dolaşan söz-söhbətlərdən bir neçəsini ötən saylarımızda yazmışdıq. Bildirilirdi ki, Mübariz Mehdiyevlə Natiq Qəmbərov Moskvada birgə işləyiblər. Sonradan tərəflərin arası dəyib, konfliktə qədər böyüyüb. N.Qəmbərov mübahisə zəminində M.Mehdiyevi bir neçə dəfə vurub. Sonuncu dəfə isə N.Qəmbərovun M.Mehdiyevi ölümcül döyməsi xəbəri də var. Hətta qeyd olunur ki, döyülmədən sonra M.Mehdiyev 3 aya yaxın özünə gəlməyib, yaraları sağalmayıb. Həmin müddətdə isə N.Qəmbərov Azərbaycana, Hacıqabuldakı ata yurduna qayıdıbmış. Az əvvəl ayağa qalxan M.Mehdiyev də boya-başa çatdığı rayona qayıdıb, silah əldə edib və N.Qəmbərovdan qisas almaq üçün onun yaşadığı ünvana basqın edib. Onun əvəzində N.Qəmbərovun yaxınlarını öldürüb, özünə də atəş açıb.

Aldığımız son məlumatda qətlin konkret olaraq hansı məsələyə görə baş verdiyinə aydınlıq gətirilir. Belə iddia olunur ki, Natiq Qəmbərov Moskvada bir çox azərbaycanlı orta ranqlı biznesmenlərə "krışalıq" edir. Onlardan biri də Hacıqabuldan olan Zülfünün oğlu Kamil olub. Bir müddət əvvəl Kamil Zülfü oğlu oğurlanıb. Onu oğurlayanlar sırasında Mübariz Mehdiyev də olub. Oğurlanan iş adamından aylıq xərac tələb edilib. Bir neçə gün girovluqda qalandan sonra iş adamı qaça bilib. Bundan sonra N.Qəmbərovla əlaqə saxlayaraq başına gələnləri danışıb və kömək istəyib. Bir neçə gün sonra Mübariz Mehdiyevin yerini müəyyən edən N.Qəmbərov və ətrafındakılar onu Moskva metro stansiyalarından birinin qarşısında tutub zorla maşına əyləşdiriblər. Meşəyə aparıb orada huşunu itirənə qədər döyüblər. Elə oradaca atıb çıxıb gediblər. İddia olunur ki, M.Mehdiyev yarımcan hala salınandan sonra uzun müddət müalicə olunub və həmin müddətdə N.Qəmbərova ondan qisas alacağı ilə bağlı mesajlar yollayıb. Özünə gələndən sonra isə Moskvada N.Qəmbərovu arayıb. Öyrənib ki, o, Azərbaycana, konkret olaraq Hacıqabula qayıdıb. Bundan sonra o da Hacıqabula gəlib və rayonda olarkən də N.Qəmbərova bir neçə dəfə xəbər göndərib ki, onunla haqq-hesab çəkəcək. Hətta M.Mehdiyevin dəhşətli qətliama imza atmazdan əvvəl "rayonda 7 nəfəri öldürəcəyəm" deməsi haqda da xəbərlər yayılıb.

Bu iddiaların nə dərəcədə doğru olmasına iş üzrə başlanan istintaq aydınlıq gətirməlidir.

Gələn xəbərlərdə o da bildirilir ki, Qəmbərovların yas məclisinə N.Qəmbərovun Moskvadan olan dostlarının, əsasən çeçen millətindən olan şəxslərin də iştirak etməsi haqda bilgilər də var. Hüquq-mühafizə orqanları hadisə yerindən lüləsi və qundağı kəsilmiş silah götürüblər. Hazırda iş üzrə prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmaqla, zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 29, 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd), 29, 120.2.7 (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) və 228.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə, saxlama və daşıma) maddələri ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin edilib.

❑ **E.HÜSEYNOV**

# Lənkəranda 6 günlük körpənin qatili nənəsi imiş: "Qız nəvə istəmirdim..."

## Ölkədə bir həftədə uşaqlara qarşı iki qan donduran cinayətin səbəbləri; hüquq müdafiəçiləri həyəcan təbili çalır, çıxış yolu göstərirlər...

**Lənkəranda 6 günlük körpənin bədəninə iynələr sancıldıqdan sonra quyuya atılması hadisəsinin ardınca, Naxçıvanda 4 yaşlı qızın 23 yaşlı gənc tərəfindən zorlanması xəbəri yayılıb. Öncə qeyd edək ki, artıq Lənkəranda baş verən hadisəni kimin törətməsi məlum olub.**

Belə ki, hadisə baş verdikdən dərhal sonra ictimaiyyətdə körpənin atasına qarşı şübhələr formalaşsa da, qətli törədənin nənəsi Atifə Nurullayeva olduğu üzə çıxıb. İstintaqa ifadəsində o, nəvəsini öldürərək quyuya atdığını etiraf edib. A. Nurullayeva istintaqa ifadəsində körpənin yatan yerdə bədəninə iynələr yeritdiyini deyib. O, etdiyi cinayətin səbəbini də açıqlayıb. Bildirib ki, ailənin ikinci övladı da qız olub və o, qız deyil, oğlan nəvəsi istəyib. "Buna görə qızı öldürdüm" - qadın ifadəsində bildirib. A.Nurullayeva öldürülən körpənin nənəsi olmaqla yanaşı, həmçinin körpənin anasının xalası olub.

Naxçıvanda isə insanlığa sığmayan başqa bir hadisəni törədən 1994-cü il təvəllüdlü Ələsgər Məmmədovun cəzasını ilk olaraq elə kənd camaatı verib. Belə ki, hadisə barədə sosial şəbəkələrdə yayılan məlumata görə, hərbi xidmətdən yeni dönmüş Ə. Məmmədov Culfa rayonunda toy məclisində iştirak edib. O, sərxoş olduqdan sonra 4 yaşlı qız uşağına təcavüz edib. Sözügedən şəxs uşağı nənəsinin yanına aparmaq adı ilə məclisdən uzaqlaşdırıb. Daha sonra onu yaxınlıqdakı dəmir yolunun kənarına aparıb, bir neçə dəfə zorlayıb. Yaxınlıqdan keçən şəxs uşağın çığırtısını eşidib və həmin şəxsi yaxalayıb. Azyaşlının ötən gün Culfadakı xəstəxanada vəfat etdiyi deyilir. Əhali tərəfindən ələ keçirilən şəxsin əlləri və ayaqları yandırılıb. Cinsiyyət orqanı kəsilib. Daha sonra polis onu insanların əlindən alaraq həbs edib.

**Hər iki hadisəyə münasibət bildirən hüquq müdafiəçiləri SOS təbili çaldılar. Dilarə Əliyeva adına Qadın Hüquqları Cəmiyyəti İctimai Birliyinin sədri Novella Cəfəroğlu "Yeni Müsavat"a bildirdi ki, bu cür şəxslərə ölüm cəzası verilməlidir:** "Uşaqlara qarşı bu cür amansızlıqlar törədən şəxslərə qarşı Cinayət Məcəlləsində ayrıca bir maddə olmalıdır. Onlar yandırılmalı, öldürülməlidir. Bu qədər namussuzluq Azərbaycanda heç zaman olmayıb. Haradan gəlmişik, hara gediriksə bilmirik. Elə Lənkəranda uşağı quyuya atan nənəyə də ölüm cəzası verilməlidir".



**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə qəzetimizə açıqlamasında bu cür hadisələrin baş verməsində valideynlərin də günahkar olduğunu bildirdi:**

"Cinayət hadisələri ilə bağlı xeyli sayda yazışmalar, təhqirlər, tənqidlər olur. Yaxşı, bu gün uşağı zorlayan adamı yandırdıq, öldürdük, orqanını kəsdik, nənəyə ömürlük cəza verdik, bəs valideyn məsuliyyəti hara getdi? Uşaq niyə nəzarətdən kənarda qalmalıdır ki, hansısa cinayətkarların qurbanına çevrilsin? Nə üçün bu cür hadisələrdə valideyn məsuliyyətini önə çəkmirik? Niyə görə demirik ki, gəlin, uşaqlarımızı qoruyaq? Qohuma da etibar etmək olmaz. Bəyəm azmı faktlar var ki, uşaqların etimadından sui-istifadə edən yaxın qohumlar onlara təcavüz ediblər? Ona görə də biz ilk növbədə valideyn məsuliyyətindən danışmalıyıq. Valideyn məsuliyyəti ilə bağlı cəzalar da sərtləşdirilməlidir. Hadisə baş verdikdən sonra biz başlayırıq nələrisə müzakirə etməyə. Bu gün 6 günlük körpənin ürəyinə iynə batıran nənədən çox, ananın məsuliyyətini də ortaya qoymaq lazımdır. Axı ana hiss edirdi ki, uşağa qarşı hansısa zorakılıq tətbiq oluna bilər. Bu ailədəki uşaq arzu olunmazdırsa, nə üçün hadisəni valideyn öncədən qabaqlamamalı idi? Bütün bu kimi hadisələrin qarşısını almaq üçün ilk növbədə qanunvericilikdə ciddi dəyişikliklər olmalıdır. Ailə Məcəlləsi daha da sərtləşdirilməlidir. Cinayət Məcəlləsində də bununla bağlı ağır maddələr qoyulmalı, həbs cəzaları tətbiq olunmalıdır. Bəlkə bu valideynlər ondan sonra uşaqlarının qədrini bilsinlər. Bizim sığınacaqda nə qədər uşaq var ki, onların 90 faizi zorakılıq qurbanıdır. Mənim əlimdə səlahiyyətim, sərt qanun olaydı, onların heç birini valideynlərinə verməzdim. Bu uşaqlar dövlətin himayəsində olsalar, daha yaxşı böyüyər, yetişərlər. Ancaq biz çox humanistik. Bu gün hansı valideyn zorakılıq faktına görə cəza alıb, valideyn hüququndan məhrum edilib? Belə bir fakt yoxdur. Çünki qanunlar sərtləşdirilməyib. Bir hadisə olan zaman hamı durur müzakirə edir, təcavüzü pisləyir, bir gün ağlayır və məsələ bitir. Uşağın sonrakı taleyini isə heç kim düşünmür ki, bu uşaqla reabilitasiya aparılmalıdır. Pedofiliya ilə bağlı qanunlar sərtləşdirilməli və zorakılığa məruz qalmış uşaqlar üçün alternativ mərkəzlər davamlı şəkildə fəaliyyət göstərməlidir. Həssas ailələrin siyahısı hazırlanmalı və media da bu cür olaylarla bağlı "şok, şok" başlıqlı xəbərlər deyil, maarifləndirici məqalələr hazırlamalıdır. Çıxış yolu bax budur".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı hesab edir ki, ilk növbədə uşaqların məktəbdən yayınmasının qarşısı alınmalıdır:** "Bu gün məktəbdə təhsil alan uşaq sabahın valideynidir. Ona görə də hər şey, təlim-tərbiyə oradan başlamalıdır. İnsanın formalaşması məktəbin, ailənin boynundadır. İctimaiyyətin, ətrafdakı insanların bu proseslərə çox böyük təsiri var. Əgər hər hansı bir ailə qapalı yaşayırsa, ətraf diqqətli olmalıdır ki, onlar nə üçün belədir və burada nə baş verir. Bunların hamısının diqqətdən kənarda saxlanması sonda ağır nəticələrə səbəb olur. Qanunda dəyişikliyə gəlincə deyim ki, bu cür əməllə həbs olunan insanlara həbsxanada çox pis davranılır. Yəni qanundakı dəyişikliklər bu problemlərin həlli demək deyil. Belə problemlərin həlli məhz cəmiyyətin özündən, ictimaiyyətdən asılıdır".

❑ **Əli RAİS**



# Rüşvətin qaytarılması məkruhdurmu

Zamin HACI
zaminhaci@gmail.com

**Bir MTN-çi polkovnik var, xeyli adamı tutub soymuşdu. Üst-üstə 5 milyon dollara yaxın puldur. İndi məhkəmə bu polkovniki uzun müddətə qoduqluğa basıbdır, poqonu-zadı da yolubdur, ancaq həmin pulları alınan qaqaşlar ortalıqda qalıblar. Məhkəmə qərarından şikayət veriblər, deyirlər bəs bizim pulumuz necə oldu. Sən demə, məhkəmə qərarında bunların pulunun taleyi də əks olunubdur. Necə? Əsl şedevrdir. Açığı, dünən bu haqda xəbəri oxuyanda necə güldümsə, içdiyim çay klaviaturaya dağıldı, kompüter xarab oldu, ustaya apardım, o da nə təhər qiymət oxudusa bu dəfə mənim başım xarab oldu.**

Zarafat edirəm, vəziyyət yaxşıdır, nisbi sakitlikdir. Sadəcə, istədim xəbərdən aldığım zövqi-səfanın, şövqi-vəfanın, nə bilim, badi-səbanın dərəcəsini təsəvvür edəsiniz. Nəsə, çox çərənlədik, üzürlü sayın, xəbəri yazım: məhkəmə qərarda yazıb ki, bu zərərçəkənlərin MTN polkovnikinə verdiyi ümumən 5 milyon dollara yaxın pul rüşvət sayılsın və geri qaytarılmasın.

Vallah, çox zarafatcıl hakimlərimiz vardır. Bunu çıxardan hakimin məntiqinə görə, MTN polkovniki biznesmenləri idarəyə aparıb döyüb pullarını alsa da bu pul rüşvət olduğu üçün qaytarılması vacib deyil. Lap o dindəki məkruh anlayışı fason bir qərar qayırıbdır. Bir az izah edim, oxucularımız da bilsin.

Dində biri var haram, biri də var məkruh. Haram odur ki, bunları eləmək qəti qadağandır. Məkruhu isə eləyə də bilərsən, ancaq bəyənilmir. Misal üçün, məscidə gedərkən sarımsaq yemək məkruh sayılır. Eyni zamanda məkruhun özü də iki yerə bölünürmüş: təhrimən və tənzihən. Birincisinə aiddir kişilərin ipək köynək geyinməyi. Bu, az qala harama yaxın bəd əməl imiş. Tənzihən məkruh isə halala yaxın sayılır, ancaq bu da pisdir. Misal üçün, dəstəmaz alanda burnunu sol yox, sağ əl ilə təmizləsən olur tənzihən məkruh.

Belə elmləri yazıram ki, gözünüz açılsın, yoxsa gedib hamımız o biri dünyada da Azərbaycan kimi bir yerə düşəcəyik, biabırçılıq olacaq. Təzəlikcə qürbətdən bir dostum link atdı, dedi, bax, gör müsəlmanları bu saat narahat edən qlobal problem nədir. Elə bildim Suriyadakı qardaşlarımızın dərdindən, Afrikadakı aclardan, müsəlman dünyasındakı zülmdən və zalım padşahlardan yazıblar. Ancaq umsuq oldum. Mövzu belə idi ki, üzüm mürəbbəsi haramdır, yoxsa halaldır. Xeyli adam bu tema ətrafında bir-birinə girmişdilər, virtual sabitlik əldən getmişdi.

Nəsə, qayıdaq "öz qoyunlarımızın yanına". Sözgəlişi, bu ifadənin yaranma tarixini də yazaq, maraqlı olsun. Üstəlik, bu məsəlin yaranması bizim mövzudakı hala çox oxşayır. Bu, 15-ci əsrə aid bir anonim fransız pyesindən ("Vəkil Pyer Patlen" adlanır) gəlmə ifadədir. Həmin pyesdə mahud parça - yun parça yazsam yəqin daha anlaşıqlı olardı, çünki bu "mahud" sözü artıq arxaizmə çevrilmək üzrədir və inanmıram hər on oxucudan heç olmazsa biri bu sözün mənasını bilir - istehsalçısı ilə çoban məhkəmədə üzləşirlər. Mahudçu çobanı məhkəməyə verir ki, qoyunları oğurlayıbdır. Bu dartışma zamanı mahudçu baxır ki, çobanın vəkili Patlen müəllim tanış gəlir. Deyir, adə, bu vəkil də vaxtilə məndən 6 arşın parça alıb, pulunu verməyibdir. Mərəkə qopur, vəkillə mahudçunun mübahisəsi uzanır. Bu zaman bezən hakim deyir: "Gəlin öz qoyunlarımızın yanına qayıdaq".

Bəli, biz də qayıdaq. Hakim MTN zabitinin aldığı rüşvətin geri qaytarılmayacağı haqda qərar verərkən, məncə, haqlı olubdur. Çünki bu, pis presedent yaradardı. Gələcəkdə hamı verdiyi rüşvətləri geri istəyərdi. Bəs o zaman respublikamız necə inkişaf yoluna qədəm qoyardı? Hə, sizdən soruşuram, necə olardı iqtisadiyyatımızın axırı? O ondan aldığını qaytarsın, bu buna verdiyini istəsin, o bundan aldığının arxasınca baxsın... Olmaz. Sabitlik pozular. Sürüyə canavar düşər.

Sonra ayılarıq ki, yanına qayıtmağa heç bir qoyun qalmayıbdır.

# Həmsədrlərin gəlişi öncəsi təcavüzkara sürpriz cəza

**Bölgəmiz ətrafında cərəyan edən proseslər daha maraqlı, eyni zamanda təhlükəli bir məcraya adlayıb. Xüsusən də ABŞ-Rusiya münasibətlərinin kritik həddə yaxınlaşması öz təsirlərini Cənubi Qafqazdakı situasiyaya da göstərməkdədir.**




# Azərbaycan-Türkiyə ittifaqı - Ermənistanın qorxulu röyası

## İrəvan Bakı və Ankaraya qarşı alternativ sipər axtarır - mühüm gəlişmə

ABŞ-la Rusiya arasında sıxılmağa başlayan işğalçı ölkə çıxılmazda; Qərb paytaxtları Ermənistanın 2013-cü ildəki xəyanətini bağışlayacaqmı? Ekspert: "İrəvan bilməlidir ki, torpaqların işğalı ona baha başa gələcək..."

Təkcə o fakt ki, Gürcüstanda ABŞ (NATO) tankları ilə Rusiya tankları az qala, buruna-buruna dayanıb (NATO təlimlərinin keçirildiyi Vaziani ilə işğal altındakı Cənubi Osetiya arasında cəmi 65 km məsafə var), özlüyündə çox şey deyir. Bu fonda Türkiyə-Rusiya hərbi əməkdaşlığının dərinləşməsi isə vəziyyətə əlavə siyasi çalar və həssaslıq əlavə eləməkdədir.

*****

Son gəlişmələr region ölkələrini istər-istəməz çevik manevrlər eləmək zorunda qoyur. Və belə görünür ki, vəziyyətdən dolayı ən çox təlaş keçirən də elə bütünlüklə Rusiyadan asılı durumda olan Ermənistandır. İşğalçı ölkənin əndişəsinə həqiqətən də, indi heç vaxt olmadığı qədər əsaslar və motivlər yaranıb.

Onlardan biri də Moskva ilə Ankara arasında bu ilin aprelində əldə olunan və reallaşmaq üzrə olan hərbi müqavilə ilə bağlıdır. Həmin müqaviləyə görə, qardaş ölkə Rusiyadan dünyanın ən müasir raket sistemlərindən olan S-400 kompleksləri alacaq. İlkin mərhələdə Rusiya Türkiyəyə 2 batareya S-400 verəcək. S-400-lərdən birinin Suriya və İrandan gələcək təhdidlərə qarşı şərq bölgəsinə, digərinin isə Yunanıstan təhdidinə qarşı - qərb səmtində yerləşdiriləcəyi deyilir. Amma analitiklərə görə, Ankara S-400-lərin təyinatına düzəlişlər edə bilər. Ermənistanı qayğılandıran həm də budur.

*****

**"İrəvan Rusiyanın Türkiyəyə satdığı S-400 raketlərinin Ermənistanla sərhədə, hətta Naxçıvanda yerləşdirilə biləcəyindən narahatdır və bunu açıq dilə gətirməyə başlayıb". Bu sözləri Axar.az -a açıqlamasında politoloq Elxan Şahinoğlu deyib. Siyasi şərhçi Türkiyənin S-400 raket komplekslərinin sözügedən ərazidə yerləşdirməsini dəstəkləyib. Onun sözlərinə görə, Rusiya Ermənistanda istədiyi raket komplekslərini, o cümlədən "İsgəndər"ləri yerləşdirirsə və bu, açıq-aşkar Azərbaycana qarşıdırsa, Azərbaycan da özünü qorumalı, müasir raket kompleksləri almalıdır.**

"Aydındır ki, Rusiya "İsgəndər" raket kompleksini Azərbaycana satmayacaq. O halda bu istiqamətdə Türkiyə ilə əməkdaşlıq mümkündür. Çünki Qarabağ uğrunda müharibə başlasa, Naxçıvana müəyyən təhlükələr yarana bilər. Türkiyə isə Qars müqaviləsinə əsasən Naxçıvanı qorumalıdır. Bu fonda Türkiyənin Naxçıvana iqtisadi, siyasi və hərbi dəstəyi böyük rol oynayır. Buna görə də Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı o dərəcədə inkişaf etməlidir ki, Naxçıvanda türk hərbi bazalarının yerləşdirilməsi rəsmiləşdirilsin. O cümlədən Naxçıvanda Türkiyəyə məxsus müasir silah və raket komplekslərinin yerləşdirilməsi də mümkündür. İrəvan bilməlidir ki, Azərbaycan torpaqlarının işğalı Ermənistana baha başa gələcək. Azərbaycana təhlükə yaranması o deməkdir ki, Ermənistan qarşısında bu dəfə təkcə Azərbaycanı yox, Azərbaycan-Türkiyə hərbi ittifaqını görəcək", - deyə ekspert əlavə edib.

İşğalçı Ermənistanı təlaşlandıran məsələlərdən biri də elə İrəvanın cəmi 50 km-liyində olan Naxçıvandır. Nədən ki, erməni tərəf Qarabağ uğrunda müharibə başlayacağı təqdirdə həqiqətən də Azərbaycanın və onun ordusunun diqqətini Naxçıvan tərəfə yayındırmağa çalışa bilər. Naxçıvandan Ermənistana qarşı "2-ci cəbhə"nin açılması isə İrəvan üçün olduqca arzuolunmazdır və ağır nəticələrə gətirəcək. Bu üzdən İrəvan olan-qalan ordusunun mühüm bir hissəsini Naxçıvan səmtinə cəmləmək zorundadır. Bütün hallarda, böyük Qarabağ savaşı başlasa da, başlamasa da Bakı-Ankara ittifaqı, Naxçıvan amili artıq düşmən üçün ən qorxulu yuxuya çevrilib.

*****

Son zamanlar Ermənistan, üstəlik, Rusiya-ABŞ ziddiyyətlərinin dərinləşməsi fonunda Türkiyə-Rusiya əlaqələrinin güclənməsindən böyük təlaş keçirməyə başlayıb. Ermənistanın axır vaxtlar NATO, Qərb tərəfə artan reveransları öncəliklə sadalanan amillərlə izah edilə bilər.

Bu yerdə yada salaq ki, hazırda işğalçı ölkənin hərbçiləri Gürcüstanda ABŞ, Almaniya, İngiltərə, Sloveniya, Ukrayna və Gürcüstan hərbçiləri ilə birgə NATO təlimlərində iştirak edir *(avqustun 12-də başa çatacaq)*. Ötən ay isə Ermənistan Rumıniyada Rusiya əleyhinə olan NATO təlimlərinə qatılmışdı.

Görünür, Rusiyaya artıq əmin-arxayın olmayan İrəvan Azərbaycan və Türkiyəyə qarşı NATO timsalında özünə alternativ sipər, yaxud təhlükəsizlik sistemi axtarır. Ancaq nə qədər ki, Ermənistan Kremlin Cənubi Qafqazda əsas hərbi dayağı, forpostu rolunda qalır, çətin ki, NATO, Qərb bu qarantı ona versin.

Təsadüfi deyil ki, bu yaxınlarda erməni jurnalistlərinə ABŞ-Rusiya qarşıdurmasından danışan Amerikanın İrəvandakı səfiri Riçard Millz demişdi ki, "təhlükəsizlik məsələsində seçimi İrəvan özü eləməlidir". Bu, əslində rəsmi İrəvana aydın bir mesajdır ki, Ermənistan bölgədə Kremlin vassalı kimi qaldıqca, təhlükəsizlik məsələsində ABŞ-a güvənə bilməz və o zamanadək Rusiyaya qarşı ağır sanksiyaların nəticələrini bölüşməyə də hazır olmalıdır.

Moskvaya qarşı sanksiyaların qayəsində isə ilk növbədə Ukrayna məsələsi, Krımın, Abxaziya və Cənubi Osetiyanın işğalı dayanır. Doğrudur, İrəvan Kremlin təzyiqinə rəğmən, Rusiya kimi Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımayıb - Gürcüstandan keçən yeganə yolun bağlanacağından ehtiyat edərək. Ancaq 2013-cü ildə BMT-də Ukrayna məsələsi səsə qoyularkən Rusiya kimi və 9 ölkədən biri olaraq, Ermənistan dünya birliyinin, Qərbin iradəsinə qarşı gedərək, Ukraynanın ərazi bütövlüyü əleyhinə səs verib. Bunu təkcə Kiyevdə deyil, Qərb paytaxtlarında da yəqin ki, unutmayıblar...

*****

Ermənistanın çıxılmazda olduğunun daha bir sübutu odur ki, indi o, faktiki surətdə Rusiya təhlükəsinə qarşı keçirilən və Ukrayna böhranı ilə, Krımla birbaşa bağlı olan, üstəlik, Ukraynanın özünün də qatıldığı NATO təlimlərinə qatılıb - Ukraynanın ərazi bütövlüyünü tanımaya-tanımaya. Buna növbəti və klassik erməni riyakarlığı da demək olar.

Belə olan surətdə sual ortaya çıxır ki, Qərb Ermənistanın Ukrayna ilə bağlı 2013-cü ildəki xəyanətini heç nə olmayıbmış kimi bağışlayacaqmı? Ermənistan regionda Rusiyanın yeganə legitim forpostu qismində qala-qala, NATO-nun, Qərbin onunla sıx əməkdaşlığına bel bağlaya bilərmi? Ən əsası, işğalçı ölkənin Türkiyə və Azərbaycana qarşı özünə Qərbin timsalında alternativ sipər qazanması mümkünmü?

Bu suallara yəqin ki, önümüzdəki aylarda aydınlıq gələcək.

❑ **Analitik xidmət**

**Dünyanın iki böyük gücü ABŞ-Rusiya münasibətlərində gərginlik artan xətt üzrə gedir. Ekspertlər hesab edirlər ki, artıq "Soyuq müharibə" illərinə qayıtmışıq və bu dəfə ABŞ-ın məqsədi SSRİ-nin varisi Rusiyanı parçalamaqdır.**



# Rusiyadan dünyaya əsas təhlükə: nüvə silahı, yoxsa işğalçı siyasət...

## **Politoloq:** "Bu ölkədə nüvə silahı əsasən rus əhalinin yaşadığı ərazilərdə yerləşib, Rusiya parçalansa, dünyaya nüvə təhlükəsi olmayacaq..."

Rusiyanın nüvə dövləti olduğunu nəzərə aldıqda, onun parçalanmasının məhz bu aspektdən də region üçün təhlükə yaradacağını söyləyənlər var. Onların fikrincə, Rusiya parçalanarsa, Şimali Qafqazda insidentlər yaşanar və bu, Azərbaycandan da yan keçməz.

**Politoloq Elçin Mirzəbəyli** də "Yeni Müsavat"a açıqlamasında Rusiyanın aqressiv xarici siyasətindən daha çox, onun nüvə silahının təhlükəli olduğunu dedi: "Əslində SSRİ-nin parçalanmasında Qərb tərəfindən Rusiyaya verilən dəstək də məhz bununla bağlı idi. Əvvəla, dünya Rusiyanın parçalanmasına hazır deyildi. Çünki həm Sovet İttifaqının dağılması nəticəsində yaranmış, həm də sosialist məkanından, Şərqi Avropadan çıxan yeni respublikaların çox ciddi inteqrasiya problemləri vardı. Onların dövlət kimi formalaşmasına zaman lazım idi. Belə bir məqamda Rusiyanın da parçalanması bütövlükdə Avropanın təhlükəsizliyinə ciddi zərbə vurardı. Yəni bütün bu məsələlər ciddi şəkildə hesablanmışdı. Rusiya ayaqda durduqdan sonra təkcə nüvə silahı ilə deyil, yürütdüyü siyasət və ambisiyaları ilə də dünyaya təhlükə yaratmağa başladı. Postsovet məkanında həyata keçirdiyi siyasət, eyni zamanda daha geniş miqyasda Aralıq dənizi hövzəsində, Yaxın Şərqdəki siyasəti bütövlükdə yeni ambisiyalarının olduğunu göstərdi. Nəticədə Avropa ölkələri içərisində ciddi problemlər ortaya çıxdı. Ona görə də Rusiyaya qarşı tətbiq olunan sanksiyaların mahiyyətində əslində bu dövləti parçalamaq deyil, cilovlamaq faktoru dayanır. Konkret olaraq mən Rusiyanın parçalanması ilə bağlı səslənən fikirlərlə heç zaman razılaşmamışam. Bu gün də eyni fikirdəyəm. Əgər belə bir hadisə baş verərsə və federasiyanın subyektləri Rusiyadan ayrılmaq yolunu tutarsa, o zaman nüvə silahının mərkəzi rus hakimiyyətinin nəzarətində olacağı şübhə doğurmur. Çünki nüvə silahının yerləşdiyi məkanlar, federasiyanın subyektlərindən kənardadır və əsasən də rus əhalisinin yaşadığı ərazilərdə yerləşib. Digər tərəfdən də Moskva bu illər ərzində Şimali Qafqaz və Tatarıstan istisna olmaqla, respublikanın digər subyektlərində ruslaşdırma siyasətini faktiki olaraq başa çatdırmağı bacarıb. Bu baxımdan, məsələ ilə bağlı bəzi ekspertlərin təqdim etdiyi yanaşmalar kökündən yanlışdır. Əgər Rusiyanın federasiya kimi mövcudluğuna son qoyularsa, onun yerində unitar dövlət formalaşa bilər. Bu unitar dövlətin də tərkibinə indiki federasiyanın əksər subyektləri daxil olacaq. Çünki əhalinin əhəmiyyətli bir hissəsini rusdillilər təşkil edir".

**Ekspertə görə, Rusiya parçalanarsa, nüvə silahının yayılması ilə bağlı hər hansı bir problem yaranmayacaq:** "Biz bu kimi prosesin şahidi olmuşuq. Belə ki, Ukrayna bu silahdan könüllü surətdə imtina etdi və onun ərazi bütövlüyünə təminat verdilər. Ancaq buna əməl olunmadı və Rusiya Ukraynanın torpaqlarını yenidən işğal etdi. Belə bir məqamda nüvə silahının yayılması baş vermədi. Qənaətimə görə, Rusiya Federasiyası da unitar dövlətə çevrilərsə, nüvə silahı problemi yaşanmayacaq. Hazırkı məqamda Rusiya bütün postsovet respublikalarına ciddi şəkildə təzyiq edir. Yürütdüyü siyasət isə həmin dövlətlərin müstəqilliyinin maksimum dərəcədə məhdudlaşdırılmasına yönəlib. Əgər beynəlxalq vəziyyət dəyişib, Rusiyanın mövqeləri möhkəmlənərsə, çox güman ki, bu dövlət başqa bir modeldə respublikaları özünün subyektlərinə çevirmək istəyəcək. Bu arzu Rusiya siyasətçiləri tərəfindən heç zaman gizlədilməyib. Hesab edirəm ki, Rusiyaya qarşı həyata keçirilən sanksiyalar davamlı şəkil alarsa və Qərb Rusiyanın yarada biləcəyi təhlükələri neytrallaşdırmağa müvafiq olarsa, o zaman şübhəsiz ki, biz zaman keçdikcə fərqli bir Rusiya görə bilərik. Məsələ burasındadır ki, artıq təkcə Qərb deyil, eləcə də dünyanın bir çox ölkələri, o cümlədən Çin Rusiyanı de-fakto təhdid kimi qəbul etməyə başlayıb. Sanksiyalar isə bu ölkənin iqtisadiyyatını tədricən sıradan çıxarır. Rusiyada gedən prosesləri izləsək və buradakı həyat şəraitinə diqqət etsək, bunu görə bilərik. Rusiya heç zaman yumşaq güc ola bilməyib və yalnız əzələ nümayişi ilə mövcudluğunu qoruyub saxlamaq istəyib. Ancaq təbii ki, hərbi potensial yalnız müəyyən bir mərhələyə qədər effekt verə bilər. İndiki şəraitdə isə Rusiyaya qarşı tətbiq olunan yumşaq təzyiqlər tədricən bu ölkənin dəyişməsinə gətirib çıxaracaq".

**E. Mirzəbəyli onu da qeyd elədi ki, bu gün Amerikada anti-Rusiya əhvalının güclənməsində həm də ABŞ-ın daxilində gedən proseslərin rolu var:** "Bildiyiniz kimi, Donald Tramp Rusiya ilə münasibətlərdə ən çox ittiham edilən prezidentdir. Təbii ki, bunun əksinin sübutu üçün də Rusiyaya qarşı təzyiqlər həyata keçirilir. Biz ABŞ vitse-prezidentinin və dövlət katibinin Rusiyanın ünvanına nə qədər sərt fikirlər səsləndirdiyinin şahidi oluruq. Hesab edirəm ki, indiki şəraitdə bütövlükdə Avropanın təhlükəsizliyi, Çin təhlükəsi ilə bağlı məqamları nəzərə aldıqda Rusiyanın tamamilə parçalanması ABŞ-ın marağında deyil. Lakin Rusiyanın qlobal gücə çevrilməsi istiqamətində nümayiş etdirdiyi mövqe, təbii ki, ABŞ-ın geosiyasi maraqlarına ziddir. Nəticədə bu addımlar bütövlükdə onun Aralıq dənizi hövzəsində həyata keçirmək istədiyi geosiyasi iddialarla üst-üstə düşmür. Bu ərazidə ABŞ onunla pay bölgüsü aparacaq hər hansı bir qüvvəni istəmir. Təbii ki, Rusiya bu prosesdə neytrallaşdırılacaq və daha sonra onunla dil tapmaq çox asan olacaq".

❑ **Əli RAİS**

# Vazianda dalğalanan saxta bayraq



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**İşğalçı Ermənistan da "başını" başlara qoşub, Tiflis yaxınlığında keçirilən NATO təlimlərinə qatılıb. Neçə gündür Vazianda işğalçı ölkənin bayrağı qardaş Türkiyə daxil, ABŞ, Böyük Britaniya, Almaniya, Sloveniya, Ukrayna və Gürcüstanın bayraqları ilə yanaşı dalğalanır.**

Amma soruşan yoxdur ki, öz dövlət atributlarını könüllü şəkildə, 2047-ci ilədək Rusiyaya peşkəş edib Moskvanın regionda sadiq forpostuna və ucqar quberniyasına çevrilmiş Ermənistanın NATO təlimlərində nə iti azıb? Ən əsası, Azərbaycan ərazilərinin 1/5-ni illərdir işğal altında saxlayan Ermənistan hansı haqq və məntiqlə məhz 1 saylı müttəfiqinə - işğalçı Rusiyaya qarşı düzənlənən NATO təlimlərinə qatılıb?

Bu yerdə Qərbin ikili standartını, işğalçıları "doğma və yad"a bölməsini də qeyd eləməmək olmur. Diqqət edin: Tiflisdə olarkən ABŞ-ın vitse-prezidenti Maykl Pens belə bir ifadə işlədib: "Bizdən cəmi 40 mil (təxminən 65 km - Z.S.) aralıda - Cənubi Osetiyada Rusiya tankları yerləşir. Bu gün Rusiya Gürcüstan ərazisinin 1/5-ni işğal altında saxlayır".

Pardon, axı NATO təlimlərinə qatılan, daha doğrusu, dəvət edilən Ermənistan da qonşusu Azərbaycanın ərazisinin 1/5-ni işğal altında saxlayır, özü də işğalçı Rusiyanın birbaşa dəstəyi ilə! İşğalçı erməni tankları isə Tiflisin cəmi bir neçə yüz km-liyində - Qarabağdadır!

O zaman işğalçılara münasibətdə belə ögey-doğmalığın sirri nə? Xristian amilimi? Deyilə bilər ki, Azərbaycan Gürcüstan kimi qərbyönlü kurs götürmədiyi, yaxud balans siyasəti apardığı üçün, ölkədə insan haqları problemi olduğu üçün ABŞ-ın, Qərbin Azərbaycana dəstəyi Gürcüstan qədər ola bilməz.

Amma əfv edərsiz, bunlar bəhanələrdir və işğal faktını görməməyə əsas yarada bilməz! O səbəbə ki, BMT Nizamnaməsi, beynəlxalq hüququn təməl prinsipləri bütün dövlətlər üçün eyndir və qüvvəsində qalır. İnsan haqları problemi də işğal faktını danmaq üçün motiv deyil. Ona qalsa, Ermənistan guya demokratik ölkədir, yaxud orada ümumbəşəri dəyərlər problemi yoxdu ki?

Şübhəsiz ki, var. Sözümüzün canı odur ki, bir ölkədəki siyasi idarəçiliyin forması və xarakteri həmin ölkənin beynəlxalq hüququla tanınmış ərazisinin bir hissəsinin işğalına bərəət qazandıra bilməz! Bu, insanlıq qanunlarına, humanizm prinsiplərinə də ziddir!

Amma indi Azərbaycan timsalında bəlli olur ki, sən demə, bərəət ola bilirmiş. Nə səbəbə, xristian təəssübkeşliyinə görəmi?

Yəqin ki. Bizim Qarabağla bağlı ən böyük problemimiz, dərdimiz də əslində erməni işğalı deyil, erməni işğalının böyük güclər tərəfindən xristian fakoruna görə işğal kimi tanınmaması, gözardı edilməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin çox vaxt candərdi etiraf olunmasıdır. Qısası, ərazi bütövlüyümüzə Gürcüstan qədər önəm verilməməsidir (Yoxsa abxazlara, osetinlərə, çeçenlərə deyil, məhz Qarabağdakı bir ovuc separatçı erməniyə öz müqəddəratı təyinetmə haqqı istənilməzdi ki - bir erməni dövləti ola-ola!!)

Deməli, Bakının Qarabağ diplomatiyası müstəsna olaraq, bu problemi neytrallaşdırmağa yönəlməlidir. Necə?

Əvvəla, Azərbaycan təbliğat-informasiya müharibəsində hər addımda Qafqaza "yamaq" ölkə olan Ermənistanın bölgədə Rusiyanın maşası olduğunu qabardıb, onu regionun inkişafına əsas əngəl kimi təqdim eləməyi bacarmalı, o sırada onun NATO təlimlərinə, bu qəbildən beynəlxalq tədbirlərə qatılmağa layiq olmadığını yorulmadan təsbit eləməlidir. Gürcüstandakı təlimləri Ermənistan deyil, Azərbaycan haqq edib.

İkincisi, nə qədər çətin də olsa, Qərblə, ABŞ-la, NATO ilə bağlarımızı, bağlantılarımızı möhkəmlətməliyik - həm də qardaş Türkiyənin vasitəsi ilə. Yaddan çıxarmayaq ki, Rusiya nə qədər bizim üçün önəmli qonşu olsa da, ötən 29 il göstərdi ki, o, Qarabağ probleminin həllində maraqlı deyil. Bunu əgər Ermənistan da başa düşüb başına çarə qılmağa, çıxış yolu axtarmağa başlayıbsa, qat-qat böyük imkanlara, Qərb üçün, Avropa üçün qat-qat böyük dəyərə malik Azərbaycana nə gəlib ki?

Üçüncüsü, beynəlxalq münasibətlərdə, ələlxüsus Qərblə münasibətlərdə Bakı heç vaxt Ermənistanın istifadə edə biləcəyi boşluqlar saxlamamalıdır. Gürcüstandakı NATO təlimlərində qatılmamağımızın yaratdığı boşluq məhz bu qəbildəndir. Türkiyə bayrağı yanında saxta erməni bayrağı yox, Azərbaycan bayrağı dalğalanmalı idi!

Ən başlıcası, regionda bütün istiqamətlərdə Azərbaycanın Ermənistandan üstün güc kimi təsdiqləməyi bacarmalıyıq. Söhbət həm də demokratik gücdən (imicdən) gedir...

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017




# “Təzə bazar” bağlanmayıb, əl dəyişib

## Satıcılar buna sevinsə də yenidənqurmadan sonra icarə haqlarının qaldırılacağından qorxurlar; baş nəzarətçi isə deyir ki...



**Ötən gün mətbuatda Nəsimi rayonu ərazisində yerləşən “Təzə bazar”ın bağlanma xəbərləri yayıldı. Musavat.com-un müxbiri bazarın bağlanma səbəbinin doğru olub-olmadığını öyrənmək üçün adıçəkilən ünvanda olub.**

Müşahidə etdik ki, bazar həmişəki qaydada fəaliyyətini davam etdirir. Günorta saatları olmasına baxmayaraq kifayət qədər satıcı və müştərilər gözə dəyir. Bazardakı vəziyyəti öyrənmək üçün ilk öncə satıcılara yaxınlaşıb, fikirlərini öyrəndik.

**Onlar bazarın bağlanma xəbərinin yalan olduğunu bildirdilər:** “Hamı deyir, ”Təzə bazar" bağlanıb. Düzü, eşidəndə şok yaşadıq. Narahat olduq. Çünki yeganə qazanc yerimiz bu bazardandır. Biz bildiyimiz qədər bazarın rəhbəri dəyişib. Bazar gördüyünüz kimi, işləyir. Bu bazarın başı onsuz əvvəldən bəlalı idi. Yəqin kimsə gözünü bura dikib. Bizim bazarın rəhbəri Məmmədbağır idi. Bazarın bir hissəsinə isə Vaqif nəzarət edirdi. Dəfələrlə bu sahibkarlar arasında mübahisələr olurdu. Bir neçə gündür ki, gözə dəymirlər. Xəbər dolaşır ki, müəyyən səbəblərdən onları çıxarıblar. Nə olduğunu isə bilmirəm. Sözün açığı, köhnə bazar müdirləri yaxşı idi. Yola verirdilər bizi. Elə aylar olurdu ki, qazancımız olmurdu. İcarə haqlarını hissə-hissə ödəyə bilirdik. Bazarı ayaqda saxlamaq üçün əllərindən gələni edirdilər".

**Bazarın təmiri, yenilənməsi satıcıları sevindirsə də, digər tərəfdən onları narahat edir. Yeni rəhbərin gəlişi onları “sürprizlə” qarşılayacağından qorxurlar. Bazarda çalışanlar yenidənqurma işlərindən sonra icarə haqlarının bahalaşması ehtimalından danışırlar:** “Müasir standartlara cavab verəcək bazarda yenidənqurmadan sonra inanmıram ki, əvvəlki icarə haqları qalsın. Bazarın yenilənməsi, müasirləşməsi bizi sevindirir. Ancaq bir şey var ki, bura qoyulan xərci çıxarmaq üçün ”arendalar"ın qiymətinə təsir edəcək. Hazırda bazarda 150-200 manata normal yerlər var. Elə də güclü alverimiz də olmur. Əgər icarə haqları bahalaşsa, mayası olmayan sahibkarlar sıradan çıxacaq. Bütün bazarlarda rəhbər dəyişəndə çox zaman xoşagəlməz hallar olur. İcarə haqlarının bahalaşacağı barədə yenidənqurma işlərindən sonra qərar veriləcək. Ancaq söz-söhbət gəzir ki, qiymətləri qaldıracaqlar".




**Məsələ ilə bağlı “Təzə bazar”ın rəhbər şəxsləri ilə də görüşdük. Bazarın baş nəzarətçisi Qabil Quliyev qurumda müəyyən dəyişikliklərin olduğunu bildirdi:** “Yayılan məlumatlar yanlışdır. Bazar heç də ləğv olunmur, sadəcə, qurumda müəyyən dəyişikliklər olunur. Bakı Mərkəzi bazar MMC və Təzə bazar MMC tərəfindən idarə olunan bazar bundan sonra FMC MMC-nin nəzarətində olacaq. Bazarda yenidənqurma işləri aparılacaq. Bazar tam yeni formada əhaliyə xidmət göstərəcək. Bazarda satılan bütün mallar çeşidlənəcək və bölmələrə ayrılacaq. Aparılan yenidənqurma işlərindən sonra bazar tam yeni formada əhaliyə xidmət göstərəcək. Müasir standartlara cavab verəcək bazarda yenidənqurmadan sonra olacaq icarə haqlarına gəlincə isə hələlik müəyyənləşməyib”.

Qeyd edək ki, “Təzə bazar” aprel ayında ləğv olmaq təhlükəsi ilə üzləşmişdi. Belə ki, güclü yanğın nəticəsində 1.5 ha ərazisi olan bazarın yarıdan çoxu kül olmuşdu. Sahibkarlara ciddi ziyan dəyən həmin yanğına səbəb kimi qısaqapanma göstərilmişdi.

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

# “ABŞ-Rusiya iqtisadi müharibəsi Azərbaycana da təsir edəcək”

## Vüqar Bayramov: “Hökumət çalışmalıdır ki, bu təsirləri minimuma endirsin”

**“ABŞ sanksiyalar tətbiq edərək Rusiyaya qarşı ticarət müharibəsi elan edib”. Bu barədə Rusiyanın baş naziri Dmitriy Medvedyev özünün facebook səhifəsində yazıb. O, tətbiq edilən sanksiyaların mənasız olduğunu, Rusiyanın bundan sonra da inkişaf edəcəyini bildirib.**

“ABŞ Rusiyaya əsl ticarət müharibəsi elan edib. Biz rahatca iqtisadiyyat və sosial sahənin inkişafı ilə bağlı işlərimizi davam etdirəcəyik. Son illər biz özümüzə güvənməyə öyrənmişik. Hardasa bu sanksiyaların hətta faydası da olub. Baxmayaraq ki, bu, ümumilikdə mənasızdır. Biz bacaracağıq” - baş nazir qeyd edib.

Medvedyevin sözlərinə baxmayaraq, bu sanksiyaların Rusiya iqtisadiyyatını yenidən zəiflədəcəyi məlumdur. Bəs görəsən, belə olan durumda bu ticarət müharibəsindən Azərbaycan iqtisadiyyatına hansısa zərər dəyə bilərmi?

**“Yeni Müsavat”a açıqlamasında bu sualı cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, ABŞ tərəfindən Rusiyaya tətbiq edilən son sanksiyalar əvvəlki sanksiyalardan fərqlənir:** “Yeni sanksiyalar daha geniş əlaqələri, qiymətli kağızlar daxil olmaqla, birjaları belə əhatə edir. Hətta bu sanksiyalardan sonra əgər Avropa ölkələri də ona qoşularsa, ”Şimal axını" belə sual altına düşə bilər. O baxımdan, sanksiyaların dairəsi genişdir, əvvəlki sanksiyalardan tamamilə fərqlənən sanksiyalardır. Rusiyanın dünyanın ən böyük dövləti tərəfindən belə sanksiyalara məruz qalması digər ölkələrin bu sanksiyalara qoşulması ehtimalını da gücləndirir. Artıq 4 Avropa ölkəsi bu sanksiyalara qoşulacağını bəyan edib. Bu heç bir halda Rusiya üçün arzuolunan deyil. Həmin ölkələr fərqli iqtisadi gücə malik olan ölkələrdir. Nominal ÜDM həcminə görə ABŞ dünyada birincidir - 18,5 trilyon dollar nominal ümumdaxili məhsula malikdir. Hətta ABŞ-ın nominal ÜDM-i Avropanın birgə ümumdaxili məhsulundan çoxdur. Rusiyada isə cəmi 1,2 trilyon dollar ÜDM var. Göründüyü kimi, fərq böyükdür və buna görə də söhbət iqtisadi baxımdan fərqli mövqeyə malik ölkələrin iqtisadi savaşından gedir".



**İqtisadçının sözlərinə görə, bu savaşın əsasında siyasi səbəblər dursa da, əslində iqtisadi savaşdır:** “ABŞ çalışır ki, Rusiya iqtisadiyyatını zəiflətməklə bu ölkəyə təzyiq imkanlarını genişləndirsin. O baxımdan, yeni sanksiyalar Rusiya iqtisadiyyatına mənfi təsir göstərəcək. Rusiyalı rəsmilərin açıqlamalarının necə olmasından asılı olmayaraq, nəticə ondan ibarətdir ki, yeni sanksiyaların Rusiya iqtisadiyyatına təsirləri hiss olunacaq. Rusiya təkcə ABŞ-la deyil, ABŞ tərəfdaşı olan ölkələrlə, o cümlədən Avropa ölkələri ilə üz-üzə gələ bilər. O baxımdan, Rusiyanın sanksiyalara hazırlaşması və adekvat tədbirlər həyata keçirməsi vacibdir. Etiraf etmək lazımdır ki, bu ölkənin manevr imkanları məhduddur. Ancaq yerli istehsalı artırmaqla sanksiyaların mənfi təsirlərini məhdudlaşdırmağa çalışa bilər. Lakin onu da nəzərə almaq lazımdır ki, Rusiyaya daxil olan valyutanın həcmində də azalmalar olacaq. Ölkədən çıxan valyutanın həcmində isə artımlar olacaq. Sanksiyalar Rusiya iqtisadiyyatına mənfi təsirini gözlətməyəcək. Ola bilər ki, biz bu müddətdə təsirləri real olaraq görməyək. Ancaq ortamüddətli dövrdə özünü göstərəcək. Əvvəlki sanksiyanın təsirləri də özünü göstərməkdədir. Xüsusən də bu, Rusiyadan çıxan investisiyanın həcmində özünü ehtiva edir”.

**Vüqar Bayramov Rusiya iqtisadiyyatının zəifləməsindən Azərbaycanın da təsirlənəcəyini istisna etmədi:** “Rusiya Azərbaycan üçün vacib ölkədir. Qeyri-neft ixracatında Rusiyanın payı yüksəkdir. Azərbaycanın qeyri-neft ixracatının təxminən 60 faizi kənd təsərrüfatı məhsullarıdır. Həmin məhsulların 90 faizi Rusiya bazarına gedir. Bu isə o deməkdir ki, Azərbaycan aqrar məhsulların ixracatında Rusiya bazarından birbaşa asılıdır. Hələlik kənd təsərrüfatı məhsullarının ixrac diversifikasıyası baş verməyib. Xaricdə yeni bazarların tapılması və məhsulların müxtəlif bazarlara çıxarılması hökumət qarşısında da dəfələrlə tələb olaraq qoyulub. Ancaq bunun qısa zamanda edilməsi mümkün deyil. O baxımdan, Rusiya Azərbaycan üçün qeyri-neft ixracatında vacib ölkədir. Rusiyada iqtisadi aktivliyin aşağı düşməsi Azərbaycan məhsullarının Rusiyaya çıxarılması baxımından arzuolunan deyil. Alıcılıq aşağı düşdükcə idxal məhsullarını tələb azalıb. Rəsmi statistikaya görə, Rusiyada yaşayan azərbaycanlılar hər il Azərbaycana 1 milyard dollara yaxın vəsait göndərirlər. Qeyri-rəsmi statistikaya görə, isə bu rəqəm daha böyükdür. Çünki vəsaitlərin heç də hamısı bank vasitəsilə köçürülmür, qeyri-bank vasitəsilə köçürülür”.

**İqtisadçı vurğuladı ki, Rusiyadan Azərbaycana göndərilən vəsaitlərin həcmi yüksək olduğu üçün də Rusiya iqtisadiyyatı Azərbaycan üçün vacibdir:** “Rusiyada yaşayan 400 min azərbaycanlı əmək miqrantının iş yerləri baxımından da Rusiyadakı iqtisadi vəziyyət Azərbaycana təsir göstərə bilər. Hesablamalara görə, Rusiyadakı iki milyona yaxın azərbaycanlının təxminən 400 min nəfərə yaxını əmək miqrantıdır. Bu da Azərbaycan üçün mühüm faktordur. Çünki bu əmək bazarı üçün kifayət qədər böyük rəqəmdir. Bütün bunlara baxmayaraq, Rusiya iqtisadiyyatının çökməsi MDB ölkələri üçün, o cümlədən Azərbaycan üçün problem yaratmaya bilər. Azərbaycan hökuməti çalışmalıdır ki, Rusiya iqtisadiyyatının zəifləməsinin Azərbaycana təsirlərini minimuma endirə bilsin”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 162 (6776) 4 aprel 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Putindən separatçılara açıq dəstək - Qarabağı nə gözləyir?

## Kreml Rusiyaya qarşı sanksiyalara separatçılığı stimullaşdırmaqla cavab verir; **politoloq:** "Moskva heç vaxt Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməyəcək..."

**Krımın ilhaqından sonra yürütdüyü siyasətlə özünün təklənməsinə rəvac verən Rusiya ABŞ-ın növbəti sərt sanksiyaları ilə üzbəüz qalıb. Tramp administrasiyasına olan ümidlərini son günlərdə birdəfəlik dəfn edən şimal qonşumuz beynəlxalq təpkilərə rəğmən geri çəkilmək niyyətində deyil.**

Kremlin taran siyasəti seçdiyini prezident Vladimir Putinin avqustun 8-də Gürcüstanın separatçı Abxaziya bölgəsinə planlaşdırdığı səfər də təsdiqləyir. Səfərin hazırlanmasının gedişi ilə tanış olan mənbələr deyiblər ki, Putinin səfəri qısamüddətli olacaq, Rusiya prezidenti separatçı bölgənin "prezidenti" Raul Hadjimba ilə görüşəcək və Abxaziyanı tərk edəcək (virtualaz.org). Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə bu informasiyanı şərh etməyib.

Xatırladaq ki, 2008-ci il avqustun 8-də Rusiya qoşunları Gürcüstana qarşı hərbi əməliyyatlara başlayıb və 5 gün davam edən müharibə nəticəsində separatçı Abxaziya ilə Cənubi Osetiya bölgəsi tamamilə rus qoşunlarının nəzarətinə keçib. Həmin müharibə Gürcüstan ordusunun Cənubi Osetiya üzərində nəzarəti bərpa etmək cəhdindən sonra başlamışdı. O zaman Putin baş nazir vəzifəsini tuturdu. Lakin çoxları hesab edir ki, Gürcüstana hərbi müdaxilə qərarını məhz o verib.

Rusiya prezidentinin Gürcüstanın separatçı bölgəsinə səfəri sözsüz ki, güc nümayişidir. Hazırda Gürcüstanda ABŞ başda olmaqla, NATO "Layiqli tərəfdaş - 2017" kod adlı hərbi təlimlər həyata keçirir. Bu təlimlərinin davam etdiyi şəraitdə Putinin bölgəyə gəlişi həm də Cənubi Qafqazda maraqları olan Qərbə mesajdır. Kreml bölgənin öz təsir dairəsində olduğunu nümayiş etdirməklə yanaşı, regionu Qərbə təhvil verməyəcəyi xəbərdarlığını etmək istəyir. Üstəlik, bu, qərbyönlü siyasət yeridən ölkələrə verilmiş mesajdır.

Azərbaycan vətəndaşı olaraq bizi şübhəsiz ki, ilk növbədə Qarabağla bağlı situasiya narahat edir. Reallıq bundan ibarətdir ki, Kreml separatçı bölgələrdəki prosesləri tətikləməklə və özü baş verənlərin episentrində dayanmaqla təhlükəli vəziyyət yaratmaqdadır. Düzdür, Qarabağdakı gərginlik bir gün də olsun səngiməyib və digər separatçı bölgələrlə müqayisədə burada daha təhlükəli situasiya hökm sürür. Lakin Rusiyanın Krım, Dnestryanı, Abxaziya və Cənubi Osetiyadakı separatçı regionlarla müqayisədə Qarabağdakı proseslərin mərkəzində açıq şəkildə dayandığını deyə bilmərik. Olsa-olsa, Moskva erməni separatçılarına koordinatları göndərir və təlimatlar verir, özü isə hələlik kənarda dayanmağı məqbul sayır.

Əslində əvvəlki dönəmlərdə Moskvada 800 dollara "Dağlıq Qarabağ vətəndaşlığı" haqda "pasport" almağın mümkünlüyü barədə xəbərlər yayılıb və bu, rəsmi Bakının etirazına da səbəb olub. Hətta Rusiyada sürücülük vəsiqəsi alan erməninin doğum yeri kimi müstəqil subyekt olaraq Dağlıq Qarabağ göstərilib, bu bir faktdır, ancaq yeganə fakt deyil. Bu ilin əvvəlində Rusiya Erməniləri İttifaqının lideri Ara Abramyan özünə 60 illik yubiley keçirdi. Moskvadakı tədbirdə Rusiya və Ermənistan siyasətçiləri də iştirak edirdilər. Bu sırada Rusiya xarici işlər naziri Sergey Lavrov, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov, Ermənistan prezidenti Serj Sərkisyan və xüsusilə də Qarabağ separatçılarının lideri Bako Saakyanın olması isə heyrətamiz idi. Bu, artıq "həmsədr" ölkənin Qarabağ separatçılarına dəstəyinin açıq nümayişi idi. Bu tədbir o zaman baş tutdu ki, S.Lavrov Dağlıq Qarabağ məsələsinin Azərbaycanın daxili işi olmadığını bəyan etmişdi. Bunun ardınca Rusiyada separatçıların bayraqlarının qaldırıldığı idman və mədəniyyət tədbirlərləri keçirildi, buna etiraz edən azərbaycanlılar isə polis müqaviməti ilə üzləşdilər.

Rusiyanın Dağlıq Qarabağda nə əsgəri gücünün, nə vətəndaşının, nə də sərhədinin olmaması onu müəyyən təzyiq imkanlarından məhrum edir. Bu mənada gələcəkdə Dağlıq Qarabağın Rusiyaya birləşdirilməsi kimi sərsəm ideyanın gündəmə gəlməsi də istisna deyil. Hər halda, avantürist Jirinovski bir neçə dəfə bunu əbəs yerə dilə gətirməyib.

Kremlin digər separatçı bölgələrdə də aktivləşməsi fonunda Dağlıq Qarabağın kənarda qalacağı inandırıcı görünmür. Rusiya baş nazirinin müavini, Qərbin "qara siyahısı"nda olan Dmitri Roqozin Dnestryanı ilə bağlı son bəyanatlarına və davranışlarına görə artıq Moldova hökuməti tərəfindən də "persona-non qrata" elan edilib. Ötən həftə separatçı bölgəyə gedişi əngəllənən Roqozinin "əgər Dnestryanı bölgədə Rusiya vətəndaşının başından bir tük əksik olsa cavab olduqca sərt olacaq" təhdidi artıq Rusiyanın işğalla hədələməsindən xəbər verir. Roqozin Moldovanın qərbyönümlü hökumətinə xəbərdarlıq edərək bildirib ki, Dnestryanı bölgədə 200 mindən çox Rusiya vətəndaşı yaşayır və Kişinyov bunu yaddan çıxarmalı deyil. Xatırladaq ki, Dnestryanı bölgə keçmiş sovet respublikaları ərazisində Moskvanın nəzarətdə saxladığı separatçı münaqişə ocaqlarından biridir. Rusiya bu bölgədə yaşayan etnik rusları kütləvi şəkildə pasportla təmin edib. Vaxtilə Cənubi Osetiya və Abxaziya bölgəsinin sakinlərinə də kütləvi şəkildə Rusiya pasportlarının paylandığı məlum olmuşdu.

"Rusiya vətəndaşlarının hüquqlarının pozulması" Moskvanın Ukrayna və Gürcüstana müdaxilə zamanı istifadə etdiyi arqumentdir. Rusiyanın separatçılarla bağlı siyasətini aktivləşdirməsi isə şübhəsiz ki, separatçı rejimləri şirnikləndirəcək. Xüsusilə də Putinin qarşıdakı səfəri separatçılara revanş imkanı qazandıra bilər.

**"Moskva SSRİ məkanındakı bütün separatçıların himayədarıdır. Kreml özünə qıymadığını başqasına qıyır". Bu fikirlər "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğluna məxsusdur. Ekspert bildirdi ki, vaxtilə Çeçenistan Rusiyadan ayrılmaq istədikdə Moskvanın bu diyarın başına açmadığı oyun qalmadı:** "Əslində Çeçenistanın mərhum lideri Covhər Dudayev əvvəlcə Çeçenistana geniş muxtariyyət istəyirdi, ancaq buna sərt cavab aldıqda müstəqil olacaqlarını bildirdi. Çeçenistanda bu mərhələdə radikal elementlər yox idi. Rusiya Çeçenistana qoşun yeritdikdə, minlərlə insan qətl edildikdə dünyanın müxtəlif ölkələrdəki radikal elementlər Çeçenistana getdilər. Rusiya ərazi bütövlüyünü bərpa etdi, kimsə buna bir söz demədi. Azərbaycanı çeçenlərə mənəvi tellər bağlasa da, Bakı Çeçenistanın ram edilməsinə etiraz etmədi, Rusiyanın ərazi bütövlüyünü dəstəklədi. Bakıda Çeçenistan nümayəndəliyi qapadıldı. Gürcüstan hökuməti Rusiyanın tələbi ilə Pankisi dərəsində gizlənən silahlı çeçenləri ərazinin tərkini tələb etdi. Çünki Azərbaycan kimi Gürcüstan da Rusiyanın ərazi bütövlüyünə hörmətlə yanaşırdı".




**Bəs qonşularının bütün bu yaxşılıqları qarşılığında Rusiya nə etdi və nə edir? E.Şahinoğlu bu suala cavabında xatırlatdı ki, Kreml 2008-ci ildə Gürcüstanı parçaladı, tankları az qala Tiflisə yaxınlaşdı, Abxaziya və Cənubi Osetiya rəsmən işğal olundu, 8 il sonra Krım işğal olundu, Ukraynanın şərqində yeni separatçı bölgə yaradıldı:** "İndi də Rusiya prezidenti Vladimir Putin işğal etdiyi Abxaziyaya səfərə hazırlaşır. Səfərin Putin üçün əhəmiyyəti odur ki, bununla Kreml sahibi Amerikanın bölgədəki maraqları əleyhinə mübarizə aparacağını, ABŞ-Gürcüstan ittifaqına qarşı çıxdığını əyani göstərir. Kreml Ukrayna və Gürcüstanın ərazi bütövlüyündə maraqlı olmadığı kimi, bu ölkələrin zəifləməsinə də çalışır və bunun üçün illərin sınağından keçirdiyi ənənəvi üsulundan istifadə edir - separatçılara dəstək verməklə".

**Siyasi təhlilçinin qənaətincə, Kreml Dağlıq Qarabağ münaqişəsinə də eyni prizmadan yanaşır:** "Rusiya və Azərbaycan rəsmiləri sözdə iki dövlət arasındakı münasibətləri strateji tərəfdaşlıq kimi qiymətləndirirlər. Reallıqda isə Gürcüstanı və Ukraynanı parçalayan, Abxaziya, Cənubi Osetiya və Krımı bu ölkələrdən qoparan Rusiya Azərbaycanın strateji tərəfdaş ola bilməz. Rusiya heç zaman Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməyəcək. Nə vaxtsa Bakı ilə münasibətləri soyusa, şübhə etmirəm ki, Kreml Gürcüstan və Ukraynada etdiklərini Azərbaycanda da təkrarlamağa çalışacaq. Onsuz da Rusiya Ermənistanda hərbi bazalarını modernləşdirməklə, işğalçıya silah almaq üçün 200 milyon dollar kredit verməklə və birgə qoşun birlikləri yaratmaqla Azərbaycana dost olmadığını sübut edib. Bircə qalıb ki, Dağlıq Qarabağdakı ermənilərə Rusiya pasportları paylasın. Ötən ilin aprel ayında Azərbaycan ordusunun uğurunu genişləndirməsinin qarşısını da məhz Rusiya aldı. Bunu müdafiə naziri Zakir Həsənov son müsahibəsində də dolayısı ilə etiraf edib. Əks halda, nazirin "Rusiyanın müdafiə naziri Sergey Şoyqu mənə zəng edərək, hücumu dayandırmağı xahiş etdi" sözlərini başqa necə oxumaq lazımdır? Bu xahiş idi, yoxsa tələb, mənə aydın olmadı. Çünki Azərbaycan hücumu genişləndirəcəyi halda, Şoyqu azərbaycanlı həmkarına bunun Azərbaycan üçün mümkün "nəticələri" haqqında da hansısa hədələyici fikirlər bildirməmiş deyildi".

**Belə həssas məqamda Moskva ilə münasibətlərimizin perspektivlərinə gəldikdə, E.Şahinoğlu bildirdi ki, Rusiya qonşumuzdur və qonşunu necə var, elə də qəbul etməliyik:** "Rusiyada yaxın illərdə rejim dəyişikliyi baş verməyəcək. Rusiya yaxın illərdə demokratikləşməyəcək, qonşulara yönəlik "parçala və hökm sür" siyasətini dəyişməyəcək. Biz bu amilləri nəzərə almaq məcburiyyətindəyik. Bəli, biz şimal qonşumuzla normal münasibətləri davam etdirməliyik, ticarət və gediş-gəliş davam etməlidir. Ancaq heç zaman unutmamalıyıq ki, Kreml Azərbaycanın möhkəmlənməsində, inkişafında enerji resurslarını dünya bazarlarına çıxarmasında maraqlı deyil. Bunu xarici siyasətimizdə və təhlükəsizlik məsələlərimizin həllində də nəzərə almalıyıq. Elə etməliyik ki, bir daha torpaqlarımızı azad etmək əməliyyatına başlayanda Rusiyanın müdafiə naziri Bakıya zəng edib bizə "hücumu dayandırın" əmrini verməyə cürət etməsin".

V.Putinin Abxaziyaya səfərinə ABŞ-ın reaksiyasını gözləyək. ABŞ Dövlət Departamenti "Bizim Cənubi Osetiya və Abxaziya ilə bağlı mövqeyimiz aydın və daimidir. Bu regionlar Gürcüstanın ayrılmaz tərkib hissəsidir" - bəyanatı vermişdi. Ardınca isə Rusiyaya xitabən bu torpaqları azad etməyə çağırmışdı. Hər halda, Putin gürcü torpaqlarını azad etmək üçün bölgəyə gəlmir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017

# Amerikalı astroloqlardan Tramp haqda şok proqnoz - sui-qəsd anonsu...

## Avqustun 21-də ABŞ-da baş verəcək Ay tutulması Ağ Evin yeni sahibinin həyatına dəhşətli təhlükə vəd edir; bəlkə astroloqlar dərin güclərin qorxunc niyyətini pərdələyir?

**İlin sonunda adətdi, tanınmış münəccimlər, astroloqlar mətbuat səhifələrində növbəti ənənəvi öncəgörmələrini elan edirlər. Amma...**

Amma ABŞ prezidenti Donald Trampa aid öz astroloji proqnozlarını məşhur Amerika astroloqları Ueyd Keyvz və Mardjeri Orr, bilinmir niyə, hansı səbəbdən ilin sonunda deyil, məhz ilin ortasında, lap elə bu günlərdə elan ediblər.

Öncəgörmələr məşhur "Sehirli xalat" filmindəki "Qüdrətli xan sahibləri! Göyün yeddinci qatında Çəyvan, Ütəriyyə, Mərrix, Müşətəri və nəhayət, Nahid ulduzları təxti-tacımıza, hökmdarımıza qarşı qorxulu vəziyyətdə donub qalıblar!" harayını xatırladır. "Newsweek" nəşrində çap edilmiş bu proqnozun məzmunu çox həyəcanlı, gözlənilməz, eyni zamanda çox qısadır: "21 avqust 2017-ci ildə ABŞ səmalarında iki dəqiqəlik Ay tutulması baş verəcək. Ölkə üzərindəki qara kölgənin uzunluğu 115 kilometrdən çox olacaq bu zaman. 1909, 1927, 1945, 1963, 1981, 1999-cu illərdəki oxşar Ay tutulmaları ABŞ-a çox baha başa gəlib: Prezident Ulyam Taft ilə Ronald Reyqana qarşı qəsd baş verib, Bill Klinton impiçmentə məruz qalıb, Franklin D.Ruzvelt dünyasını dəyişib, Yaponiya atom bombardmanına məruz qalıb və sair və ilaxır".

**Oxucularını yay məzuniyyətlərdən əvvəl xeyli qorxudan qəzet, sonra sakitcə öz hədəfini göstərir:** "Donald Tramp özü növbəti Ay tutulması zamanı dünyaya göz açdığı səbəbdən, oxşar təhlükə onu da təqib edəcək avqust ayında".

***

Astroloqlar, münəccimlər həmişə göy qüvvələrinin deyil, real yer qüvvələrinin siyasi sifarişini yerinə yetiriblər. Sonrakı aldadıcı mənzərələr, manevrlər ilə öz müştərilərini azdırıblar. Görüntü yaradıblar bəs guya Mərrix, yəni Mars planeti o gün özünü belə-belə aparıb göydə. Bəs Çəyvan planeti qorxudan gedib girib filan kosmik ünvana.

Göy cisimləri barədə Ueyd Keyvz və Mardjeri Orrinin biliklər, bilmirəm, düzdü, yoxsa əyri. Amma 1909, 1927, 1945, 1963, 1981, 1999-cu illərin avqust hadisələri barədə bəzi məlumatlar kökündən yanlışdı. Bağışlanılmaz səhvdi. Əvvəla, prezident Con Kennedi avqust ayında qətlə yetirilməyib. 1963-cü ilin ılıq noyabrında öz məşəqqətli taleyini başa vurub. Dönüb Arlinqton qəbiristanlığındakı ağır daş abidəyə. Eləcə də Franklin Ruzvelt. Rəhmətlik öz dünyasını 1945-ci ilin aprel ayında dəyişib. Kosmosda elə bir yerdəyişmə, yaxud Ay, Günəş tutulması-filan qeydə alınmayıb həm də o zaman.

***

O yekəlikdə "Newsweek" nəşrini öz məsum oxucularına yanlış informasiya ötürməkdə ittiham etməzdim. Tam tərsinə. Məncə, burda oxucuya üstüörtülü mesaj ötürülür. Göstərilir ki, bəli, ayıq olun, avqust ayında adi çərçivələrə sığmayan ciddi bir hadisə törədiləcək ABŞ-da.

Yəni kimsə artıq indidən Tramp administrasiyasına qarşı öz qara əlcəyini Ağ Ev dəhlizlərinə tullayıb. Yəni bu, astroloji proqnoz-filan deyil əslinə qalsa. Əsl ciddi xəbərdarlıqdı. Vəssalam. Məlumatdakı səhvlər də, görünür, bilə-bilə buraxılıb.

Bu məlumatdan sonra da sifarişli ABŞ mətbuatı öz sadəlövh oxucusunu sakit buraxmayıb. Mövzunun ardını ziddiyyətli yazıçı Devid Midsə tapşırıb. Yazıçının iddiasına görə, 2017-ci ilin sentyabrında "X" planeti, əfil kosmosa daxil olub Qız bürcündən keçəcək. 5 oktyabr tarixində isə Günəşi hop edib udacaq guya. Nəticədə Yer planetindəki həyat kökündən ləğv ediləcək.



Alim iddia edir ki, elm aləminə bütün bunlar çoxdan, lap qədimlərdən bəllidi. Guya hakim elita nümayəndələri nə vaxtdı özlərinə beton sığınacaqlar inşa edib ordan dünyanın sonuna tamaşa etmək istəyirlər.

Deyilənlərə görə, Donald Trampın nəhəng tikinti şirkətləri çoxdan oxşar sığınacaqları inşa edib baha qiymətə öz varlı müştərilərinə satırlar. Nə bilim? Bəlkə bu mövzunun da müəllifləri Trampa məxsus elə həmin tikinti şirkətləridir. Reklam xatirinə öz bosslarını kosmos vasitəsi ilə qətlə yetirib müştəri qazanmaq istəyirlər.

Tramp "qara yumor" hissinə malik olduğunu hər addımbaşı hərəkətləri ilə sübut edib indiyədək. O, "qara səni basınca, sən qaranı bas" fəlsəfəsi ilə yaşayan bir siyasi xadim, əslində isə biznesmendi.

Siyasi rəqiblərini oxşar yalanlar ilə, özzzüm ölüm, deyəsən, Tramp özü təmin edir. İstəyir, burnunun ucunu görməyən rəqiblərini bu cür PR gedişlər ilə gülünc vəziyyətə salsın. Sonra...

Sonra öz cəza qılıncını sıyırıb cumsun bu sadəlövhlərin üzərinə.

***

Gəlin mövzuya azca rəğbət hissi ilə yanaşaq. Lucyano Pavarotti, Ana Tereza, şahzadə Diana, Roma Papası İoann Pavel 2-cinin Günəş tutulması zamanı vəfat etməsi, adamlarda belə bir yanlış fikir yaradır ki, guya göy cisimləri üzərinə kölgə düşsə, dünyada oxşar bədbəxt hadisələr, qətllər baş verəcək. Əvvəla, bu, qətiyyən belə deyil. İkincisi, ən vacibi - dünya təqvimləri sırasında öncəgörmələr üçün ən münasib, düzgünü nə miladi təqvimidir, nə də ki digərləri. Təkcəsi, bircəciyi ulu Zərdüştə məxsus məşhur novruz təqvimidir. Hələlik biz bu doğma təqvimdən ancaq Novruz bayramı zamanı istifadə edib şellənirik özümüzçün. Daha həmin dəyərli təqvimin öncəgörmə imkanlarından bir o qədər istifadə etmirik.

Amma müasir Rusiyanın bir nömrəli münəccimi sayılan aysor mənşəli Pavel Qloba gələcək barədə öz proqnozlarını məhz bu təqvimə əsaslanaraq irəli sürür. İndi Rusiyada elə bir sanballı mətbuat orqanı yoxdur ki, orda Pavel Qlobanın astroloji proqnozları verilməsin. Təqvim, 32 ili əhatə edən xüsusi qərinələrə bölünür. Hər il bir heyvanın xassələrini özündə cəmləyir. Məsələn, Rusiya prezidenti Vladimir Putin Zərdüşt təqviminə görə porsuq ilində (1920, 1952, 1984, 2016, 2048) doğulub.

Təqvimdə bu rəmzin tam tərs qarşılığı da mövcuddur. Yəni əgər sən Porsuq ilində bu rəmzin qanunları ilə yaşamasan, özündən küs. Bil ki, belə halda əks rəmzin - Köstəbəyin təsiri altında yaşamağa məhkumsan.

Vladimir Putinin, gərək biləsiz, tam məxfi "Mole" ləqəbinin bir mənası da elə həmin "köstəbək"di. Niyə?

"Niyə?"si yoxdu. Görünür, məxfi məktəblərdə miladi təqviminə o qədər etibar etmirlər. Zərdüşt təqvimi əsasında öz xüsusi agentlərinin bölgüsünü aparırlar. Sonra Qloba kimilərə deyirlər, mövzu ətrafında öz öncəgörmələrini desin.

Elə ordan da götürürlər öz xüsusi agentlərin məxfi adlarını.

Sözümün "mustafası" qısadı. Öncəgörmələr, Zərdüşt təqvimin üzərində qurulubsa, hə, qəbuldu bizə. Ancaq Tramp barədəki avqust proqnozlarına mən şübhə ilə yanaşıram.

**Hesab edirəm ki, bütün bunlar oyunbazlıqdı ancaq.**

❑ **Həmid HERİSÇİ**

# Klassik, modern, avanqard - ev dizaynı neçəyə başa gəlir?



## Zümrüd Şükürova: "Sadə təmirin bir kvadratmetri 200-400 manat arasında dəyişir"

**Hər kəsin evi özünə xas və özəldir. Heç bir ev bir-birinə bənzəmir. Harada getsək, sonda mütləq evimizi gəlir və tək rahat olduğumuz, dincəldiyimiz yer məhz evimiz olur. Hətta insanlar arasında belə bir deyim də var: "İnsanın evi kimisi yoxdur".**

Təbii ki, ev nə qədər geniş, təmirli və göz oxşayan olsa, o evdən bir o qədər çox zövq almaq olar. Evin gözəl rahatlığı isə ilk öncə onun təmiri və dizaynından asılıdır. Bir çox ölkələrdə insanlar evlərini tez-tez, ən azı ildə bir dəfə təmir etdirir, dizaynını dəyişir. Bunu ona görə edirlər ki, gözləri yorulmasın. Azərbaycanda isə bunu hər kəs edə bilmir. Tikinti materiallarının qiyməti, usta pulu və dizayn şirkətlərinin qiyməti heç də hər kəsin cibinə uyğun olmur. Buna görə də insanlar evlərini 5, hətta 10 ildən bir təmir etdirir.

Əvvəllər ev təmir etdirmək üçün ev sahibi sərfəli tikinti materialları axtarışına çıxır, sərfəli qiymətə usta tapmağa çalışırdı. İndi də əksəriyyət bu cür edir. Ancaq heç bir iş görmədən də evinizi dizayn şirkətlərinə etibar etməklə təmir etdirmək mümkündür. Təbii ki, buna görə əlinizi cibinizin dərinliklərinə salmalı olacaqsınız. Çünki bu sizə 2 qat baha başa gələ bilər. Ölkəmizdə az sayda olsa da dizayn şirkətləri fəaliyyət göstərir ki, onlar həm təmir materialını özləri alır, həm də təmir edirlər. Hətta istəsəniz, evinizi söküb yenidən, yeni dizaynda tikirlər.

Dizayn şirkətləri ilə yanaşı, fərdi çalışan dizaynerlərdə var ki, onlarda qiymətlər bir qədər fərqli olur. Dizayn şirkətlərində də qiymətlər bir birindən bəzən iki qatadək fərqlənir. Biz də təmir və dizayn qiymətlərini öyrənmək üçün bir neçə dizayn şirkəti ilə əlaqə saxladıq.

**"AZ Dizayn İnşaat" MMC-nin meneceri Zümrüd Şükürova son vaxtlar insanların avanqard üsluba daha çox üstünlük verdiyini, ancaq müraciət edənlərin az olduğunu dedi:** "Çox insanlar yazır ev təmirinin, dizaynının qiymətləri ilə maraqlanır. Ancaq real müştərilərimiz azdır. Elə insanlar ola bilər ki, qiymətlərimiz onlar üçün çox olsun. Məsələn, bir dizayn 3000 manat tutursa, müştəri deyir ki, mən 3000 dizayna verməkdənsə, 2000 manat verib evimi təmir etdirərəm. Üslublar içərisində artıq klassikanı seçənlər demək olar ki, yox dərəcəsindədir. Daha çox avanqard və modern üslublara üstünlük verirlər. Bizdə material və ustalar bizim şirkətin olur. Ev sahibi əziyyət çəkib usta axtarmaq, material almaq məcburiyyətində qalmır. O kataloqdan seçir, biz alırıq. Bizdə dizayn və təmir ayrı-ayrı xidmət kimi göstərilir. Əgər təmiri biz ediriksə, dizayn o zaman hədiyyə edilir. Sadə təmirin bir kvadratmetri bizdə 200 manatdan başlayır. 230, 250 və daha yuxarı 400 manatadək gedir. Avanqard üslubda təmir 300-350 manatdan başlayır. Material qiymətinə görə qiymət dəyişir. Döşəmənin parket və laminat olmasına, divar kağızının 15 və ya 40 manat olmasına görə qiymətdə də fərq yaranır. Dizayn isə kvadratı 10-15 manatdan hesablanır. Biz çalışırıq ki, ev sahibinin fikrini alaq ki, o necə üsluba, necə dizayna, mebellərə üstünlük verir. Bundan sonra onun zövqünə görə işləməyə başlayırıq. Amma biz öncə öz təkliflərimizi də irəli sürürük. Əgər sifarişçi bəyənməsə, dəyişdiririk. Bir evin həm təmir, həm də dizayn edilməsi kvadratdan asılı olaraq 2-3 ay vaxt aparır. Məsələn, 80 kvadrat metrlik ev 1 ay yarıma təhvil verilir. Bir şərtlə ki, sifarişçi ödənişi gecikdirməsin ki, iş dayanmasın. Tutaq ki, bir təmirin qiyməti 20 min manat tutur. Biz o pulu sifarişçidən birdən-birə almırıq. 2 aya təmir bitəcəksə, o müddətə məbləğ bölünür. Bizim firmada mebellərin istehsalı da mümkündür. Amma təmir, dizayn qiymətinə onun aidiyyəti yoxdur. Biz heç yerdə olmayan, sırf dizaynerin işlədiyi modeli təklif edirik. Sadə mətbəx mebellərimizin paqometrinin qiyməti 250 manatdan başlayır. Materiala uyğun olaraq 250 manatdan 900 manat arasınadək dəyişir. Yumşaq mebellər isə 2000 manatdan başlayır 8000 manatadək artır".

Qeyd edək ki, siz sadə üslubda 100 kvadratlıq bir mərtəbəli bağ evi tikdirmək istəsəniz, bu sizə 38 min manata başa gələcək. 12X11 ölçüdə olan bağ evi isə 85 min manata başa gələcək.

Digər - "Aztikinti mühəndislik və dizayn tikinti" şirkətində isə qiymətlər tamamilə fərqli idi. Belə ki, burada bir mərtəbəli sahəsi 60 kvadrat metr, hündürlüyü isə 5.2 olan bir bağ evi tikinti və təmir qiyməti ilə sizə 25 min 450 manata başa gələcək. Bu şirkətdə tikintinin kvadratı 380 manatdan, təmirin kvadratı isə 240 manatdan hesablanır. Özünüz usta tapıb materialı özünüz alsanız, bu, hesablama ucuz başa gəlir. Çünki ustalar evin kvadratını 70-80 manata təmir edirlər.

Son vaxtlar taxtadan hazırlanan evlərə də maraq artıb. Belə evlərin 1 kvadratmetri 1000-1200 manata başa gəlir və taxtalar hazır formada kəsilərək evin tikiləcəyi ərazidə yığılır. Ölçüsü 40-45 kvadratmetr olan bir evin hazırlanması üçün isə minimum 2 ay vaxt sərf olunur. Evin tikildiyi ərazi betonla tam düz formada düzəldilməlidir. Qonşu ölkələrə nəzər salsaq orada təmir tikinti və dizayn qiymətlərinin bizdəkindən dəfələrlə ucuz olduğunu görərik. Məsələn, Rusiyada dizayn üçün orta məbləğ 1 kv.m üçün 5000 rubldur.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 162 (6775) 4 avqust 2017

# Dünya pedofilləri çox sərt cəzalandırılır, Azərbaycanda isə...

## Onların cəzalandırılması üçün qanun sərtləşdiriləcəkmi?

**Naxçıvanda 4 yaşlı uşağın zorlanması xəbərinin əks-sədaları hələ də davam edir. Hadisənin şoku bütün cəmiyyəti bürüməkdə ikən, bu sayaq hadisələrin təkrarlanmaması üçün çıxış yolları barədə müzakirələr də aktualdır. Ümumiyyətlə, son dövrlər Azərbaycanda uşaqlara qarşı seksual zorakılıq faktları artmaqdadır. Bunun bütün dünyanı bürüdüyü faktını nəzərə alanda həyata keçirilən cəzalar, bu situasiyadan çıxış yolları da müzakirə olunub.**

Məsələn, Avstraliya dünyada pedofillərə səyahət məhdudlaşdırılması gətirən ilk ölkə olmağa hazırlaşır. Hökumətin hazırladığı plana görə, uşaqlara yönəlik cinsəl cinayətlərdən cəzaya məhkum olmuş şəxslərin pasportları üzərində prosedur aparılmır. Ədalət naziri Maykl Keenan alınacaq qərarın təxminən 20 min cinsi cinayətə əl atmış avstraliyalıya təsir edəcəyini söylədi. Plana görə, lazım gələrsə, pasportlara onların sahiblərinin pedofil olduğunu əks etdirən qeyd əlavə olunacaq.

Nazir Keenan deyib ki, daha öncə heç bir ölkə cinsi cinayətə yol vermiş vətəndaşlarının, özəlliklə də uşaqların sui-istifadə edildiyi yerlərə getməsini dayandıracaq, belə bir güclü qərar qəbul etməyib.

Rəsmi rəqəmlərə görə, keçən il 800-ə qədər cinsi cinayətdən hökm almış avstraliyalı başqa ölkələrə səyahət edib. Ölkədə 3 min 200 nəfər pedofilin pasport haqqı yoxdur, çünki daimi nəzarət altındadılar.

Pedofillik daha çox kişilərdə müşahidə olunur. Nadir hallarda qadınlarda rast gəlinir. Ancaq pedofillikdə cinsiyyət ayrımı yoxdur. Bütün dünyada ən ağır cinayətlərdən biri olan pedofilliyin qurbanlarına çevrilmiş uşaqlar, psixoloji baxımdan müalicə olunmasalar, yetkinlik yaşına çatanda onlarda da pedofillik əlamətləri görünə bilir.

Pedofilliyə meylli adam hər yaş qrupundan, hər bir peşədən, hər bir millətdən ola bilər. Sosial-iqtisadi təminatı çox yaxşı, çox pis də ola bilər. Araşdırmalar göstərir ki, pedofillər daha çox uzaq qohumlar və qonşular arasından çıxır.

**Ümumiyyətlə, əksər Avropa ölkələrində pedofillərlə bağlı cinayət məcəllələrində bu kimi detallar yer alır.**

**1.** Uşaqlara yönəlik əxlaqsız hərəkətlərin elektron poçt, internet ortamlarında, cib telefonu mesajı ilə yayılması cəzaların artırılmasına səbəb olur.

**2.** Cinsi istismar hərəkətlərinə kütləvi bayramların, tədbirlərin və ya mitinqlərin keçirildiyi yerlədə yol verənlər ikiqat artıq cəzalandırılır.

**3.** Uşaqlara yönəlmiş cinsi istismar ittihamına məruz qalanlar ömür boyu uşaqlardan uzaq tutulur. Bu şəxslərin uşaqlarla bir arada olması lazım olan işlərdə çalışması qadağan olunur.

Pedofil cinayətkarlarının cəmiyyətdən tamamən təcrid olunması müzakirə mövzusudur. Pedofiliya ilə ittiham olunanlara qarşı iki üsuldan istifadə olunur. Bunlardan biri dərmanlı üsul hələ də ABŞ-ın bəzi ştatlarında tətbiq olunmaqdadır. Buna görə xəstəyə ya 20 il həbs, ya da xədim variantı təqdim edilir. Çexiyada isə cərrahi kastrasiya tətbiq olunur. Pedofiliyada ittiham olunanların əməliyyatla testisləri götürülür.

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 152-ci maddəsində isə belə yazılıb:** "Yetkinlik yaşına çatmış tərəfindən aşkar surətdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etmə - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".



**Azərbaycanda da bununla bağlı müzakirələr intensivləşməkdədir. İnsanlarımız başda millət vəkilləri olmaqla, ümumən dövlətdən bu vəziyyətdən çıxış yolları istəyirlər. Hüseynov Müşfiq adlı vətəndaş sosial şəbəkədə yazdığı statusda bu vəziyyətdən çıxış yolu kimi millət vəkili Qənirə Paşayevadan yardım istəyib. O, Q.Paşayevaya müraciətlə aşağıdakıları yazıb:** "Sizdən xahişim MM payız sessiyasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsində pedofiliyaya ( uşaq zorlama) görə məsuliyyətin dəyişməsini, məhkumun qardaş ölkə Qazaxıstanda olduğu kimi kimyəvi yolla axtalanmasına qərar verilməsini yüksək səviyyədə səsləndirəsiniz. Bütün xalq və millət bunu istəyir. Sizə hər cür dəstək verərik. Bu iş artıq cığırından çıxmağa başlayıb. Əgər qəti və konkret tədbir görülməsə, çox körpələr fiziki və mənəvi zorakılığa məruz qalacaq».

**Xanım deputat isə baş vermiş hadisəni qınayaraq, özünün sosial şəbəkədəki hesabında bu fikirlərini paylaşıb:** "Xəbərin dəhşətindən çox sarsılmışam. Sanki əlim-ayağım buz bağlamışdı. Bunu törədən insan ola bilməz. Bir vəhşidir vəssalam... 4 yaşlı körpəyə qarşı bu qədər dəhşətli rəzilliyi, alçaqlığı törədən ömürlük həbsdə qalmalıdır. Ölüm hökmünün ləğvinin tərəfdarlarından olmuşam və tərəfdarlarından biriyəm.. Amma bu üçüncü dəhşətli hadisədir ki, keşkə ölüm hökmü olsaydı demişəm. Yəni o qədər dəhşət içərisindəyəm. Bu cür bir neçə rəzil, vəhşi məxluqların üzündən bir çox insanlar kiçik yaşlı övladı üçün səksəkə içərisində yaşayır. Valideynləri, bütün insanları uşaqlardan daha çox muğayat olmağa, diqqətli olmağa çağırırıq. Bu cür manyak ruhun sahiblərinə qarşı uşaqları daha yaxşı qoruya bilmək üçün bütün cəmiyyət olaraq səylərimizi, işləri, çalışmaları artırmalıyıq.

Bu adam bu hadisədən öncə də qeyri-normal həyat yaşayıb, içki aludəçisi olub, bir neçə gün əvvəl anası döyüb kimi məlumatlar yayılır mətbuatda. Ona görə də ətrafda bu cür həyat yaşayan insanlara qarşı, onları normal, sağlam həyata döndərmək üçün işlər, tədbirlər artmalıdır, heç bir nəticə olmadıqda, bu cür əməlləri davam etdirdikləri halda isə onları cəmiyyətdən uzaq tutmağın yolları düşünülməlidir. Hər birimiz özümüzü o körpənin ailəsinin yerinə qoyaq. O günahsız balanın yaşadığı və gələcəkdə həyatına təsir edə biləcək travmaları isə düşünmək belə insana acı verir. Məktəblərdə, bölgələrdə gənclərə böyük insani dəyərlər, əxlaq normaları haqda daha çox danışmaq, psixoloji dəstək layihələrini artırmaq lazımdır. Televiziyalarda mənəvi yüksəlişə təsir edən proqramlar daha da artmalıdır. İndi şou verlişlərə deyil, bu cür verlişlərə ehtiyacı var cəmiyyətin. Gənclər arasında spirtli içkilərin içilməsinə qarşı ciddi mübarizə aparaq dediyimdə o dəqiqə bəzi sosial şəbəkə istifadəçiləri "Qənirə xanım siz lap dindar kimi danışırsınız" deyə yazdı.

Bunun nə əlaqəsi var axı. Mübarizə aparmayaq uşaqlarımız alkol aludəçisinə çevrilsin, içərisində yırtıcı yatan bəziləri də alkoqolun aşırı dozası ilə vəhşiyə çevrilib övladlarımıza, ətrafa zərərmi vursun deməliydim. Bəzi mövzularda fikirləri başqa yerlərə çəkmək lazım deyil. Yenə də deyirəm, əziz valideynlər, uşaqlarınızı spirtli içkilərdən, siqaretdən, narkotikdən və qumardan uzaq tutun. Əziz insanlar, ətrafınızda içki düşkünü, içib ailəsinə zərər verən, normal olmayan həyat tərzi sürən biri varsa, laqeyd olmayın, müvafiq qurumlara xəbər edin. Yerli qurumlar bu məsələlərə xüsusi diqqət edin. Çünki beləlləri hər an hər birimizin ailəsinə, övladına dəhşətli zərər verə bilər.

Məncə, cəmiyyət olaraq bu xəbərdən dəhşətə düşüb, üzüldükdən sonra qısa zamanda unutmamalıyıq. Hər birimiz ətrafımızda baş verənlərə diqqətli olmalı, laqeyd yanaşmamalı, "mənə nə" deməməliyik. Bütün qurumlarımız, QHT, KİV-lərimiz, hamımız, bütün cəmiyyətimiz birlikdə daha çox çalışmalıyıq belə halların təkrarlanmaması üçün. Əziz körpə balamıza Allah yardımçı olsun. Ailəsinə bu acını aşa biləcək güc versin. O gözəl bala bizim də balamızdır. Bu dəhşəti törədən "insan" isə layiq olduğu cəzanı çəkməlidir ki, bu cür manyak ruha sahib olanlara ağır bir dərs olsun!"

❑ **Sevinc TELMANQIZI**



# Yayda uşaqda ishal olursa... Valideynlərin nəzərinə

**Yay aylarında istilərin daha da artması ilə əlaqədar uşaqlarda ən geniş yayılan problemlərdən biri ishaldır. Xüsusilə də bu, 2 yaşından az uşaqlarda daha da qorxulu hal yaradır.**

Ailem.az Türkiyə mətbuatına istinadən uşaq xəstəlikləri üzrə mütəxəssis **Mehmet Kesikminarenin** qusma ilə bərabər müşahidə edilən belə hallarla bağlı məsləhətlərini təqdim edir: "Uşaqlarda belə hallara rast gəlindiyi təqdirdə mütləq həkimə müraciət etmək lazımdır. Yay aylarında mədə-bağırsaq sistemi infeksiyaları artır. Bu hal xəstəliyin ortaya çıxmasına səbəb olan viruslar, bakteriyalar və parazitlərin nəm və artan temperaturla əlaqədar daha asan yayıla bilməsindən qaynaqlanır. Həmçinin qidaların uyğun şəraitdə saxlanılmaması, daha tez xarab olması, hovuz və dəniz suyunun içilməsi, qidaların lazımi qaydada təmizlənməməsi, ya da təmiz su ilə yuyulmaması kimi bir çox əlavə təsirlər də yayda ishalın olmasına səbəb yaradır".

**M.Kesikminare yayda həddindən artıq tərləmə səbəbi ilə xəstəliyin daha çətin formada keçə biləcəyini vurğulayıb:** "Buna görə ishal başladığı andan etibarən maye qəbulu çox önəmlidir. Uzun sürən və təkrarlanan ishal uşağın normal inkişafına da təsir edir. Xüsusilə 6 ay-2 yaş arası kiçik uşaqlar mümkün olduğu qədər tez müalicə almalıdır. Ana südü uşağı qoruduğu üçün 6 aydan əvvəl ishal nisbətən daha az müşahidə edilir. Ancaq xüsusilə yay ishalları ilk 6 aylıq mərhələdə daha da təhlükəli olur".

### Nə zaman həkimə müraciət edilməlidir?

**"İshal qusma və qızdırma ilə birlikdə müşahidə edildikdə daha diqqətli olmaq lazımdır" deyən həkim qidalanmadakı pozuqluğun valideynlər üçün bir xəbərdarlıq olduğunu bildirib:** "Uşaq hər yediyini qusursa, temperaturu 38.5-dən yüksək olursa, heç bir şey yeməməsinə rəğmən gündə 5 dəfədən çox duru şəkildə nəcis ifraz edirsə, mütləq həkimə müraciət etmək lazımdır".

### Bol maye içilməlidir

**"Viral infeksiyalarla bağlı ishal olduqda uşaqda ürəkbulanma və qusma ilə birlikdə maye itkisi daha çox yaşanır. Bu hallarda itirilən mayenin əvəzinə maye qəbul etmək həyati əhəmiyyət daşıyır", - deyə həkim vurğulayıb.**

**Yay ishallarında adətən kifayət qədər maye alma və düzgün bəslənmə ilə 3-7 günə müsbət nəticə alındığını deyən M.Kesikminare bildirib ki, ishalla birlikdə qusma və qızdırma varsa, bunun qarşısını almaq üçün damardan maye müalicəsi alınmalıdır. Həmçinin bu xəstələrin çoxunda oral yolla probiotik müalicəyə də başlayırıq:** "İshal yaşayan uşaqlarda qidalanmaya diqqət etmək lazımdır. Kartof püresi, plov və xüsusilə şorba istifadə olunmalıdır. Bununla yanaşı probiotik tərkibli qidalar, ya da tibbi dərmanlar xəstəliyin sağalmasında müsbət rol oynayır".

### İshalın qarşısını almaq mümkündürmü?

**1.** Xüsusilə yeməkdən əvvəl və sonra uşaqların əlləri yuyulmalıdır;

**2.** Təmizliyindən əmin olmadığınız tualetlərdən istifadə edilməməlidir;

**3.** Uşaqların bezləri dəyişdirildikdən və ya tualetdən sonra əllər mütləq yuyulmalıdır;

**4.** Meyvə-tərəvəzlər təmizliyindən əmin olduğunuz su ilə yuyulmalıdır;

**5.** Günəş altında satılan və son istifadə tarixi keçmiş olan qidalardan qətiyyən istifadə etmək olmaz;

**6.** Əgər evinizdən kənarda yemək yeyəcəksinizsə, bişirilmə yerinin gigiyenik olmasından əmin olun;

**7.** Uşaqlarınıza açıq yerlərdə satılan dondurmalar almayın;

**8.** Təhlükəsizliyindən və təmizliyindən əmin olmadığınız heç bir su içməyin. Bunun üçün yalnız şüşə sulardan istifadə edin.

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017



# Xəstə səhvən əməliyyat olunduğunu iddia edir

**Baki sakini:** "Səhhətim də getdi, pulum da"; nazirlikdən isə şikayətçiyə məhkəməyə müraciət etməyi məsləhət görürlər...

**Bakı şəhər sakini Rzayev Allahverdi Pəhlivan oğlu redaksiyamıza gələrək şikayətlənib. 64 yaşlı şikayətçinin sözlərinə görə, Zəngilan rayonundan məcburi köçkün və əmək veteranıdır. Sağlamlığında yaranmış problemlərə görə o, ötən ilin sentyabr ayında belində yaranmış ağrılara görə əməliyyat olunub.**

Lakin sonradan məlum olub ki, keçirdiyi əməliyyatın sağlamlığındakı problemlərə heç bir aidiyyəti olmayıb: "Ötən ilin sentyabrında belimdə kəskin ağrılar yarandı. Bununla bağlı Əhmədli qəsəbəsinə yerləşən Neyrocərrahiyyə Xəstəxanasına müraciət etdim. Cərrah həkim Fuad Mirzəliyev mənim təcili əməliyyata ehtiyacım olduğunu dedi. Onun verdiyi sənədlə 3 saylı Sabunçu xəstəxanasına getdim və MRT-dən keçdim. Bu sənəd üçün həkimin mənə dediyi kimi, 90 manat pul ödədim. Həkim həmçinin bildirdi ki, əməliyyat üçün analizlərə 50 manat, əməliyyatın özü üçün ona 950 manat pul verməliyəm. Mən də sağlamlığımı itirməmək üçün borc-xərc edərək dediyi xərcləri çəkdim, 8 sentyabr tarixində əməliyyata girdim. Əməliyyatdan sonra həkim mənə bildirdi ki, iki aydan sonra tam sağalaraq sərbəst hərəkət edəcəksən. Lakin üstündən 8 ay keçməsinə baxmayaraq nəinki sağalmağa doğru getdim, hətta ağrılarım daha da artmağa başladı, ağır vəziyyətə düşdüm. Bununla bağlı həkimə yenidən müraciət edim, vəziyyətimi bildirdim. Həkimin dediyindən belə məlum oldu ki, əslində məndə başqa xəstəlik var. "Bəs niyə məni əməliyyat edirdiz?" sualını verəndə həkim məni başından etdi. Arada mənim sağlamlığım və borc-xərc etdiyim 1000 manat getdi".

**Şikayətçinin sözlərinə görə, məsələ ilə bağlı bir sıra aidiyyəti qurumlara müraciət edib:** "Yaranmış vəziyyətlə bağlı Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikası Baş Prokurorluğu yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə müraciət etmişəm. Səhiyyə Nazirliyindən mənə belə bir cavaba gəldi: "Sizin müraciətlə bağlı verilən mütəxəssis rəyinə əsasən, tibbi yardımın göstərilməsi zamanı pozuntu hallarına yol verilməsi müəyyən edilməyib. Məsələ ilə bağlı narazı qaldığınız təqdirdə pozulmasını ehtimal etdiyiniz hüquqlarınızın müdafiəsi üçün məhkəməyə müraciət edə bilərsiz". Aidiyyəti qurumlardan xahiş edirəm, mənim pozulan hüquqlarımın bərpası üçün yardım etsinlər. Bir daha qeyd edirəm ki, yanlış əməliyyat ucbatından həm sağlamlığım daha da pisləşib, həm də borc-xərclə tapdığım pul boş yerə sərf olunub".

**Məsələ ilə bağlı Səhiyyə Nazirliyinin bir daha mövqeyini öyrənməyə çalışdıq. Nazirliyin mətbuat xidmətinin rəhbəri Liya Bayramova bildirdi ki, şikayətçi bu cür hallarda mütləq məhkəməyə müraciət etməlidir:** "Əgər xəstə bu cür halla üzləşibsə, mütləq polisə və ya məhkəməyə, prokurorluğa müraciət etməlidir. Ortalıqda sübutlar olmalıdır ki, həqiqətən dövlət xəstəxanasında işləyən həkim xəstədən pul alıb. Bəlkə xəstə həkimə şər atır? Bunu ayırd etmək üçün məhkəmə müraciət mütləqdir. Ümumiyyətlə isə dövlət xəstəxanalarında əməliyyatlar pulsuz həyata keçirilir. Təkcə əməliyyat deyil, dövlət tərəfindən təsdiqlənmiş siyahı üzrə olan dərmanlar, yemək də pulsuzdur. Həmçinin xəstənin əlində sənəd olmalı idi ki, o doğrudan da əməliyyat olunmalıdır, ya yox. Bunun üçün qeydiyyatda olduğu poliklinikaya müraciət etməli idi. Xəstə şikayəti ilə bağlı bizim 9103 qaynar xəttinə də müraciət edə bilər".

❑ Xalidə GƏRAY

# Bakıda tramvay xətləri bərpa oluna bilər, əgər...

## Nəqliyyat eksperti: "Paytaxtda yaranmış tıxacların əksəriyyətinin səbəbi tramvay nəqliyyat sisteminin ləğvidir"

**Vaxtilə paytaxt Bakı üçün tramvaylar da simvol olub. Çünki regionda ən qədim tramvay Bakıda yaradılıb. Hələ 1924-cü ildə paytaxtda ilk elektrik tramvayı açılıb. Həmin ildən başlayaraq 2000-ci ilədək tramvaylar sərnişinlərə xidmət göstərib.**

Lakin 2000-2004-cü illərdə tramvay nəqliyyatı xətləri tamamilə sıradan çıxarıldı. Yalnız 2012-ci ilin fevral ayında Azərbaycan Hökuməti Bakıda tramvay xəttinin bərpa ediləcəyi haqda açıqlama yaydı. Açıqlamada bildirilirdi ki, bərpa yalnız "Ağ Şəhər" layihəsi reallaşdıqdan sonra baş tutacaq. Belə ki, layihə çərçivəsində bulvar boyu tramvay xətti qurulacaq. Amma tramvayın Bakının əsas yol qovşaqlarını əhatə etməyəcəyi də bildirilirdi.

Buna baxmayaraq, bu gün də Bakıda tramvaylardan əsər-əlamət qalmayıb. Halbuki tramvay dünyanın ən inkişaf etmiş ölkələrinin, o cümlədən ABŞ, Türkiyə, Almaniya, Finlandiya, İsveçrə və İsveç, Norveç, digər ölkələrin, eləcə də bir çox MDB şəhərlərinin bəzəyinə çevrilib və ən çox istifadə edilən nəqliyyat növüdür. Eyni zamanda daha ucuz və ekoloji cəhətcə xeyirli nəqliyyat növü sayılır.

Bir neçə il öncə Gəncədə tramvay xətlərinin bərpa olunacağı haqda məlumatlar yayılmışdı. Həmin zaman paytaxt sakinləri bu məlumatları böyük sevincə qarşılamışdı. Çünki əgər Gəncədə tramvaylar yenidən bərpa olunardısa, tezliklə Bakıya da növbə çatacaqdı. Tramvayların bərpası isə qeyd olunduğu kimi, ən əvvəl ucuz gediş haqqı deməkdir. Çünki nəqliyyatın bu növündən benzindən deyil, elektrik enerjisindən istifadə edilir. Və tramvay işləyərkən ətraf mühitə ziyan vermir. Beləliklə də tramvay gözəllik, təmiz ekoloji nəqliyyat deməkdir.




Gəncədən sonra Bakıda da tramvayların bərpa olunacağı haqda məlumatlar yayıldı. Lakin bu məsələ ətrafında xeyli müzakirələr səsləndi. Çünki məlum məsələdir ki, Bakının tramvaylı vaxtları ilə indiki vaxtı arasında fərq çox böyükdür. İndi küçələr daha da kiçilib, yollarda sıxlıq var və sairə. Ekspertlər də bildirirdilər ki, əgər yenidən tramvaylar bərpa olunub, xəttə buraxılarsa, Bakının mərkəzi küçələrində bəzi nəqliyyat növləri yığışdırılmalı, avtobusların giriş-çıxışı bağlanılmalıdır. Hazırda benzinin qiymətinin kifayət qədər baha olduğunu nəzərə alsaq, tramvayların bərpası nə qədər sərfəli olduğunu müəyyən etmək çətin deyil.

**Nəqliyyat eksperti İlqar Hüseynlinin sözlərinə görə tramvay xətlərinin yenidən bərpası hələ ki mümkünsüz görünür:** "Ümumiyyətlə, biz məsələnin lap əvvəlinə diqqət etməliyik ki, niyə tramvay xətləri ləğv olundu ki, bu gün yenidən ona ehtiyac duyaq? Bu, geniş müzakirə mövzusudur. Bildiyiniz kimi, Bakı şəhərinin artıq yol nəqliyyat infrastrukturu müəyyən qədər qurulub, yeni asfalt örtükləri çəkilib, yeni işıqfor dirəkləri yerləşdirilib. Yəni demək olar ki, şəhərin əksər hissəsində yol infrastrukturu qurulub və bunun dağıdılması, yenidən tramvayların hərəkəti üçün yolların yaradılması kifayət qədər böyük vəsait tələb edir. Bunun üçün də yaxın vaxtlarda Bakı şəhərində tramvay xətlərinin çəkilməsi yuxu kimi görünə bilər. Ona görə ki, dövlətin özünün kifayət qədər büdcə vəsaitlərinə ehtiyacı var. Eyni zamanda Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinin kifayət qədər borcları yarandığından bu məsələ, sadəcə, istək müzakirə ola bilər. Amma bilirsiz ki, tramvay nəqliyyat növü Şərqi Avropada çox geniş yayılmış nəqliyyat növüdür".

**Ekspert tramvayın üstünlüklərindən də söz açdı:** "Onun üstünlükləri kifayət qədər çoxdur. Üstünlüklərindən biri də budur ki, şəhərin ekoloji baxımından qorunmasında çox əhəmiyyətli ola bilərdi. İkincisi də Bakı şəhərində tramvayın öz yolları var idi, hansı ki, o yollarda tıxaclar olmurdu. Bu mənada Bakıda yaranmış tıxacların əksəriyyətinin səbəbi ötən illərdən bizə qalmış tramvay nəqliyyat sisteminin ləğvi idi".

Qeyd edək ki, tramvayla sərnişin daşımaq ilk dəfə 1832-ci ildə ABŞ-da baş tutub. Belə ki, ilk tramvay yolu Nyu-York ilə Harlem arasında həyata keçirilib. Lakin ilk sınaq uğurlu olmayıb. Daha sonra nəqliyyatın bu növü daha da təkmilləşdirilərək, 1852-ci ildə yenidən xəttə çıxarılır. ABŞ-dan sonra Fransada, Londonda, Cenevrədə, İngiltərədə istifadə olunmağa başlayıb. Bu gün dünyada təkcə elektriklə deyil, benzinlə işləyən tramvaylar da var.

❑ Xalidə GƏRAY

# DÇ-2018-ə ev sahibliyi Rusiyadan alına bilər

**Bir qrup amerikalı senator FİFA-ya müraciət edərək 2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatı üçün obyektlərin tikintisində ki əmək şəraitinin araşdırılmasını istəyib.**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, müraciətdə bildirilir ki, FİFA fəhlələri və idmançıları məcburi əməkdən qoruyaraq insan haqları sahəsindəki öhdəliklərini yerinə yetirməlidir: "Dünyanın ən önəmli idman hadisəsi planetin ən zəif insanlarının çiyinlərində qurula bilməz".

Senatorlar hesab edir ki, əmək hüquqlarının pozulması



faktları təsdiqlənərsə, Rusiya dünya çempionatına ev sahibliyi etmək hüququndan məhrum olunmalıdır.

Müraciəti respublikaçı və demokrat senatorlar - Marko Rubio, Bob Menendez, Riçard Blumental, Emi Klobuşar, Kori Qardner, Ed Marki, Şerrod Braun və David Pardyu imzalayıblar. Bu, senatorların bu yöndə ilk addımı deyil. Suriyanın İdlib vilayətində kimyəvi hücum hadisəsindən sonra senator R. Blumental FİFA-ya məktub yazaraq Bəşər Əsəd rejiminə dəstək verən Rusiyanın dünya çempionatını təşkil etmək hüququndan məhrum olunmasını istəmişdi.

Qeyd edək ki, bir müddət əvvəl "The Guardian" qəzeti Rusiyada stadionların tikintisində iştirak edən şimali koreyalı fəhlələrin hüquqlarının pozulması ilə bağlı FİFA prezidenti Canni İnfantinonun məktubunu dərc edib. Lakin bir qədər sonra təşkilatdan bildiriblər ki, FİFA monitorinq qrupu araşdırma aparıb və obyektlərdə Şimali Koreyadan olan fəhlə aşkarlanmayıb.

Rusiyada dünya çempionatı 2018-ci ilin 14 iyun - 15 iyul tarixləri arasında keçiriləlidir. Oyunlar Moskva, Sankt-Peterburq, Kalininqrad, Volqoqrad, Samara, Kazan, Nijnıy Novqorod, Soçi, Yekaterinburq, Saransk və Rostov-da oynanacaq.

YENİ MÜSAVAT
N 162 (6776) 4 avqust 2017




# Gerçək ehtiyacsızlıq üçün əməli resept

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Bugünkü bəhsimizi "Təlaq" surəsinin 2-ci və 3-cü ayəsi ilə başlamaq istərdik: "...Kim Allahdan çəkinsə, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi yetirər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir..."**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## İşlə ki, ruzi də verilsin

Bu ayələrlə başlamağımız təsadüfi deyil. Nəql edirlər ki, "Təlaq" surəsinin 2-ci və 3-cü ayələri Həzrət Peyğəmbərə (s) nazil olarkən bir qisim insanlar ticarətdən və onlara gəlir gətirən digər işlərdən əl çəkib, yalnız ibadətə qapıldılar. Xəbər Peyğəmbərimizə (s) çatdıqda, onlardan soruşur: "Nə üçün işlərinizdən əl çəkmisiniz? Bunun səbəbi nədir?" Dedilər: "Allah-Təala ruzi verəcəyinə vədə vermişdir, biz də buna görə indidən belə yalnız ibadətlə məşğul olacağıq". Allahın Rəsulu (s) buyurdu: "Allah Təala belə edənlərin duasını qəbul etməyəcək. Siz özünüz ruzi dalınca getməlisiniz ki, Allah da sizə ruzi versin. Mən (yalnızca) üzünü Allaha tutub, özləri ruzi dalınca getməyənləri sevmirəm".

Çalışmanı kənara qoyub, tərki-dünyalıq etmək istəyənlərə dinimizin mənfi münasibəti, gətirilən bu mübarək hədisdə öz parlaq təzahürünü tapıb. Burada açıq-aydın görünür ki, Allah-Təalanın insanın ruzisinə zamin olması, insanın müftəxorluq, tənbəllik, süstlük etməsinə qətiyyən dəlalət edə bilməz. Əksinə, insan öz çalışması müqabilində ruzi əldə edir. Bu, Peyğəmbərimizin (s), Allah Elçisi olaraq, "Mən (yalnızca) üzünü Allaha tutub ruzi dalınca getməyənləri sevmirəm" buyurduğu mübarək kəlmədə bir daha təsdiqini tapır.

## Adi fəhlə kimi çalışan ümmətin rəhbəri

Eyni zamanda burada digər bir müstəvinin də sezildiyini vurğulamalıyıq. İradə azadlığı ilə təvəkkülün harmonik uyğunluğu da var burada. İnsandan hərəkət etmək, çalışmaq tələb olunur və Aləmlərin Rəbbi tərəfindən onun ruzi probleminin olmayacağı bəyan edilir.

**Mətləbi aydınlaşdıran digər bir hədisə diqqət edək: Allah Təala Davud peyğəmbərə (ə) vəhy edərək, buyurur:** "Başqalarına ehtiyac duymayıb, yalnız Mənə təvəkkül edənləri ehtiyacsız edərəm".

Qüdrətin mənbəyi, ehtiyacı ödəyən yeganə ünvan kimi yalnız Uca Allahın olduğu aydınlaşdırılır burada. İnsanın üzərində qəyyumluq, himayədarlıq edən, onun ehtiyaclarını daima ödəyən - Mütəal Allahdır. Və insanın digər yaranmışlara, mahiyyətcə ehtiyaclı olanlara müraciətinin mənasızlığı da bir daha aydınlaşır. Yəni insan üzünü gerçək qüdrət mənbəyinə, varolmanı təmin edən, yaranmışları qəni edən həqiqi ünvana tutmalıdır, nəinki özü kimi ehtiyaclılara.

Məsum imamlarımız (ə) çalışmaq, halal ruzi qazanmaq məsələsində daima ümmətə nümunə göstəriblər. İmam Cəfər Sadiqin (ə) səhabələrindən olan Fəzl ibni Əbi Qurrədən nəql edirlər ki, səhabələrdən bir neçəsi İmam Sadiqin (ə) mənzilinə doğru yola düşmüşdü. Həzrətin (ə) evinə çatdıqda, səhabələr imamın (ə) divar hördüyünü gördülər. Səhabələr kömək etmək üçün və ya işçi gətirmək üçün imam Sadiqdən (ə) icazə istədikdə, imam (ə) təşəkkür edərək buyurdu ki, Allah dərgahında halal ruzi üçün çalışan bir halətdə olmaq istəyir.

Gördüyümüz kimi, ümmətə rəhbərlik edən imam (ə), Uca Allaha öz bəndəliyini iqrar etməklə yanaşı, digər insanlara da dəqiq nümunə təqdim edir.

## Ərzaq məhsullarını 40 gün gizli saxlayan möhtəkirə İlahi nifrət

**7-ci İmam Musa Kazimın (ə) səhabələrindən olan Əli ibni Əbu Həmzənin nəql etdiyi hədis də bu baxımdan çox önəmlidir:** "Bir gün imam Musa Kazimin (ə) öz əkin sahəsində işlədiyini gördüm. Ayaqlarının dizlərinə qədər torpağa batdığını gördükdə, ürək ağrısı ilə dedim: "Canım sənə fəda olsun, köməkçilərin haradadır?" Buyurdu: "Peyğəmbər (s), Əmirəlmöminin Həzrət Əli (ə) və ata-babalarımın hamısı öz əlləri ilə əkib-biçər, özləri öz ruzilərini təmin edərdilər. Bu, peyğəmbərlərin və əməlisaleh şəxslərin xüsusiyyətlərindəndir".

**Amma nəzərə alaq ki, mübarək inancımızın qayda-qanunlarını bilmədən edilən ticarət, çeşidli fəsadlar yarada bilər. Həzrət Əlidən (ə) nəql edilən hədisdə bu haqda buyrulur:** "Şəriət qanunları ilə tanış olmadan ticarət edən şəxslər, səhv bataqlığına qərq olacaqlar".

**Dinimiz tərəfindən çəkindirilən bir sıra digər məsələlər də var ki, bunların arasında xüsusi yeri möhtəkirlik tutur. Bu haqda Peyğəmbərimizdən (s) nəql edilən hədisdə bildirilir:** "Yemək şeylərini (ərzaq mallarını) qırx gün gizli saxlayan şəxslər sanki Allahdan, Allah da onlardan bezar olar".

**Görürük ki, mübarək dinimiz insanlara iqtisadi çətinlik yaratmağı, inhisarçılıq edib, qiymətləri süni surətdə qaldırmağı, insanın gündəlik tələbat məhsullarına olan keçilməz ehtiyacından sui-istifadə edib, varlanmağı qətiyyətlə pisləyib. Bu barədə Həzrət Əlidən (ə) nəql edilir:** "Camaatın yemək azuqəsini 40 gün gizli saxlayanların qəlbləri daş parçasına çevrilər".

**Dinimiz digərlərini düşünməyə, halallıqla ticarət etməyə təşviq edir. Həzrət Peyğəmbərdən (s) nəql olunan hədisdə bildirilir:** "Yemək məmulatlarını alıb həmin gün satan şəxslər sanki sədəqə vermiş olurlar".

Burada iqtisadi inkişafı stimullaşdıran, cəmiyyətdə həyat tərzini yüksəldən, eyni zamanda həm də fərdin ruhi-mənəvi durumunu kamilləşdirən amillər olaraq, bahalaşdırmaq niyyəti gözləmədən, ərzaq məhsullarının tez bir zamanda satışını təşkil etmək mövzusunda təşviq edilir. Hədisdə göstərilən "sanki sədəqə vermiş olurlar" kəlməsində dinin çox bəyəndiyi əməllə müqayisə etməklə, belə növ ticarətin üstünlüyü vurğulanır.

## Niyə ticarət edirsən?

**Həzrət Peyğəmbər (s) və məsum imamlar (ə) daim öz davamçılarına tövsiyə ediblər ki, ticarət və qazanc məqsədilə evlərindən çıxdıqları zaman Allahın adını zikr edib bütün işlərini Onun adı ilə başlasınlar. Camaatla alış-veriş etdikləri müddət ərzində Allahın razılığını qazanmağa çalışmalı və bilməlidirlər ki, Allah onların gördükləri bütün işlərin, rəftar və davranışlarının şahiddir. Bu xüsusda Həzrət Peyğəmbərdən (s) nəql edilən hədisdə bildirilir:** "İnsanlar qəflət içində olduqları zaman ixlas və iman üzündən Allahı xatırlayıb onlarla Allahın kitabında olduğu kimi ticarət edərlərsə, (əməl dəftərlərinə) min savab yazılar və kimsənin təsəvvür edə bilməyəcəyi dərəcədə Allahın rəhmət dərgahından bəhrələnmiş olarlar".

Yəni insan gərək xas niyyət və əməllə, ilahi buyuruşlara uyğun ticarət etsin və bununla ilahi qayda-qanunu yaşatsın. Bunun müqabilində İlahi dərgahda böyük mükafat gözləyir insanı. İnsan hansı halal işlə məşğul olursa-olsun, gərək daima ruhunu zənginləşdirməyə çalışsın, Allahla rabitəsini qırmasın, nə üçün Yer üzənə gəldiyini unutmasın. Xatırlasın ki, kamilləşmək üçün, sınaqlardan şərafətlə çıxmaq üçün, ilahi harmoniyanı bərqərar etmək üçün gəlmişdir həyata. Və belə olan təqdirdə, həm dünyada, həm də axirətdə gözəl aqibət ona qismət olar.

## "Ticarətdə hiylə işlədən şəxslər bizdən deyil..."

**Maraqlı cəhətlərdən biri də budur ki, insanın alış-veriş yerinin daha da bərəkətli olması, bazarın özünün həqiqi statusuna - ilahi nemətlər süfrəsinə yetişməsi üçün də mübarək dinimiz tərəfindən müəyyən dualar təqdim olunmuşdur. İmam Muhəməd Baqir (ə) alış-verişlə məşğul olan səhabələrinə bu duanı oxumaqlarını tövsiyə edərdi:** "İlahi! Səndən bazarın və bazar əhlinin xeyrini istəyirəm".

**Ticarət etdikləri yerlərə girdikləri zaman isə bu duanı oxumağı tövsiyə edərdi:** "Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur, O, yeganədir və şəriki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd (s) - Onun qulu və elçisidir. İlahi! Mən Sənin fəzlindən pak və halal ruzi istəyirəm və kimsəyə zülm etməkdən və kimsənin mənə zülm etməsindən, ziyankar və yalan yerə and içən şəxslərdən Sənə pənah gətirirəm".

**Burada dinimizin alış-verişə aid ümumi tövsiyələrinə də bir qədər diqqət edək. Bu mövzuda Həzrət Peyğəmbərdən (s) nəql edilən mübarək hədisdə bildirilir:** "Alış-veriş etmək istəyən şəxslər sələm verməməli, and içməməli, malın eyb və nöqsanını gizlətməməli, satdığı zaman malı (həddindən artıq) tərifləməməli və aldığı zaman malı pisləməməlidir. Əks təqdirdə, alış-veriş etməməlidir".

**Eyni zamanda dinin göstərişlərinə görə, alıcı malın eyb və nöqsanları barədə tam məlumatlı olmalıdır. Malın dəyərini aşağı salan məlumatı alıcıdan gizlətmək pislənib. Əhli-Beytdən (ə) bu mövzuda nəql edilən hədisdə bildirilir ki:** "Peyğəmbər (s) bazarda olduğu zaman buğda satan bir şəxs ilə qarşılaşır. Buğdanın zahiri görünüşü Peyğəmbəri (s) özünə cəlb edir. Lakin əlini içinə saldıqda buğdanın nəm olduğunu hiss edir. Bunun nə üçün belə olduğunu soruşduqda satıcı cavab verir: "Üzərinə yağış yağıb". Həzrət Peyğəmbər (s) soruşur: "Elə isə nə üçün onları üstə qoymamısan ki, camaat görsün? Ticarətdə hiylə işlədən şəxslər bizdən deyil".

Beləliklə, hələ 1400 il bundan öncə dinimiz gözəl ticarətin qaydalarını bəşərə məlum etmişdi. Bunları yaşatmaq, gündəlik həyatda tətbiq etmək həm fərd üçün, həm də ümumilikdə toplum üçün gözəl nəticələrə səbəb olar. Sırf inzibati tədbirlərlə insanı halal ticarət etməyə, başqalarını düşünməyə, insaf və vicdan kateqoriyalarını rəhbər tutmağa məcbur etmək çox çətindir, bəlkə də mümkünsüzdür. Amma insan öz mənəvi dəyərlərini inkişaf etdirməklə, imanını kamilləşdirməklə, Allahdan qeyrisinin görmədiyi, şahid olmadığı bir şəraitdə də vicdanın xilafına iş görməz.

## Ağlın ən üstün dərəcəsi - özünü tanımaqdır

Yaşadığımız günlər İmamət səmasının 8-ci ulduzu Həzrət İmam Rzanın (ə) mövludu günlərinə təsadüf edir. Təbərrük üçün İmam Rzadan (ə) bir neçə hədisə diqqət edək.

İmam Rza (ə) buyurub: *"Ən üstün və dəyərli sifətlər: yaxşı işləri yerinə yetirmək, çarəsizlərin fəryadına çatmaq, arzu edənlərin arzusunu yerinə yetirməkdir".*

*"İman ibarətdir: dildə etiraf etmək, qəlb ilə tanımaq, əzalar ilə yerinə yetirmək".*

*"Ağlın ən üstün dərəcəsi - özünü tanımaqdır".*

*"O kəs ki, haqq yolunda səbir edər, Allah -Təala əvəzində səbir etdiyi şeydən də yaxşısını ona verər"*

*"Xoş xasiyyət iki cürdür: fitri və ixtiyari. İxtiyari xasiyyətin sahibi daha üstündür".*

*"Bəlaya səbir etmək - gözəl və bəyəniləndir. Ancaq ondan da üstünü - haramlar qarşısında səbir etməkdir".*

*"Dostlarınla təvazökar ol, düşmənindən ehtiyat et və ümumi insanlarla gülərüz ol".*

"Zəifə yardım etmək sədəqə verməkdən daha yaxşıdır".

**Allahım, Qarabağın, Fələstinin və digər müsəlman torpaqlarının tezliklə azad olunmasını nəsib et!**

**Allahım, müşkülü olan insanlara tövfiq əta et!**

**Allahım, dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasını, 12-ci İmamımız - Həzrət Mehdi Sahib əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 162 (6776) 4 avqust 2017



## Xərçəng xəstəsinin son arzusu - buzlu içki...

**Pankreas xərçəngi xəstəliyinə görə son günlərini Vaşinqtonda bir xəstəxanada keçirən Emili Pomeranz doğulduğu qəsəbədəki bir restoranın qəhvəli və şokolad qarışıq olan "milkshake" adlı içkini özlədiyini tez-tez deyib. Qadının yaxın dostu Sam Klein bu sifarişi təşkil etmək üçün Ohio ştatındakı Tommy's adlı restorana bir e-mail yollayıb. Kleynə bir neçə gün sonra restoranın sahibi Tommi Fellodan bir zəng gəlib. "Narahat olmayın, bunu gerçəkləşdirmənin bir yolunu tapacağıq" deyərək, telefonu qapadan Fello bunu necə bacaracaqlarının cavabını isə bilməyib.**

47 ildir eyni restorana sahiblik edən Tommy Fello içkini quru buza qoyub və 123 dollar pul ödəyərək, 600 kilometr uzaqlıqdakı xəstəxanaya "sürətli çatdırılma" ilə göndərib. İçki ölümündən 4 gün əvvəl xəstəxanaya çatdırılıb. 50 yaşındakı Emili Pomeranzın öz "milkshake"dən qurtum alanda çox xoşbəxt olduğunu deyən Sam Klein itirdiyi dostu haqqında da bunları söyləyib: "Emili indi bizimlə olmasa da, bu hekayəni eşidən insanların özünü yaxşı hiss etməsinə görə xoşbəxtdir, mən buna əminəm".

## Nəzarətçini aldadıb türmədən qaçdılar

**ABŞ-ın Alabama ştatındakı türmədə məhbuslar nəzarətçini fıstıq yağı ilə aldadaraq qaçıblar. Bu barədə lenta.ru saytı BBC-yə istinadən xəbər verib. Belə ki, məhkumlardan biri girişdəki qapıya fıstıq yağı sürtüb. Daha sonra isə işə yeni başlayan türmə nəzarətçisini inandırıb ki, bu qapı onun kamerasına gedən yolda olduğu üçün qıfılını söksün. Türmə nəzarətçisinin səhvi ucbatından 12 məhkum rahatlıqla qaçıb. Onların hər biri narıncı rəngli məhkum geyimi ilə yanaşı içəridən yorğan da götürüblər ki, ona bürünərək, türmənin ümumi məftillərindən rahat keçə bilsinlər.**



Yerli polis idarəsinin məlumatına görə, 11 məhbus qaçandan 12 saat sonra geri qaytarılıb. Sonuncu cinayətkar polisdən 2 sutka boyunca gizlənib. Kişini Florida ştatındakı Tekest kəndində tapıblar.

İyulda xəbər verildi ki, sosial şəbəkələrdə Cənubi Kaliforniya türməsindən qaçan 3 məhbus barədə video yayılıb.

## 5 butulka içki 280 min dollara başa gəldi

**Britaniyada marketdən 5 butulka spirtsiz "Vimto" içkisinin oğurlanması üzrə işin istintaqına 280 min dollardan çox pul xərclənib. "The Daily Telegraph" qəzetinin xəbərinə görə, bu vəsait hüquqşünasların məsləhətlərinə və istintaqı aparan polislərin maaşlarının ödənilməsinə sərf olunub.**

Məlumatda deyilir ki, nəqliyyat polisinin iki əməkdaşı dəmir yol xəttinin kənarından içərisində 5 şüşə qazlı içki olan karton qutu tapıblar. Təlimata görə, onlar tapıntını ya itmiş, ya da oğurlanmış əmlak kimi rəsmiləşdirməliydilər. Ancaq isti havada polislər qazlı içkini öz yoldaşları ilə bölüşdürüb içiblər. Nəticədə polis içkinin oğurlanması ittihamı üzrə onlara qarşı cinayət işi qaldırıb, il yarım davam edən istintaq ərzində onları vəzifələrindən azad ediblər və hər birini 400 funt cərimələyiblər. İşin istintaqına isə böyük məbləğdə pul xərclənib. Halbuki qazlı içkiləri yolun kənarından tapıb içən polislərə irad bildirmək də kifayət edərdi. Qəzet bu faktı Bitaniyada xırda qanun pozuntularına görə bəzən illərlə davam edən və böyük vəsaitlər hesabına başa gələn mənasız istintaq proseslərinə nümunə kimi göstərir.






## Göbələk yığmağa getmişdi, özünü kəsdi və öldü

**Meşəyə göbələk yığmaq üçün gedən Polşa sakini təsadüfən damarını kəsib və qan itirdiyi üçün dünyasını dəyişib. Bu barədə "Dziennik Wshodni" nəşri xəbər verir. Starı Zamost bölgəsinin sakini təkbaşına meşəyə gedib. O, qohumlarına xəbər verib ki, tezliklə geri qayıdacaq. Amma bir neçə dəqiqə sonra qadın təcili yardım xidmətinə zəng edərək deyib ki, bıçaqla boğazını kəsib. Dispetçer hadisənin harada baş verdiyini dəqiqləşdirmək istəyəndə xətt kəsilib. Böyük ehtimalla 59 yaşlı zərərçəkmiş həmin vaxt huşunu itirib. Həkim və polis heyəti hadisənin baş verdiyi məkanı tapsa da, qadını xilas etmək mümkün olmayıb. Rayon prokurorluğu baş vermiş hadisənin istintaqını aparır. Qadının bıçaqla boğazını necə kəsə biləcəyi hələ də sual altındadır.**




**QOÇ** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**BUĞA** - İnsanların bir-birinə soyuqlaşdığı indiki ərəfədə dini-mistik dəyərlərə qiymət verməlisiniz. Bu baxımdan, Tanrıya zidd olan addımlar atmamalısınız. Səhhətinizi qoruyun.

**ƏKİZLƏR** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Başqalarının qəlbinə dəyən hərəkətlərə yol verməyin.

**XƏRÇƏNG** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ŞİR** - Bu təqvimdə ən müxtəlif situasiyalarla rastlaşa bilərsiniz. Daha həssas olduğunuz üçün emosiyalarınızı cilovlayın. Mübahisə etməyin. Başınızı yalnız adi işlərlə qatın.

**QIZ** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin, Tanrı nəzərini unutmayın.

**TƏRƏZİ** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**ƏQRƏB** - Ulduzların düzümü bu təqvimdə riskdən uzaq olmağı tövsiyə edir. Günorta saatlarında isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə bacardığınız qədər qənaətcil olun.

**OXATAN** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Ölçülü-biçili danışın.

**SUTÖKƏN** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yemək gündəliyi tutmaq insanı arıqladır



**Amerikada həyata keçirilən bir araşdırmanın nəticələri maraqlı bir həqiqəti üzə çıxarıb. Həmin araşdırmanın nəticəsində məlum olub ki, "yemək gündəliyi" tutan qadınlar daha tez arıqlayır.**

Boğazından keçən hər loxmanı yazmaq kalori nəzarətində mühüm rol oynayır. Bu formada pəhriz saxlayan insan dietasında daha sadiq olur. Araşdırma qrupundan olan Anne Mc Tiernan bildirib ki, insanlar gündəlik əvəzinə yediklərini noutbuka, telefona və ya iPad-a yazaraq qidalanmasını nəzarətdə saxlaya bilər. Məqalədə bildirilib ki, insanlar xüsusən də günorta yeməklərini restoranda yeməkdən qaçmalıdır. Gündə üç dəfə yemək həkimlərin əsas məsləhətidir. Hansısa yemək növbəsini ixtisara salıb ötürmək arıqlamaya ən böyük zərbədir. Bir illik araşdırma nəticəsində məlum olub ki, yediklərini yazanlar pəhriz saxlayan digər adamlarla müqayisədə 3 kilo daha çox çəki itirib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100